RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 39 (8355) CÜMƏ, 21 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Azərbaycan-İtaliya əlaqələri yeni mərhələyə yüksəlir

### Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya dövlət səfəri

## Rəsmi qarşılanma mərasimi











İtaliya Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 20-də Romada rəsmi qarşılanma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev süvari dəstəsinin müşayiəti ilə Romanın Kuirinale Sarayına gəldi.

Azərbaycan dövləti başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı İtaliya Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella qarşıladılar.

Azərbaycanın və İtaliyanın dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Azərbaycan və İtaliya prezidentləri fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, İtaliya Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella birgə foto çəkdirdilər.

Azərbaycan nümayəndə heyəti İtaliya Prezidentinə, İtaliya nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.



## Ali dəyərlərin qoruyucusu

**Bu gün Azərbaycan təkcə Şərqdən Qərbə və Qərbdən Şərqə gedən yolların baş keçidi deyil, habelə siyasi-iqtisadi maraqların, dinlərin, mədəniyyətlərin, sivilizasiyaların qovuşduğu məkan, qarşılıqlı tamamlanma və vəhdət rəmzidir. Azərbaycanın Şərq və Qərb mədəniyyətləri arasında tutduğu mövqe, bu iki dünyanın zəngin mədəni irsinə sahibliyi mədəniyyət diplomatiyasında ölkəmizin önəmini son dərəcə artırır.**

Azərbaycan regionda iqtisadi gücü ilə fərqləndiyi kimi, dövlət-din münasibətlərinin təkmilləşdirilməsi və inkişafı kontekstində də ciddi uğurlara imza atır. Ölkəmiz milli-mənəvi dəyərləri ilə sivilləşir, dünyaya inteqrasiya prosesi sürətlənir. Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlər əsas xətt olaraq davam etdirilir. Azərbaycanın imicinin yüksəldilməsində, onun dünyaya təqdimində görülən bu və ya digər işlər dövlətin maraqlarını ifadə edir.

Son illər bütün dünyada elmi-siyasi ədəbiyyatların əsas tematikası olan və gün keçdikcə daha da aktuallaşan, hətta zərurətə çevrilən mədəniyyətlərin yaxınlaşması günün vacib məsələsidir. Mədəniyyətlərarası dialoq prosesində özünəməxsus mövqeyi ilə seçilən Azərbaycanda tarix boyu müxtəlif mədəniyyətlərin, dinlərin, millətlərin, etnik qrupların nümayəndələri qarşılıqlı hörmət və mehriban qonşuluq şəraitində, bir ailənin üzvləri kimi yaşayıblar və fəxrlə deyə bilərik ki, bu ali xüsusiyyəti günümüzədək qoruyub saxlamışıq. Bu gün çoxmillətli, çoxkonfessiyalı ölkəmizdə dini etiqad azadlığı tam şəkildə təmin edilir və bütün dinlərin, xalqların, etnik qrupların nümayəndələri eyni hüquqlara malikdirlər. Xalqımızın gen yaddaşından süzülüb gələn dözümlülük, multikultural ənənə bizim üçün normal yaşayış, həyat tərzidir. Azərbaycanda heç vaxt dini, milli zəmində qarşıdurma olmayıb. Bu sahədə cəmiyyətdə formalaşmış dözümlülük, tolerant və multikultural ənənələr ilə yanaşı, düşünülmüş dövlət siyasəti də çox böyük rol oynayır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlət tərəfindən bu sahədə yaradılan bütün zəruri şərait və dəstək dünyaya örnək sayılacaq səviyyədədir.

*Ardı 5-ci səh.*



## Şərəfli missiya

**Müstəqilliyimizin və dövlətçiliyimizin daha da qüdrətlənməsi üçün Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi və müasir dövrdə Prezident İlham Əliyevin qətiyyətlə həyata keçirdiyi siyasi xəttin tam düzgünlüyü bütün sahələrdə real təsdiqini tapıb.**

Ona görə belə bir fakt hamı tərəfindən qəbul olunur ki, bu siyasi xəttin davam etdirilməsi Azərbaycanın bugünkü və gələcək inkişafının yeganə etibarlı təminatıdır.

Bu gün qarşımızda duran əsas vəzifə vətəndaşlıq mövqeyindən çıxış etmək, respublikamızın daha da qüdrətlənməsi üçün çalışmaq və bu istiqamətdə uğurla reallaşan siyasi kursa dəstək verməkdir. Bu şərəfli vəzifələr naminə çalışmaq, əlindən gələni etmək hər bir azərbaycanlının borcudur. Bu baxımdan öz əməlləri ilə nümunəyə çevrilən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həyata keçirdiyi çoxşaxəli fəaliyyəti bütün vətəndaşlar tərəfindən təqdir olunur.

*Ardı 5-ci səh.*

## Vətəndaşa həssas və qayğıkeş münasibətin mükəmməl örnəyi

Hər bir hakimiyyətin öhdəliklərinə sadiqliyi onun xalqa xidmət səviyyəsini müəyyən edən başlıca meyarlardan biridir. Bu prinsipi əsas tutan siyasi qüvvə yalnız məqsəd və hədəflərini bəyan etməklə kifayətlənməyərək hər bir fərdin mənafeyinə cavab verən mütərəqqi islahatlarla davamlı inkişafa təminat yaradır.

Əlbəttə, bu da bir reallıqdır ki, bəzən irəli sürülən ideyaların real icra mexanizmlərinin olmaması onların kağız üzərində qalması, reallaşmaması ilə nəticələnir. Bu mənada insanları konkret iş, bir qədər də dəqiqləşdirsək, bu işin konkret nəticələri daha çox maraqlandırır.

*Ardı 6-cı səh.*





## Böyük himayədar, səmimi dost

### Məcburi köçkünlərin sosial problemlərinin həlli Birinci vitse-prezidentin xüsusi diqqət mərkəzindədir

**Ölkəmizdə əhalinin həssas təbəqəsi kimi qaçqın və məcburi köçkünlərə göstərilən qayğı daim yüksələn xətt üzrə inkişaf etməkdə, bu kateqoriyadan olan insanların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində yeni mühüm tədbirlər həyata keçirilməkdədir.**

Sözügedən proses Mehriban xanım Əliyevanın 3 il öncə Birinci vitse-prezident təyin olunmasından sonra daha geniş vüsət almağa başladı.

Ümumiyyətlə, Mehriban xanım Əliyevanın fəaliyyətində qaçqın və məcburi köçkünlərin problemlərinin effektiv həlli hər zaman əsas istiqamətlərdən birini təşkil edib.

*Ardı 7-ci səh.*

◆ Zəlzələ bölgəsindən reportaj

## “Prezident və Mehriban xanım bizi yenidən həyata qaytardılar”

### Zəlzələdən sonra Şamaxıda Heydər Əliyev Fondunun xətti ilə inşası və bərpası nəzərdə tutulan bütün evlərdə işlər başa çatdırılıb

**Baş vermiş təbii fəlakətdən sonra Şamaxının Muğanlı kəndində yaşayan Maarif Səfərova məxsus fərdi yaşayış evi də qəzalı vəziyyətə düşüb.**

Ailənin köməyinə isə tezliklə Heydər Əliyev Fondu yetişib. Cəmi iki ay müddətinə Mehriban Əliyevanın göstərişi ilə evin yerində 3 otaqlı yenisi inşa olunub. 6 nəfərlik ailə indi həmin mənzildə yaşayır.

*Ardı 7-ci səh.*



# Azərbaycan-İtaliya əlaqələri yeni mərhələyə yüksəlir

## Azərbaycan və İtaliya prezidentlərinin təkbətək görüşü



Fevralın 20-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə təkbətək görüşü olub. AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında əlaqələrin inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## İtaliya hər zaman Azərbaycanın dostu olub

Fevralın 20-də təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyevi salamlayan **İtaliya Prezidenti Sercio MATTARELLA** dedi:

- Cənab Prezident, Romaya xoş gəlmisiniz. Sizin səfərinizdən çox məmnunam. İki il əvvəl Bakıda mənə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirirəm. Hazırkı səfəriniz də Azərbaycan və İtaliya arasında səmimi dostluğun və güclənən əməkdaşlığın bir daha qeyd edilməsi, eləcə də Sizin və hökumətinizin İtaliya-Azərbaycan əlaqələri üçün yürütdüyü siyasətin, habelə ölkələrimiz arasında bütün istiqamətlərdə - enerji, ticari-iqtisadi, siyasi və mədəni sahələrdə əməkdaşlığın dəyərləndirilməsi üçün gözəl fürsətdir.

Cənab Prezident, bir daha xoş gəlmisiniz. Təşəkkür edirəm, cənab Prezident. Sizin İtaliyaya dövlət səfərinizdən böyük məmnunluq duyuruq.



* * *

**Prezident İlham ƏLİYEV** dedi:

- Təşəkkür edirəm, hörmətli cənab Prezident.

İlk növbədə, İtaliyaya dövlət səfərinə dəvətə və göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirirəm. Yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam.

Sizin Azərbaycana tarixi səfərinizi məmnuniyyətlə xatırlayıram. Səfər zamanı əldə edilmiş razılaşmalar artıq həyatda öz əksini tapır və bu gün İtaliya-Azərbaycan əlaqələri yeni yüksək səviyyəyə qalxır. Həm siyasi sahədə, iqtisadi sahədə, energetika, mədəniyyət, nəqliyyat, demək olar ki, bütün sahələrdə şirkətlərimiz arasındakı əlaqələr yeni pilləyə qalxır. Səfər zamanı imzalanacaq çoxsaylı sənədlər bizim əlaqələrimizi daha da gücləndirəcək. Onların arasında xüsusilə strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannaməni qeyd etmək istərdim.

Energetika sahəsində çox gözəl nəticələr var. Bizim birgə icra etdiyimiz "Cənub qaz dəhlizi" yekunlaşmaq üzrədir. Bizim bundan sonra əsas istəyimiz ondan ibarətdir ki, qeyri-neft sektorunda İtaliya və Azərbaycan arasındakı əlaqələr daha sürətlə inkişaf etsin. Sabah keçiriləcək biznes forum, əminəm ki, bu istiqamətdə çox önəmli addım olacaq.

Bir daha qonaqpərvərliyə və dəvətə görə təşəkkürümü bildirirəm. Əminəm ki, səfərin yekunları çox müsbət olacaq.

* * *

Görüşdə "Çoxölçülü strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"nin əhəmiyyəti vurğulandı. Bildirildi ki, bu sənəd bütün sahələri, o cümlədən siyasi, iqtisadi, ticari, enerji sahələrini əhatə edir.

Söhbət zamanı İtaliyanın hər zaman Azərbaycanın dostu olduğu vurğulandı. Azərbaycanın qlobal baxımdan çox əhəmiyyətli bir regionda yerləşdiyi və bütün ölkələrlə yaxşı əlaqələr qurduğu qeyd edildi.

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyi bir daha vurğulandı. Bu münaqişənin məhz Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri və Helsinki Yekun Aktına əsasən həll edilməsinin zəruriliyi bildirildi.

Söhbət zamanı ölkələrimiz arasında mədəniyyət sahəsində əlaqələrin inkişafında Heydər Əliyev Fondunun rolu xüsusi qeyd olundu. 2020-ci ilin İtaliyada mədəniyyət baxımından "Azərbaycan ili" elan edildiyi diqqətə çatdırıldı.

## Azərbaycan dialoqa çox açıq və bütün dünya tərəfindən görünən müasir bir ölkədir

Fevralın 20-də geniş tərkibdə görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikasının Prezidenti Sercio Mattarella mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə İtaliya Prezidenti bəyanatla çıxış etdi.



### Prezident Sercio Mattarellanın bəyanatı

- Prezident İlham Əliyevi Kuirinaledə qarşılamaq mənim üçün çox böyük məmnunluqdur və böyük şərəfdir. Bu, onun İtaliyaya ilk dövlət səfəridir. Çox məmnunam ki, mənim Bakıya təqribən iki il bundan əvvəlki səfərimdən sonra cənab Prezidentin buraya səfəri baş tutur. İki il bundan əvvəlki səfərdən mənim çox gözəl xatirələrim var. Bu gün cənab Prezidentin Romaya səfəri bir daha İtaliya ilə Azərbaycan arasındakı əlaqələrin nə qədər güclü olduğunu göstərir.

Biz artıq apardığımız danışıqlar nəticəsində bir neçə məsələni qeyd etdik. Burada İtaliya ilə Azərbaycan arasında olan əlaqələri xüsusilə vurğuladıq. Yalnız enerji sahəsində deyil, həmçinin digər sahələrdə, həm siyasi, həm mədəni sahələrdə olan əlaqələri vurğuladıq. Burada müxtəlif sahələrdə tərəfdaşlığın gücləndirilməsi ilə bağlı Birgə Bəyannamə qeyd olundu. Cənab Konte və cənab Prezident tərəfindən imzalanan bu bəyannamə əlaqələrimizin demək olar ki, bütün sahələrdə inkişafına təkan verəcək.

İtaliya ilə Azərbaycan bir-biri ilə dost ölkələrdir və regionda əsas tərəfdaşlardır. Azərbaycan dialoqa çox açıq və bütün dünya tərəfindən görünən müasir bir ölkədir. Burada mən, həmçinin Qoşulmama Hərəkatına Azərbaycanın üçillik sədrliyini qeyd etmək istəyirəm. Azərbaycan bu öhdəliyi öz üzərinə götürmüşdür və bu, onun beynəlxalq sahədəki işini daha da gücləndirəcək. Mən bu işdə cənab Prezidentə uğurlar arzulayıram.

Biz iqtisadi-ticari sahədə çox intensiv əlaqələrə malikik, çox böyük inkişafla irəli gedirik. İtaliya müəssisələri Azərbaycana cəlb olunur, bir çoxları işləyir və bundan sonra digərləri də bu sahəyə cəlb olunacaqlar.

Bundan başqa, cənab Prezident və bütün hökumət ölkənin iqtisadi-siyasi həyatının şaxələndirilməsi ilə bağlı bir çox planlar reallaşdırır. Biz bu işə dəstək olmaq üçün hər zaman hazırıq. Bugünkü görüşlər zamanı bir neçə sahə üzrə imzalanmış sazişlər mübadilə olunacaq. Bu, bizim iqtisadi, siyasi sahələrdə inkişaf edən əməkdaşlığımızın bariz göstəricisidir. Bundan əlavə, "Cənub qaz dəhlizi" layihəsini qeyd etmək istərdim. Artıq TAP layihəsi üzrə işlər yekunlaşmaq üzrədir. Bu, İtaliya ilə Azərbaycan arasında əlaqələrin daha da inkişafına, həmçinin Xəzər dənizi və Aralıq dənizi regionlarında sabitliyin qorunmasına yardımçı olacaq.

Mən Azərbaycanın beynəlxalq məsələlərə müsbət baxışını qeyd etmək istərdim. Azərbaycan enerji sahəsində hər zaman hamı ilə əməkdaşlıq etməyə açıq bir ölkədir. Mən bir daha qeyd etməliyəm ki, Azərbaycan beynəlxalq məsələlərdə bütün ölkələrlə dialoqa hazırdır. Bundan başqa, bir qədər öncə biz cənab Prezidentlə qeyd etdik ki, ölkələrimiz arasında mədəni sahədə də inkişaf gedir. Bugünkü görüşlər zamanı bu sahədə də bir çox sazişlərin imzalanması gözlənilir və bütün bu sazişlər çox mühümdür. Lakin mən onların içərisində ən mühümlərindən birini xüsusi qeyd etmək istərdim. Azərbaycanın "Azərkosmos" şirkəti ilə İtaliyanın tərəfdaş şirkəti arasında gələcək əməkdaşlıq və yüksək texnologiyanın tətbiqi ilə bağlı saziş mübadilə olunacaq.

Mən artıq cənab Prezidentə bu barədə bildirdim ki, 2020-ci il İtaliyada "Azərbaycan ili" elan olunub. Bu, bizim əlaqələrimizi, dostluğumuzu, əməkdaşlığımızı artırmağa kömək edəcək və iki ölkə arasında münasibətləri daha da intensivləşdirəcək. Bundan başqa, biz, həmçinin Dağlıq Qarabağla bağlı müəyyən bir sabit nəticənin əldə olunması haqqında danışdıq. Biz bu məsələyə İtaliya tərəfindən hər zaman dəstək olduğumuzu bildiririk. Biz ümid edirik ki, bu məsələ üzrə siyasi danışıqlar sayəsində qısa bir zamanda müəyyən nəticələr əldə olunacaq.

İtaliya Azərbaycanla Avropa İttifaqı arasında da əlaqələrə hər zaman dəstək olmağa hazırdır. Biz Avropa İttifaqı və Azərbaycan arasındakı əlaqələrə stimul olmaq üçün bu sahədə də çox geniş formada əməkdaşlıq etməyə hazırıq. İtaliya Azərbaycanı, həmçinin Avro-Atlantik Tərəfdaşlıq üzrə də ən əsas tərəfdaş kimi görür. Əfqanıstanda terrorizmə qarşı mübarizədə və gördüyünüz kimi, hər bir sahədə bizim ölkələrimiz arasında əməkdaşlıq çox yüksək səviyyədədir. Azərbaycan hər zaman bu əməkdaşlıqda İtaliyanın dostluğuna və dəstəyinə əmin ola bilər. Bir daha xoş gəlmisiniz.

* * *

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Təşəkkür edirəm, hörmətli cənab Prezident.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, məni İtaliyaya dövlət səfərinə dəvət etdiyinizə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam. Bu gün həm təkbətək görüş zamanı, həm də nümayəndə heyətlərinin iştirakı ilə aparılan danışıqlarda bir daha əmin oldum ki, İtaliya və Azərbaycan bir-birinə çox yaxın olan dost ölkələrdir.

Cənab Prezident, Sizin Azərbaycana rəsmi səfərinizi məmnuniyyətlə xatırlayıram. Həmin səfər ölkələrimizin gələcək əməkdaşlığına çox güclü təkan vermişdir və səfər zamanı əldə edilmiş bütün razılaşmalar bu gün həyatda öz əksini tapır.

Bu gün çoxsaylı ikitərəfli sənədlərin imzalanması nəzərdə tutulur. Onların hər biri çox önəmlidir, bir çox sahələri əhatə edir. Ancaq mən xüsusilə strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannaməni qeyd etmək istərdim. Çünki bu bəyannamədə, əslində, bizim strateji tərəfdaşlığımızın gələcək istiqamətləri müəyyən edilir. Bu, çox dərin və müfəssəl sənəddir və həm siyasi, həm iqtisadi, mədəni, humanitar, bütün sahələri əhatə edən bir sənəddir. Eyni zamanda, İtaliya və Azərbaycanın beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə dəstək göstərməsi haqqında da müddəa var. Bu da yaxın, dost ölkələr, müttəfiqlər arasında olan bir məsələdir.

İqtisadi sahədə əməkdaşlığımızın gələcək inkişafı çox müsbət olacaqdır. Əminəm ki, bundan sonra biz İtaliya şirkətlərinin qeyri-neft sektorunda əməkdaşlıq etmələrini görəcəyik. Bu günə qədər də bir çox İtaliya şirkətləri Azərbaycanda müxtəlif layihələrdə iştirak etmişlər. Ticarət dövriyyəsinə gəldikdə, İtaliya bizim üçün dünya miqyasında bir nömrəli tərəfdaşdır. Keçən il ticarət dövriyyəmiz 6 milyard dollara çatmışdır. Düzdür, bunun böyük hissəsi neft sektoruna aiddir. Ona görə biz ticarət dövriyyəmizin şaxələndirilməsi ilə bağlı fikir mübadiləsi apardıq.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı cənab Prezident dediyi kimi, biz məsələni müzakirə etdik. Bu məsələnin həlli yolları imzalanmış Birgə Bəyannamədə də göstərilir. Orada göstərilir ki, İtaliya və Azərbaycan bir-birinin ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərin toxunulmazlığına hörmətlə yanaşır və bunu dəstəkləyir. Eyni zamanda, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin məhz bu prinsiplər əsasında, Helsinki Yekun Aktı, BMT və ATƏT tərəfindən qəbul edilmiş qətnamə və qərarların əsasında həll olunması göstərilir. Hesab edirəm ki, bu, çox ədalətli və beynəlxalq hüquqa əsaslanmış mövqedir və bu mövqeyə görə biz İtaliya tərəfinə minnətdarıq.

O ki qaldı məsələnin konkret həlli ilə bağlı addımlara, Ermənistan tərəfindən çox məyusedici və bir-birini inkar edən və ziddiyyətli bəyanatlar səslənir. Ermənistan rəhbəri bir dəfə demişdi ki, Dağlıq Qarabağ Ermənistandır. Ondan sonra demişdir ki, Dağlıq Qarabağ müstəqil dövlətdir. Hər ikisi həqiqəti əks etdirmir. Dağlıq Qarabağ Azərbaycandır. Bunu tarix, beynəlxalq hüququn norma və prinsipləri göstərir. Azərbaycanın ərazi bütövlüyü o cümlədən Dağlıq Qarabağ daxil olmaq şərtilə bütün dünya tərəfindən tanınır və qəbul edilir. Ona görə münaqişə yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Biz bu gün, cənab Prezidentin dediyi kimi, mədəniyyət sahəsində əməkdaşlığa da toxunduq. Biz bu sahədə əməkdaşlığı dərinləşdirmək istəyirik. Azərbaycanın İtaliyada Mədəniyyət Mərkəzinin açılışı nəzərdə tutulur. Bir neçə il bundan əvvəl dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsi Villa Borgeze parkında ucaldılıb.

Bizim təhsil sahəsində çox yaxşı əməkdaşlığımız var və bu sahədə də sənədlərin imzalanması nəzərdə tutulur. Hazırda Azərbaycanın 1500-dən çox tələbəsi İtaliyanın ali məktəblərində təhsil alır.

O ki qaldı energetika məsələlərinə, Azərbaycan İtaliya üçün bir nömrəli xam neft təchizatçısıdır. İtaliyanın xam neft istehlakının 17 faizi Azərbaycanın payına düşür. On beş ilə yaxındır ki, Azərbaycan İtaliyaya xam neft ixrac edir və bu müddət ərzində heç bir problem, heç bir fors-major hadisəsi olmamışdır. Yəni Azərbaycan etibarlı tərəfdaş kimi özünü təsdiqləyib.

O ki qaldı təbii qazın ixracına, bu layihə də yekunlaşmaq üzrədir. TAP layihəsinin icrası 92 faizə çatıbdır və TAP layihəsi "Cənub qaz dəhlizi"nin dördüncü və sonuncu layihəsidir. Bundan əvvəl üç layihə icra edilmişdir. "Cənub qaz dəhlizi"nin bir tərəfində Azərbaycan və o biri tərəfində İtaliya dayanır. Bizim aramızdakı daha beş ölkə, bütövlükdə yeddi ölkə arasında əməkdaşlıq yaranır. Bu əməkdaşlıq enerji və bütün başqa sahələrə də müsbət təsir göstərəcək. Çünki bu ölkələr artıq bir-biri ilə sıx bağlı olan ölkələr olurlar. Bundan sonra bu ölkələr arasındakı siyasi, iqtisadi, mədəni əlaqələrin inkişafı da təbii ki, daha sürətlə gedəcək.

"Cənub qaz dəhlizi" tarixi layihədir və mən xüsusilə Prezident Mattarellaya onun göstərdiyi səylərinə görə dərin minnətdarlığımı bildirmək istəyirəm. Çünki 2018-ci ilin iyul ayında Azərbaycanda rəsmi səfərdə olarkən Prezidentlə bizim bu barədə söhbətimiz olub. Bu söhbətdən sonra TAP-ın icra edilməsi daha sürətlə getmişdir və hazırda biz layihənin son mərhələsindəyik.

Biz, eyni zamanda Avropa İttifaqı-Azərbaycan əlaqələri haqqında fikir mübadiləsi apardıq. Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzərində iş gedir. Hesab edirəm ki, bu gün imzalanacaq çoxölçülü strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə bu saziş üçün də gözəl əsas təşkil edə bilər.

NATO-Azərbaycan əlaqələri uğurla inkişaf edir. Biz qoşunlarımızı Əfqanıstana uzun illər bundan əvvəl göndərmişik. Sülhməramlı əməliyyatlarda Azərbaycan fəal iştirak edir və NATO qoşunları üçün çox önəmli logistik və nəqliyyat xidmətləri göstəririk. Nəzərə alsaq ki, Azərbaycanın coğrafi yerləşməsi və nəqliyyat infrastrukturu çox əlverişlidir, biz bu sahədə də uğurlu əməkdaşlıq edirik.

Yəni səslənən bu məsələlər və fikirlər artıq aydın göstərir ki, iki ölkə arasındakı strateji tərəfdaşlıq və dostluq əlaqələri vardır və bu əlaqələr bundan sonra da uğurla inkişaf etdiriləcəkdir. Sağ olun.

# Azərbaycan-İtaliya əlaqələri yeni mərhələyə yüksəlir

## Ölkələrimiz enerji sahəsində uğurlu əməkdaşlıq edir





Fevralın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının Sədri Cüzeppe Konte ilə təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Prezident İlham Əliyevin qarşılanma mərasimi oldu.

Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliya Nazirlər Şurasının Sədri Cüzeppe Konte Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycanın və İtaliyanın dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Nazirlər Şurasının Sədri Cüzeppe Konte fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

İtaliyanın dövlət və hökumət nümayəndələri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri İtaliya Nazirlər Şurasının Sədrinə təqdim olundu.

Sonra dövlətimizin başçısı İlham Əliyev və İtaliya Nazirlər Şurasının Sədri Cüzeppe Konte birgə foto çəkdirdilər.

Görüşdə Azərbaycan ilə İtaliya arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu qeyd edildi, ölkələrimiz arasında möhkəm dostluq münasibətlərinin mövcud olduğu vurğulandı. "Çoxölçülü strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"nin imzalanmasının əhəmiyyəti qeyd olundu, bu sənədin əlaqələrimizi daha yüksək səviyyəyə qaldıracağı vurğulandı. Azərbaycanın radikalizmə, terrorizmə və ekstremizmə qarşı mübarizədə aparıcı rolu, ölkəmizin dünyəvi ənənələri yüksək qiymətləndirildi.

Söhbət zamanı ölkələrimizin enerji sahəsində uğurla əməkdaşlıq etdiyi və "Cənub qaz dəhlizi"nin son seqmenti olan TAP layihəsinin bu il son mərhələsinə qədəm qoyduğu bildirildi. Həmçinin İtaliya şirkətlərinin Azərbaycanda qeyri-neft sektorunun inkişafında və iqtisadiyyatın şaxələndirilməsində çox fəal surətdə iştirak etdikləri vurğulandı. Bu səfər zamanı imzalanacaq çoxsaylı sənədlərin ölkələrimiz arasında əməkdaşlığın daha geniş şəkildə inkişafı üçün zəmin yaradacağı qeyd edildi. Eyni zamanda, fevralın 21-də keçiriləcək biznes forumun daha böyük imkanlar yaradacağı diqqətə çatdırıldı.

Söhbət zamanı İtaliyanın Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrinin inkişafını dəstəklədiyi bildirildi. Həmçinin Əfqanıstanda sülhməramlı əməliyyatlarda ölkələrimizin birlikdə iştirakı qeyd edildi.

Görüşdə Azərbaycan ilə İtaliya arasında elm-təhsil, tələbə mübadiləsi, turizm sahələrində əməkdaşlıq məsələləri də müzakirə olundu.

Azərbaycan ilə İtaliya arasında mədəniyyət sahəsində əlaqələrin inkişafında Heydər Əliyev Fondunun rolu xüsusi vurğulandı. 2020-ci ilin İtaliyada mədəniyyət baxımından "Azərbaycan ili" elan edildiyi bildirildi.

Dövlətimizin başçısı İtaliya Nazirlər Şurasının Sədrini Azərbaycana rəsmi səfərə dəvət etdi. Nazirlər Şurasının Sədri bu səfəri məmnuniyyətlə qəbul etdiyini bildirdi.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirildi.

## Azərbaycan-İtaliya sənədləri imzalandı





Fevralın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İtaliya Respublikası Nazirlər Şurasının Sədri Cüzeppe Kontenin geniş tərkibdə görüşü başa çatandan sonra Azərbaycan-İtaliya sənədlərinin mübadiləsi mərasimi oldu.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikası Nazirlər Şurasının Sədri Cüzeppe Konte "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"ni imzaladılar və mübadilə etdilər.

"Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə İtaliya Respublikasının İqtisadi İnkişaf Nazirliyi arasında enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın Energetika naziri Pərviz Şahbazov və İtaliyanın İqtisadi İnkişaf naziri Stefano Patuanelli mübadilə etdilər.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə İtaliya Respublikasının Mədəni İrs, Fəaliyyətlər və Turizm Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayev və İtaliyanın Mədəni İrs, Fəaliyyətlər və Turizm naziri Dario Françeskini mübadilə etdilər.

"Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə İtaliya Respublikasının Mədəni İrs, Fəaliyyətlər və Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev və İtaliyanın Mədəni İrs, Fəaliyyətlər və Turizm naziri Dario Françeskini mübadilə etdilər.

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında Anlaşma Memorandumu"nu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq nazirinin birinci müavini Emanuela Del Re mübadilə etdilər.

"Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə İtaliya Respublikasının Kənd Təsərrüfatı, Qida və Meşə Təsərrüfatı Nazirliyi arasında bitki karantini və bitki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın Energetika naziri Pərviz Şahbazov və İtaliyanın Kənd Təsərrüfatı, Qida və Meşə Təsərrüfatı nazirinin müavini Giuseppe L'Abbate mübadilə etdilər.

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə "Leonardo S.p.A" arasında "M-346" təyyarələri inteqrasiya sisteminin alınması ilə bağlı Sazişə dair Bəyannamə"ni Azərbaycanın Müdafiə naziri Zakir Həsənov və "Leonardo S.p.A"nın icraçı direktoru Alessandro Profumo mübadilə etdilər.

"Azərbaycan Milli Olimpiya Komitəsi ilə İtaliya Milli Olimpiya Komitəsi arasında Anlaşma Memorandumu"nu Azərbaycanın Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və İtaliya Milli Olimpiya Komitəsinin prezidenti Giovanni Malaqo mübadilə etdilər.

"Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti ilə İtaliya Aerokosmik Agentliyi arasında sülh məqsədilə kosmos fəaliyyətləri sahəsində Anlaşma Memorandumu"nu "Azərkosmos" ASC-nin sədri Rəşad Nəbiyev və İtaliya Aerokosmik Agentliyinin prezidenti Giorgio Sakkoçça mübadilə etdilər.

"Azərbaycan İnvestisiya Şirkəti" ASC ilə CDP, SACE, "Simest" şirkətləri arasında Anlaşma Memorandumu"nu "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin baş icraçı direktoru Allahverdi Paşayev və CDP şirkətinin baş icraçı direktoru Fabrizio Palermo, SACE şirkətinin baş icraçı direktoru Pierfrançesko Latini, "Simest" şirkətinin baş icraçı direktoru Mauro Alfonso mübadilə etdilər.

"Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə İtaliya Ticarət Agentliyi (ICE) arasında Anlaşma Memorandumu"nu AZPROMO-nun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev və ICE-nin prezidenti Maria Ferro mübadilə etdilər.

"SOCAR ilə SNAM arasında əməkdaşlıq sazişi"ni SOCAR-ın vitse-prezidenti Elşad Nəsirov və "SNAM S.p.A"nın baş icraçı direktoru Marko Alvera mübadilə etdilər.

"AZPROMO ilə "Simest" arasında Tərəfdaşlıq Sazişi"ni AZPROMO-nun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev və "SIMEST S.p.A"nın prezidenti Pasquale Salzano mübadilə etdilər.

"Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə "Ansaldo Energia" arasında Anlaşma Memorandumu"nu Azərbaycanın Energetika naziri Pərviz Şahbazov və "Ansaldo Energia"nın baş icraçı direktoru Cüzeppe Zampini mübadilə etdilər.

"Azərenerji" ASC ilə "Ansaldo Energia" arasında Anlaşma Memorandumu"nu Azərbaycanın Energetika naziri Pərviz Şahbazov və "Ansaldo Energia"nın baş icraçı direktoru Cüzeppe Zampini mübadilə etdilər.

"Azərbaycan Dəmir Yolları" QSC ilə "I.M.A. Project Financing S.R.L." şirkəti arasında dəmir yolu maşınlarının (drezinlərin) və iş avadanlıqlarının satınalınması barədə müqavilə"ni "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov və "I.M.A. Project Financing" şirkətinin baş icraçı direktoru Rikkardo Paoncelli mübadilə etdilər.

"ADA Universiteti ilə Luiss Universiteti arasında Anlaşma Memorandumu"nu ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev və Luiss Universitetinin vitse-prezidenti Paola Severino mübadilə etdilər.

## İtaliya Azərbaycanın Avropa ölkələri arasında siyasi, iqtisadi və ticarət baxımından əsas tərəfdaşıdır







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də İtaliya Respublikası Senatının Sədri, senator xanım Maria Elisabetta Alberti Kaselatti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Senatın Sədri Maria Elisabetta Alberti Kaselatti dövlətimizin başçısı İlham Əliyevi qarşıladı.

Azərbaycan Prezidenti və İtaliya Senatının Sədri birgə foto çəkdirdilər.

İtaliya Senatının Sədri Maria Elisabetta Alberti Kaselatti özünün Azərbaycana, Birinci vitse-prezident Mehriban Əliyevanın isə Romaya səfərlərini xatırlatdı. O, ölkələrimiz arasında dostluğun hərtərəfli surətdə genişləndiyini qeyd etdi. İtaliya Prezidentinin ölkəmizə rəsmi səfərini vurğulayan Senatın Sədri tarixi əlaqələrə əsaslanan Azərbaycan-İtaliya əməkdaşlığının bütün sahələrdə inkişaf etdiyini bildirdi.

Prezident İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarellanın Bakıya rəsmi səfərinin əhəmiyyətini qeyd etdi. Prezident dedi ki, bu səfər əlaqələrimizin yüksək səviyyədə olduğunu bir daha göstərdi. Dövlətimizin başçısı İtaliyaya dövlət səfəri çərçivəsində imzalanan sənədlərin böyük əhəmiyyət daşıdığını qeyd etdi. Prezident İlham Əliyev "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"nin əlaqələrimizi yeni yüksək səviyyəyə qaldıracağını bildirdi. Xüsusi qeyd olundu ki, İtaliya Azərbaycanın Avropa ölkələri arasında siyasi, iqtisadi və ticarət baxımından əsas tərəfdaşıdır.

Görüşdə parlamentlərarası əlaqələrin böyük əhəmiyyət kəsb etdiyi diqqətə çatdırıldı, Azərbaycan ilə İtaliyanın ATƏT Parlament Assambleyası, AŞ PA və digər qurumlarda da əməkdaşlıq etdiyi vurğulandı. TAP layihəsinin uğurla reallaşdırılmasının, həmçinin İtaliya şirkətlərinin Azərbaycanda enerji və digər sahələrdəki layihələrdə iştirakının əhəmiyyəti qeyd edildi.

Sonda qarşılıqlı hədiyyələr təqdim olundu.

## Prezident İlham Əliyev İtaliyanın ən iri şirkətlərinin rəhbərləri ilə birgə işçi nahar edib

Fevralın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Romada İtaliyanın ən böyük maliyyə-bank qurumu olan "Cassa Depositi Prestiti SpA"nın və bu ölkənin dünya səviyyəsində məşhur olan 10-dan çox ən iri, aparıcı sənaye və maliyyə qruplarının rəhbərləri ilə birgə işçi nahar edib.



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısını salamlayan "Cassa Depositi Prestiti SpA"nın prezidenti **Covanni Qorno TEMPİNİ** dedi:

- Hər vaxtınız xeyir, Zatialiləri Prezident Əliyev.

Hörmətli nazirlər, hörmətli dövlət katibi Di Stefano, hörmətli səfirlər, hörmətli SOCAR-ın vitse-prezidenti, hörmətli qonaqlar, hər vaxtınız xeyir. Bu gün sizi burada salamlamaq məndə məmnunluq hissi doğurur.

Cənab Prezident, bizim dəvətimizi qəbul etdiyiniz üçün Sizə ən dərin minnətdarlığımı bildirirəm. İcazə verin, bu görüşün məqsədilə Sizi tanış etmək üçün bir neçə söz deyim.

İtaliya İqtisadiyyatının Milli Təşviqi Təşkilatı, 170 yaşı olan bir təşkilat kimi və missiyası İtaliyanın iqtisadiyyatını inkişaf etdirməkdən ibarət olan "Cassa Depositi Prestiti SpA"nın prezidenti kimi və bu işçi naharı təşkil etmək şərəfi nəsib olmuş bir şəxs olaraq biz ikitərəfli iqtisadi əlaqələrimizin gücləndirilməsinə töhfə vermək məqsədilə burada İtaliyanın bəzi ən yaxşı sənaye liderləri olan şirkətlərinin irəli sürdüyü təşəbbüsləri Sizin diqqətinizə çatdırmaq üçün əyləşmişik. İtaliya Azərbaycanın birinci qlobal ticarət tərəfdaşıdır. Sizin ölkəniz bizim aparıcı üç enerji təchizatçımızdan biridir. Trans-Adriatik boru kəməri layihəsi ilə bizim tərəfdaşlığımız daha da yüksək səviyyəyə çatacaq. Ticarət dövriyyəmiz keçən il, demək olar ki, 6 milyard avroya çatdırılmışdır, lakin burada çox böyük qeyri-tarazlıq var idi. Bizim Azərbaycana ixracımız ümumilikdə yarım milyarddan az olmuşdur. Bizim vəzifəmiz də bu qeyri-tarazlığın aradan qaldırılmasına çalışmaqdır və belə demək olar ki, bumeranq investisiyalarını həyata keçirməkdir.

Azərbaycan inkişaf etməkdə olan iqtisadiyyatını şaxələndirməkdə qətiyyətlidir və əsas diqqəti kənd təsərrüfatı, ətraf mühitə ziyan vurmayan nəqliyyat və enerji sektorunun müasirləşdirilməsinə yetirir. İtaliya ölkənizdə biznesini genişləndirməyə hazır olan öz milli lider şirkətləri, kiçik və orta həcmli müəssisələrinin geniş şəbəkəsi vasitəsilə bu məqsədlərə töhfə verə bilər. "Cassa Depositi Prestiti"nin (CDP) biznes planının mərkəzində italyan şirkətlərinin beynəlxalq inkişafına dəstəyin göstərilməsi dayanır. Buna görə də CDP Azərbaycan ilə biznes qurmaq istəyən bütün italyan iş adamlarının arxasında durur. Bundan əlavə, burada təmsil olunan şirkətlərin demək olar ki, yarısına CDP tərəfindən sərmayə yatırılıb və onun 500-dən çox İtaliya şirkətində payı var. Sonuncu, lakin əhəmiyyətinə görə sonuncu olmayan məsələ isə CDP İtaliyanın suveren investisiya fondu kimi potensial olaraq Azərbaycana marağı olan şirkətlər üçün çoxlu müştərək investisiya imkanlarını təklif edir. Bir daha Sizə təşəkkür edirəm. Buyurun cənab Prezident, söz Sizindir.

**Prezident İlham ƏLİYEV:** Çox təşəkkür edirəm. CDP-nin sədrliyi ilə işçi naharda bir araya gəlmək təşəbbüsünə görə CDP-yə minnətdarlığımı bildirmək istərdim. Sabah 100-dən çox şirkətin iştirakı ilə İtaliya-Azərbaycan biznes forumu keçiriləcək. Lakin bu gün mən İtaliyanın ən böyük şirkətləri - İtaliya iqtisadiyyatının aparıcı şirkətləri ilə görüşürəm. Onlardan bəziləri ilə bizim uzun illərdir çox sıx əməkdaşlığımız var. Onlardan bəziləri bizimlə işləməyi planlaşdırır və bu, tamamilə bizim məqsədlərimizə uyğundur.

Mənim İtaliyaya dövlət səfərimin çox böyük əhəmiyyəti var. Prezident, Baş Nazir və Senatın rəhbəri ilə görüşdən sonra deyə bilərəm ki, artıq səfərim uğurlu hesab oluna bilər. Bu, iki il əvvəl Prezident Mattarellanın səfərindən sonra güclənmiş fəal dialoqun davamıdır. O vaxt əldə etdiyimiz razılaşmalar və müzakirə etdiyimiz məsələlər hazırda həyata keçirilmə mərhələsindədir. Mənim səfərim zamanı 20-dən çox sənədin bəziləri artıq imzalanıb və sabah da imzalanacaq. Onlar siyasi, iqtisadi, ticarət, nəqliyyat, mədəni və digər sahələr olmaqla, çoxşaxəli məsələləri əhatə edir.

*Ardı 4-cü səh.*

# Azərbaycan-İtaliya əlaqələri yeni mərhələyə yüksəlir

## Prezident İlham Əliyev İtaliyanın ən iri şirkətlərinin rəhbərləri ilə birgə işçi nahar edib





*Əvvəli 3-cü səh.*

Onların arasında mən xüsusilə Azərbaycan və İtaliya arasında strateji tərəfdaşlığın inkişafı və gücləndirilməsi üzrə Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu, həqiqətən də qarşıdakı uzun illər ərzində bizim sıx əməkdaşlığımızı müəyyən edən çox vacib siyasi sənəddir. Bizim üçün İtaliya, cənab sədrin dediyi kimi, təkcə bir nömrəli ticarət tərəfdaşı deyil, həmçinin Avropada ən yaxın tərəfdaşlarımızdan biridir. Bu vacib tarixi sənədi imzaladıqdan sonra düşünürəm ki, bizim münasibətlərimiz yeni mərhələyə qədəm qoymalıdır.

Layihələrin praktiki olaraq həyata keçirilməsi ilə bağlı deyə bilərəm ki, yalnız Azərbaycanın enerji sektoru və Azərbaycanın sərhədlərindən kənarda maliyyələşdirdiyi enerji layihələri ilə bağlı İtaliya şirkətləri dəyəri 10 milyard ABŞ dollarına yaxın olan müqavilələr imzalayıblar. Qeyri-enerji sektorunda bu rəqəm təqribən 700 milyon dollardır. Bəli, mən razıyam ki, bizim ticarət dövriyyəmizdə böyük qeyri-tarazlıq var. Lakin biz, həmçinin bilməliyik ki, bu, əsasən bizim İtaliyaya neft ixracımızla bağlıdır. Ona görə də biz ixracımızın şaxələndirilməsində maraqlıyıq. Əlbəttə ki, biz Azərbaycana İtaliya ixracını artırmaq üçün əlavə tədbirlər görməliyik. Bizim şaxələndirmə və sənayeləşmə siyasətimizi nəzərə alaraq mən sizə deyə bilərəm ki, ötən il bizim enerjiyə aid olmayan sənayemiz 14 faiz artmışdır və bu ilin yanvarında artıq əlavə 16 faiz həcmində də artmışdır. Bunun səbəbi sənaye sektorunda dövlət və özəl sektor tərəfindən maliyyələşən layihələrlə bağlıdır. Çünki İtaliya istehsalçıları yüksəksəviyyəli fəaliyyəti olan çox peşəkar şirkətlərdir. Ona görə də Azərbaycanın texnoloji cəhətdən yenilənməsi bizim prioritetimizdir. Əminəm ki, mənim səfərimdən sonra ortaq maraqları təmsil edən daha çox layihələr görəcəyik. Səfər ərzində burada iştirak edən şirkətlərdən biri ilə çox vacib Anlaşma Memorandumu imzalandı. Bu, "Leonardo" tərəfindən həyata keçiriləcək çox böyük müqavilə olacaq. Bu gün mənim və Baş Nazirin iştirakı ilə bizim Müdafiə nazirliklərimiz arasında sənəd imzalandı. Bu, bizim əməkdaşlığımızda yeni səhifənin açılışı olacaq və bu, çox ümidverici layihədir. Çünki biz müdafiə infrastrukturumuzun müasirləşdirilməsi mərhələsindəyik. Azərbaycanın iqtisadi göstəriciləri müsbətdir. Ölkənin iqtisadiyyatı sabitdir. Xarici borc çox aşağıdır - ümumi daxili məhsulun 17 faizini təşkil edir. Sərbəst konvertasiya olunan valyuta ehtiyatları xarici borcdan 6 dəfə böyükdür. Biz istədiyimiz qədər borc götürə bilərik. Bizim əsas məqsədimiz şaxələndirmədir. TAP tamamlanandan sonra, - ümid edək ki, bu, çox tezliklə olacaq, - düşünürəm ki, biz enerji sektorunda bütün planlaşdırdıqlarımızı tamamlayacağıq. Çünki qeyd etdiyiniz kimi, bu gün biz İtaliyaya əsas neft ixracatçılarından biriyik. Düşünürəm ki, biz birinciyik. Təbii qazın nəqli ilə biz aparıcı ölkələr arasında olacağıq. Ona görə də əsas diqqət qeyri-enerji sektoruna yetirilməlidir. Burada biz kənd təsərrüfatı, ağır sənaye, kiçik və orta müəssisələrin qarşılıqlı əlaqəsi məsələlərinə gəlirik. Əlbəttə, biz İtaliyadan böyük investisiyaları alqışlayırıq və İtaliya iqtisadiyyatına investisiya yatırmağa hazırıq. Bu gün Azərbaycanın İtaliya şirkətlərində və daşınmaz əmlaklarında investisiyaları təqribən 1,5 milyard dollar təşkil edir və bizim inkişaf etmək üçün potensialımız mövcuddur.

Kosmik sənaye sahəsində əməkdaşlığın inkişafı da iqtisadiyyatımızın ümidverici sektorlarından biridir, həmçinin turizm. Azərbaycana gələn İtaliya vətəndaşlarının sayı artmaqdadır. Bir çox digər sektorlar da var. Başqa sözlə, güclü siyasi münasibətlər işgüzar dairələr üçün çox möhkəm zəmin yaradır. Bu güclü siyasi münasibətlər mənim uğurlu səfərim zamanı yenidən gücləndirildi. Ona görə də əminəm ki, qarşıdan gələn illərdə İtaliya şirkətləri Azərbaycanda ən fəal olan şirkətlər olacaqlar. Onların bəziləri ilə, - bu şirkətlərin nümayəndələri buradadır, - bizim artıq uzunmüddətli əməkdaşlığımız mövcuddur. Bəziləri ilə biz əməkdaşlığa başlamağı planlaşdırırıq. Əminəm ki, bugünkü işçi nahar çox məhsuldar olacaq və biz çox yaxşı nəticələri görəcəyik. Bir daha dəvət üçün təşəkkür edirəm. Əminəm ki, bizim müzakirələr zamanı hər iki tərəf üçün faydalı gələcəyimizi planlaşdıracağıq.

İtaliya Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi **Manlio di STEFANO:** Zati-aliləri Prezident Əliyev, CDP-nin sədri cənab Covanni Qorno Tempini, hörmətli qonaqlar. Bu toplantıda İtaliya hökumətini təmsil etmək mənim üçün həqiqətən də böyük şərəfdir və məndə səmimi məmnunluq hissi doğurur. Əvvəla, mən bu işçi naharı və tədbiri təşkil etdiyinə görə CDP-yə minnətdarlığımı bildirmək istəyirəm. Hesab edirəm ki, bu tədbir Zati-aliləri Prezident İlham Əliyevin dövlət səfərinin mühüm bir hissəsidir.

CDP qrupu İtaliyanın maliyyə qoludur və şirkətlərə beynəlxalq səviyyəyə çıxmaları üçün maliyyə həlləri təklif edir. Mən İtaliyanın iş adamlarının bu gün azərbaycanlı həmkarları ilə birlikdə çalışdığını görməkdən fəxr duyuram. Mən şəxsən bu dövlət səfərinin təşkili üçün, xüsusilə Azərbaycanla ikitərəfli əlaqələrə yardımçı olmaq məqsədilə çox səy göstərmişəm. Keçən ay mən Energetika naziri cənab Pərviz Şahbazovla birlikdə ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmaq üçün böyük nəticələr vermiş iqtisadi əməkdaşlıq üzrə beşinci İtaliya-Azərbaycan Birgə Komissiyasına həmsədrlik etdim. Bizim, qarşılıqlı ticarət mübadiləmiz ölkələrimizin iqtisadiyyatının bir-birini tamamlamasını nümayiş etdirir. Bizim, demək olar ki, altı milyard avro məbləğində ticarət dövriyyəmiz olmuşdur. Mən prezident Tempininin artıq dedikləri bütün rəqəmləri və yaxşı əməkdaşlığı bir daha qeyd etməyəcəyəm. Lakin onu demək istəyirəm ki, Trans-Adriatik, Trans-Anadolu və Cənubi Qafqaz boru kəmərləri ilə artıq gerçəkləşən ən böyük imkanlar həqiqətən münasibətlərimizə təkan verəcək. Bu, "Şahdəniz" qaz yatağı ilə bağlantı sayəsində mümkün olacaq. Bu, bizə 2 milyard avro dəyərində, - bu rəqəm qeyd edilməmişdir, - əlavə ticarət dövriyyəsini gətirəcək. Bu rəqəm və layihələr hökumətlərimiz tərəfindən edilmiş spesifik, dəqiq siyasi seçimlərdir. Buna görə də düşünürəm ki, bizi bir-birimizə bağlayan dostluq münasibətlərində bu seçimlər qarşılıqlılıq prinsipi ilə bağlı gözləntiləri daha da yüksəldir.

Mən çox şadam ki, cənab Prezident, Siz bunu çox aydın qeyd etdiniz. Qarşılıqlılıq prinsipi dedikdə iki ölkə arasında, həmçinin qaz sənayesindən kənarda olan sahələrdə qarşılıqlı əməkdaşlığı daha da artırmaq üçün imkanları nəzərdə tuturam. Fakt etibarilə, italyan şirkətləri infrastrukturun inşası, maşınqayırma sənayesi sahələri ilə yanaşı, eyni zamanda, təyyarələr, helikopterlər, hava məkanı, kibertəhlükəsizlik və bir çox digər sahələrdə fəaliyyəti ilə seçilirlər. Onların bir çoxunu bu gün bu masanın ətrafında əyləşənlər arasında görürəm. Bizim İtaliyadakı bütün bu aparıcı lider şirkətləri ilə müntəzəm əlaqələrimiz var. Mən əminəm ki, siz son bir neçə ildə onların fəaliyyətindən faydalanmısınız və gələcəkdə də faydalanacaqsınız. Buna görə də burada olduqları üçün onlara təşəkkürümü bildirirəm.

Biz sizə nə nümayiş etdirmək istəyirik. Məlumdur ki, İtaliya şirkətləri bütün dünyada yüksək reytinqə malikdirlər. Lakin onları fərqləndirən cəhət odur ki, onlar həqiqətən komanda şəklində çalışa bilir və bizim şirkətlər xaricdə fəaliyyət göstərdikdə biz onlarla birlikdə italyan sistemini tətbiq edirik. Bugünkü tədbirə görə mən şəxsən azərbaycanlı dostlara minnətdarlığımı bildirirəm. Əminəm ki, imzalanmış anlaşma memorandumları və qarşımızdakı imkanlar sayəsində biz gələcəkdə daha da böyük əməkdaşlığa nail ola biləcəyik. Nümayiş etdirmək üçün daha da böyük potensial mövcuddur. Mən əminəm ki, bu səfər və sabah keçiriləcək biznes forum bu imkanlara təkan verəcək. Beləliklə, bir daha Sizə və CDP-yə təşəkkür edirəm.

* * *

İşçi naharda iştirak edən şirkət rəhbərləri Azərbaycanda həyata keçirdikləri fəaliyyətləri barədə məlumat verdilər, həmçinin ölkəmizlə əməkdaşlıq imkanlarının genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Romada naməlum əsgər abidəsini ziyarət edib





İtaliya Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 20-də Romadakı "Altare della Patria" memorial kompleksində naməlum əsgər abidəsini ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycanın və İtaliyanın Dövlət himnləri səsləndirildi. Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı İlham Əliyev naməlum əsgər abidəsinin önünə əklil qoydu.



## Azərbaycan İtaliyanın mühüm ticarət tərəfdaşlarından biridir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də İtaliya Respublikası Deputatlar Palatasının sədri Roberto Fiko ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev İtaliyaya dövlət səfərinə dəvət olunmasına görə təşəkkürünü ifadə etdi. Dövlətimizin başçısı bildirdi ki, səfər çərçivəsində bu gün imzalanan və sabah imzalanacaq sənədlərin sayı 25-dən çoxdur. İmzalanan sənədlər içərisində "Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə" xüsusi əhəmiyyətə malikdir. Bu bəyannamə təsdiq edir ki, Azərbaycan və İtaliya strateji tərəfdaşlardır. İtaliya iqtisadi sahədə Azərbaycanın bir nömrəli tərəfdaşıdır. Ölkələrimiz arasında ticarət dövriyyəsi çoxşaxəlidir və daim genişlənir. İtaliya şirkətləri Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində, xüsusilə də qeyri-neft sektorunda çox geniş təmsil olunurlar. Səfər çərçivəsində keçiriləcək biznes forumda aparılacaq müzakirələr və əldə olunacaq razılaşmalar ölkələrimiz arasında ticarət dövriyyəsinin daha da artmasına təkan verəcək. Cənubi Qafqaz ölkələri arasında İtaliyanın ticarət dövriyyəsinin 92 faizi məhz Azərbaycanın payına düşür. Hazırda Azərbaycan ilə İtaliya arasında ticarət dövriyyəsinin həcmi 6 milyard dollardan artıqdır. TAP layihəsinin başa çatmasından sonra bu rəqəmin daha da artması gözlənilir. TAP layihəsi vasitəsilə Azərbaycan təbii qazı İtaliya bazarına daxil olacaq.

Dövlətimizin başçısı bildirdi ki, parlamentlərarası əlaqələr əməkdaşlığımızda çox mühüm əhəmiyyət kəsb edir. Bu yaxınlarda Azərbaycanda parlament seçkiləri keçirildi. Azərbaycan və İtaliya parlamentləri beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq edirlər.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyini bir daha diqqətə çatdırdı. Dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar İtaliyanın mövqeyini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev strateji tərəfdaşlığın gücləndirilməsi ilə bağlı Birgə Bəyannamədə İtaliyanın ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına ifadə olunan dəstəyinin, münaqişənin BMT və ATƏT-in müvafiq sənədləri əsasında həllinə dair mövqeyinin təqdir olunduğunu qeyd etdi. Həmçinin İtaliyanın Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafına verdiyi dəstək yüksək dəyərləndirildi.

Deputatlar Palatasının sədri Roberto Fiko Azərbaycan ilə İtaliya arasında əlaqələrin dostluq xarakteri daşıdığını qeyd etdi. O, Azərbaycanın İtaliyanın mühüm ticarət tərəfdaşlarından biri olduğunu vurğuladı. Bu səfərin iki ölkə arasında münasibətlərin daha da inkişafına və dərinləşməsinə ciddi təkan verəcəyini bildirdi.

Dövlətimizin başçısı Roberto Fikonu Azərbaycana səfərə dəvət etdi. Deputatlar Palatasının sədri münasib vaxtda ölkəmizə səfər etmək arzusunda olduğunu dedi. O, əminliyini bildirdi ki, sabah keçiriləcək biznes forum, imzalanacaq sənədlər İtaliya ilə Azərbaycan arasında əməkdaşlığın inkişafına yeni təkan verəcək. Deputatlar Palatasının sədri qeyd etdi ki, İtaliya şirkətlərinin Azərbaycanda müxtəlif layihələrdə iştirakı onların texniki biliklərinin ölkəmizə ötürülməsi baxımından da mühüm əhəmiyyət kəsb edir.

## Azərbaycanın birinci xanımı Mehriban Əliyeva İtaliyanın Kuirinale Sarayı ilə tanış olub



Fevralın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliyaya dövlət səfəri çərçivəsində birinci xanım Mehriban Əliyeva Romadakı Kuirinale Sarayı ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Kuirinale Sarayının zallarını gəzdi, burada nümayiş olunan eksponatlarla tanış oldu. Mehriban Əliyevaya Kuirinale Sarayının tarixi, burada saxlanılan qiymətli əşyalar, o cümlədən rəsmlər, freskalar, mozaikalar barədə məlumat verildi. Bildirildi ki, Romanın Kuirinale yüksəkliyində yerləşən saray 1573-cü ildə Papa XIII Qriqorinin yay iqamətgahı kimi tikilib. Birinci Umbertonun hakimiyyəti dövründə sarayda müxtəlif şəxslərin, o cümlədən musiqiçilərin, artistlərin, səyyahların qəbulları təşkil olunurdu. XX əsrin birinci yarısında Kral III Viktor Emmanuel bu sarayı iqamətgah kimi seçib.

Beləliklə, əvvəllər Roma Papasının və İtaliya krallarının iqamətgahı olan saray indi prezidentlərin iqamətgahıdır. Sarayın memarları Domeniko Fontana və Karlo Madernadır.

Məlumat verildi ki, əvvəllər Papanın müxtəlif təyinatlar üzrə istifadə etdiyi sarayın prezident otağında indi dövlət başçısının rəsmi görüşləri keçirilir. Saraydakı şəkillər XVII əsrə aiddir. Bu saraydan indiyə qədər 30 Papa, 4 kral və 12 prezident istifadə edib.

## İ.M.Vəliyevin Neftçala Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

İsmayıl Məhərrəm oğlu Vəliyev Neftçala Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2020-ci il*

# Ali dəyərlərin qoruyucusu

*Əvvəli 1-ci səh.*

Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılması da Ümummilli Liderin adı ilə bağlıdır. O, tolerantlığın, birgəyaşayış mədəniyyətinin İslam dininin və Azərbaycan xalqının xarakterik xüsusiyyəti olduğunu belə ifadə etmişdir: "Azərbaycan əhalisinin çox hissəsinin etiqad etdiyi müsəlman dinində, onun kökündə də tolerantlıq var".

Xalqlararası və mədəniyyətlərarası dialoqu, tolerantlıq ənənələrini müasir qloballaşma dövründə daha da inkişaf etdirmək, ona dəstək vermək, bütün insanların gələcəyi naminə dinlərin dialoquna nail olmaq bu gün də dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu siyasəti inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin milli mədəniyyətin, dini-mənəvi dəyərlərin, adət-ənənələrin qorunması və inkişaf etdirilərək gənc nəsillərə çatdırılması ilə bağlı siyasəti çağdaş dövrün obyektiv reallıqları ilə şərtlənir. Ulu Öndərin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına və inkişafına çox mühüm diqqət və qayğı göstərir. Dövlət başçısı ölkəmizdə dini və milli tolerantlığın tarixən mövcud olduğunu və bu tolerantlığın indiyə kimi qorunub saxlanılmasında Azərbaycan xalqının və İslam dininin misilsiz rolunu hər zaman vurğulayaraq bildirmişdir ki, "Tarixən dünya dinlərinin yayıldığı və dinc yanaşı fəaliyyət göstərdiyi qədim Azərbaycan torpağında yüz illərlə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər sistemi formalaşmışdır. Diqqətəlayiq faktdır ki, ölkəmizdə həmişə yüksək tolerantlıq mühiti hökm sürmüş, heç vaxt milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma halları baş verməmişdir. Ayrı-ayrı etiqad və inanclara malik etnosların əsrlərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında Azərbaycan xalqının və İslam dininin misilsiz tarixi rolu danılmazdır".

Prezident İlham Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin prioritetlərindən birinə çevrilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin daha da möhkəmləndirilməsi Azərbaycanı nəinki regionda, bütövlükdə dünyada multikulturalizmin, dinlərarası və mədəniyyətlərarası dialoqun əsas mərkəzlərindən birinə çevirib.

Yarandığı gündən Ulu Öndərin mərhəmət, nəciblik və yüksək humanizmə əsaslanan ideyalarının ictimai şüurda möhkəmlənməsinə çalışan Heydər Əliyev Fondunun Azərbaycandakı tolerantlıq və multikultural dəyərlərin qorunaraq təbliğ edilməsi sahəsində fəaliyyəti də xüsusi vurğulanmalıdır. Məhz fondun maliyyə dəstəyi ilə Daşkəsəndəki Cümə məscidində, Xəzər rayonu, Binə qəsəbəsindəki Möhsün Səlim və İmam Rza məscidlərində, Mərdəkan qəsəbəsindəki Pirhəsən ziyarətgahı və Heydər məscidində, Buzovna qəsəbəsindəki Cümə məscidində, Gəncə şəhərindəki Şah Abbas və Həzrət Zeynəb məscidlərində yenidənqurma və əsaslı təmir-bərpa işləri görülmüşdür. Fondun dəstəyi ilə bərpa olunan İmam Hüseyn məscidinin istifadəyə verilməsi də milli-mənəvi dəyərlərin qorunması istiqamətində həyata keçirilən tədbirlərdəndir. Fondun həyata keçirdiyi, xalqlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasına xidmət göstərən layihələr təkcə ölkə daxilində deyil, onun hüdudlarından kənarda da böyük əks-səda doğurur.

Yaxşı məlumdur ki, Heydər Əliyev Fondunun başlıca məramlarından biri Ulu Öndərin mənəvi irsinin, ideyalarının öyrənilməsi və təbliğidir. Bu məqsəd həm də Heydər Əliyev Fondunun mədəniyyət diplomatiyası sahəsindəki novatorluğu kimi qiymətləndirilə bilər: fond xalqın mədəni və mənəvi dəyərlərini özündə təcəssüm etdirən bir şəxsiyyəti təbliğ etməklə, əslində bütünlükdə Azərbaycan xalqının dəyərlərini təbliğ edir. Heydər Əliyev elə bir lider olub ki, Azərbaycan xalqının bütün mədəni dəyərlərini öz şəxsiyyətində və fəaliyyətində əks etdirib. Heydər Əliyev şəxsiyyətini təbliğ etmək, eyni dərəcədə, Azərbaycan mədəniyyətini təbliğ etmək, onu dünyada tanıtdırmaq və beləliklə, xalqın öz liderinə olan rəğbət və ehtiramından ölkənin dünya birliyinə inteqrasiyasında və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında bəhrələnmək deməkdir.

Mübaliğəsiz demək olar ki, Heydər Əliyev Fondu Azərbaycanda mədəniyyət diplomatiyasını mütəşəkkil, sistemli, təşkilatlanmış, müasir dövrün çağırışlarına uyğun, ən əsası qlobal miqyasda həyata keçirən ilk ictimai təşkilatdır. Qısa müddət ərzində mədəniyyət diplomatiyasına və mədəniyyətlərarası dialoqa töhfələr verən fond Qafqazda və keçmiş sovet məkanında analoqu olmayan multikultural layihələri ilə dünyada tanınmışdır. Heydər Əliyev Fondu mədəniyyət diplomatiyasını Azərbaycan mədəniyyətinin geniş təbliği, ölkəmizin beynəlxalq nüfuzunun artırılmasına yardım göstərilməsi, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, xarici ölkələrin təhsil müəssisələri, QHT-ləri, digər fond və təşkilatları ilə əməkdaşlığın inkişafı, beynəlxalq konfranslar və seminarların təşkili, elmi və təhsil mübadilələrinin reallaşdırılması və digər bu kimi səmərəli yollarla həyata keçirir.

Son illərdə Bakıda keçirilmiş Bakı Beynəlxalq Humanitar forumları müxtəlif ölkələrin dövlət siyasətində multikulturalizmin mövqe və imkanlarının bir daha təhlilinə, etnik və mədəni özünüdərk arasında azad seçimin təmin olunmasına, azadlıq, bərabərlik və dözümlülük kimi təməl dəyərlərin cəmiyyətdə bərqərar olmasına yönələn qlobalmiqyaslı tədbirlər olaraq, dünyanın ən yeni tarixinə əhəmiyyətli hadisə kimi daxil olmuşdur. Bütün bu nailiyyətlərin əldə olunmasında, bəşəriyyət üçün müstəsna əhəmiyyət kəsb edən bu cür təşəbbüslərin irəli sürülməsi və uğurla reallaşmasında, şübhəsiz ki, Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri var.

Azərbaycan mədəniyyətinin, incəsənətinin, musiqisinin, ümumiyyətlə, milli-mənəvi dəyərlərimizin dünya miqyasında təbliğ edilməsi Mehriban xanım Əliyevanın dövlətimiz və xalqımız qarşısında gördüyü misilsiz xidmətlərin tərkib hissəsidir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, Azərbaycan mədəniyyətinin dünyada təbliğində, eləcə də mədəniyyətlərarası dialoqun genişləndirilməsində Heydər Əliyev Fondunun BMT-nin ən mötəbər qurumlarından olan UNESKO ilə əlaqələri xüsusi yer tutur. Mehriban xanım Əliyevanın UNESKO ilə əməkdaşlıq çərçivəsindəki fəaliyyəti müxtəlif ölkələrlə mədəni əlaqələrin gücləndirilməsi, sivilizasiyalararası dialoqun genişləndirilməsi yönündə mühüm nailiyyətdir.

Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu irimiqyaslı, möhtəşəm layihələri ilə Azərbaycanın dünya miqyasında multikultural, tolerant ölkəyə çevrilməsinə də güclü dəstək olub. Prezident İlham Əliyev də fondun fəaliyyətini yüksək qiymətləndirərək qeyd edib: "Mehriban Əliyevanın rəhbərliyi ilə fond nəinki Azərbaycanda, eyni zamanda regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmişdir". Doğrudan da faktlar göstərir ki, milli mədəniyyətin inkişafına, başqa xalqların mədəniyyətinin qorunmasına və mədəniyyətlərarası əlaqələrin inkişafına böyük töhfələr verən Mehriban xanım həm də yüksək səviyyədə sivilizasiyalar və dinlərarası dialoqun reallaşması üçün böyük əmək sərf edir. O, sülh və tolerantlığın yayılması, bütün dünyada humanist dəyərlərin bərqərar olması üçün müntəzəm tədbirlər həyata keçirir.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin də beynəlxalq aləmə çatdırılması üçün bütün mövcud imkanlardan istifadə edir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, təcavüzkarın ifşası baxımından Heydər Əliyev Fondunun müxtəlif dillərdə nəşr etdirdiyi kitablar, ingilis, fransız, ərəb, alman və rus dillərində "Qarabağ həqiqətləri" adlı bukletlər fondun bu sahədəki fəaliyyətinin sübutudur.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva sosial, humanitar, mədəni sahələrdəki işləri ilə yanaşı, ictimai-siyasi fəaliyyəti ilə də nümunə təşkil edir. Eyni zamanda Mehriban Əliyeva sosial tədbirlərin həyata keçirilməsində müstəsna rol oynayır, sosial qayğıya ehtiyacı olan insanlarla görüşməyə, onların ehtiyaclarının və problemlərinin həllinə çalışır. Azərbaycan Prezidenti İlham Əliyevin daxili siyasətində sosial siyasət, əhalinin, xüsusən də müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə olunmaları həmişə prioritet təşkil etməsidir ki, Birinci vitse-prezident Mehriban Əliyeva bu işdə dövlət başçısına dəstək olaraq Heydər Əliyev Fondunun prezidenti kimi bu məsələlərin həllini daim fəaliyyətinin əsas istiqaməti kimi təsbit edir.

Ümumiyyətlə, son illər sivilizasiyalararası dialoq mövzusu ilə bağlı beynəlxalq məkanda aparılan fəal diskussiyalar, müxtəlif ölkələrdə keçirilən beynəlxalq konfranslar, simpoziumlar XXI əsrdə sivilizasiyalararası dialoq ideyasının nə qədər mühüm aktuallıq kəsb etməsindən xəbər verir. Bu məsələ BMT, UNESKO, digər beynəlxalq təşkilatlar və bir çox dövlət başçıları tərəfindən də dəfələrlə gündəmə gətirilmiş, qlobal problemlərin bütün dünya xalqlarının birgə səyləri ilə həll edilməsi zərurəti vurğulanmış, sülh və əmin-amanlıq, mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsi üçün dialoqun qaçılmaz olduğu göstərilmişdir. Lakin ən önəmli məsələ "sivilizasiyalararası" dedikdə, hansı sivilizasiyaların nəzərdə tutulması məsələsidir. Bir çox hallarda söhbət Şərq və Qərb, digər hallarda İslam və Xristian sivilizasiyalarından gedir. Bu gün qarşıda dayanan ən mühüm məsələ isə bu iki sivilizasiya arasında dialoq mühiti yaratmaqdan, onlara aid ən mütərəqqi dəyərlərin qarşılıqlı mübadiləsini təmin etməkdən ibarətdir.

Son vaxtlaradək Azərbaycanın coğrafi mövqeyi, qədim İpək yolunun bərpasında oynaya biləcək strateji rol, beynəlxalq neft-qaz kəmərlərinin və dəmir yollarının Azərbaycandan keçməsi və s. bu kimi amillərə istinadla belə bir fikir səslənirdi ki, ölkəmiz Şərq ilə Qərb arasında körpüdür. Lakin Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, indi Azərbaycanın iqtisadiyyatı və elmi-mədəni potensialı elə bir səviyyəyə çatmışdır ki, biz, sadəcə olaraq, iki sivilizasiya arasında körpü rolunu oynamırıq; biz bu sivilizasiyaların hər ikisinin daşıyıcısı olmaqla onların vəhdətini təcəssüm etdiririk. Son illərdə qazanılmış böyük iqtisadi nailiyyətlər Azərbaycana özünün beynəlxalq mövqeyini möhkəmləndirmək, Şərq ilə Qərb arasında tutduğu əlverişli coğrafi vəziyyətdən daha optimal surətdə istifadə etmək imkanı vermişdir. Azərbaycan Prezidentinin və ölkənin birinci xanımının məqsədyönlü fəaliyyəti əsasında respublikamız sivilizasiyalararası dialoq təşəbbüslərinin mərkəzinə çevrilmişdir.

Ölkədə tolerantlıq düşüncəsinin inkişafında da fondun xidmətlərini xüsusi vurğulamaq lazımdır. Fondun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri, Azərbaycanın Birinci vitse - prezidenti Mehriban xanım Əliyevanın vətənpərvər fəaliyyəti nəticəsində Azərbaycanın mənəvi inciləri bir-birinin ardınca Ümumdünya qeyri-maddi mədəni irs siyahısına salınmış, ölkəmiz, sözün əsl mənasında, fərqli sivilizasiyaların və mədəniyyətlərin dialoqu və ortaq məxrəc axtardığı məkana çevrilmişdir. Azərbaycanda humanizm və tolerantlığın simvoluna çevrilmiş Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva azərbaycançılıq məfkurəsinin təbliğinə, habelə ölkədə sosial rifahın yüksəldilməsinə, elm, təhsil, mədəniyyət, idman sahələrinin inkişafına da əhəmiyyətli töhfə verir, məhz onun təşəbbüsü ilə keçirilən çoxsaylı layihələr milli dəyərlərin qorunmasına və bu dəyərlərin ictimai şüurda möhkəmlənməsinə xidmət edir.

Mehriban Əliyeva öz fəaliyyəti ilə həm də mədəniyyətlər və sivilizasiyalararası dialoqa necə nail olmağın yolunu göstərir. Məlumdur ki, maddi mədəniyyətin, elmin, texnologiyanın, iqtisadiyyatın, fiziki sağlamlığın, idmanın prioritetliyinə əsaslanan Qərb sivilizasiyası və mənəvi mədəniyyətin, əxlaqın, dini dəyərlərin prioritetliyinə əsaslanan Şərq sivilizasiyası ancaq bir-birini qarşılıqlı surətdə tamamladıqda onun kamil insanın formalaşmasındakı rolu haqqında söhbət açmaq olar.

*Siyasi və iqtisadi kursun prioritetliyini önə çəkən, ölkənin davamlı inkişafını təmin etmək üçün möhkəm iqtisadi baza yaradan Prezident İlham Əliyevin quruculuq fəaliyyəti ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mədəni-mənəvi dəyərlərimizin qorunub saxlanılması, inkişaf etdirilməsi və dünya ictimaiyyətinə çatdırılması sahəsində gördüyü böyük işlərlə tamamlanır ki, bütün bunlar da Azərbaycanın hərtərəfli və ahəngdar tərəqqisinə xidmət edir.*

**Mübariz QURBANLI,**
***Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP İcra katibinin müavini***



# Şərəfli missiya

*Əvvəli 1-ci səh.*

Mehriban Əliyevanın ictimai-siyasi xadim kimi fəaliyyəti həmişə çoxşaxəli olub. Bu fəaliyyət Ulu Öndər Heydər Əliyevin xalqımızın işıqlı gələcəyinə yönəlmiş idealların reallaşmasına, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi, sosial-iqtisadi, mədəni-humanitar kursun dəstəklənməsinə və uğur qazanmasına xidmət edib.

Mehriban Əliyevanın siyasi-ictimai və sosial-mədəni fəaliyyət dairəsi o qədər genişdir ki, bu barədə nə qədər danışsaq da bitməz. Hər şeydən öncə Azərbaycan və eləcə də dünya ictimaiyyəti Mehriban Əliyevanı böyük xeyriyyəçi, qayğıkeş vətəndaş, yüksək mədəniyyətə malik dövlət xadimi kimi tanıyır. Hələ 2004-cü ildə Heydər Əliyev Fondu yaranarkən insanlara qayğı və təmənnasız xidmət amalını prioritet elan edən Mehriban Əliyeva öz səylərini əhalinin aztəminatlı təbəqələrinə, xəstə və valideyn himayəsindən məhrum olmuş uşaqlara, qocalara kömək göstərilməsinə yönəldir. Son 16 ildə geniş vüsət alan məktəb və xəstəxana tikintisində, uşaq evlərinin və bağçalarının, internat məktəblərinin yenidən qurulmasında, tarixi və dini abidələrin bərpasında Mehriban Əliyevanın əzmkarlığını, təhsilimizin inkişafına, milli genefondumuzun qorunmasına, bütövlükdə, İlham Əliyevin sosial siyasətinin daha böyük uğur qazanmasına xidmət edən əsl vətəndaşlıq missiyasını görürük.

Heydər Əliyev ideyaları ilə silahlanmış, hər zaman peşəkarlığı, işgüzarlığı və prinsipiallığı ilə seçilən Mehriban Əliyevanı xarakterizə edən digər mühüm göstəricilərdən biri milli-mənəvi dəyərlərimizin qorunmasına və dünyada təbliğinə böyük önəm verməsidir. İstər Heydər Əliyev Fondunun prezidenti, istər Azərbaycan Mədəniyyətinin Dostları Fondunun rəhbəri kimi fəaliyyətinin təhlili göstərir ki, milli mədəniyyətimizin qorunması və dünyada təbliği Mehriban Əliyevanın xalqa xidmət missiyasının əsas istiqamətlərindəndir. Hansı ki, bunlar son nəticədə nəcib məqsədə - Azərbaycanın dünyada tanıdılmasına xidmət edir. Ötən illər ərzində neçə-neçə tarixi-mədəniyyət abidələrinin yenidən qurulması, muğam musiqi müsabiqələrinin və dünyaşöhrətli musiqiçilərin yubileylərinə həsr edilmiş beynəlxalq festivalların keçirilməsi, xarici ölkələrdə müxtəlif sərgilərin təşkili bu ali məramın intişarına yönəlib.

2005, 2010 və 2015-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilən Mehriban xanım Əliyevanın deputatlıq fəaliyyəti isə parlament tariximizin şərəfli səhifələrindən biridir. Onun deputat kimi əsas fəaliyyəti seçicilərin problemlərinin həllinə yönəlmişdi. Seçicilərə diqqət və qayğısı, təmsil etdiyi ərazilərin sosial problemlərinin həlli yönündə gördüyü misilsiz işlərlə əsl millət vəkilliyinin nümunəsini yaradan Mehriban xanım Milli Məclisin müzakirəsinə təqdim etdiyi layihələrlə milli qanunvericiliyimizin təkmilləşməsinə böyük töhfələr verib. Eyni zamanda Mehriban Əliyevanın parlamentdə dostluq qrupunun sədri kimi fəaliyyəti nəticəsində müxtəlif ölkələrdə qazandığımız dostların sayı artdı. Cəmiyyət üçün ciddi təhlükə törətməyən minlərlə insanın onun təşəbbüskarı olduğu amnistiya aktı layihələri əsasında məhbəsdən azadlığa çıxması Mehriban xanımın deputatlıq fəaliyyətinin xoş bir məqamı kimi hər zaman böyük rəğbətlə xatırlanacaq.

Mehriban Əliyevanın Milli Olimpiya Komitəsninin İcraiyyə Komitəsinin üzvü, Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi də səmərəli fəaliyyəti diqqəti cəlb edir. Olimpiya oyunlarında medal qazanmış idmançılara Heydər Əliyev Fondunun fərdi təqaüdçüsü adının verilməsi də idmanın inkişafına diqqət və qayğısının, bu istiqamətdə həyata keçirilən dövlət siyasətinə verilən töhfənin bariz nümunəsidir.

Bütün bunlarla yanaşı, Mehriban xanım Əliyeva dövlət başçısının ona həvalə etdiyi vəzifələri də uğurla yerinə yetirərək Azərbaycan dövlətinin beynəlxalq imicinin yüksəlməsinə ləyaqətlə xidmət edib. "Avrovizion" mahnı müsabiqəsində olduğu kimi I Avropa Oyunlarında və İslam Həmrəyliyi Oyunlarında Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat komitəsi yüksək təşkilatçılıq nümunəsini ortaya qoydu. Bu yarışlar bütün məziyyətləri ilə Azərbaycanı dünyaya tanıtdı, ölkəmizin təbliğində olduqca müstəsna rol oynadı.

Təlqin etdiyi xeyirxahlıq, mərhəmət, maarifçilik kimi ali dəyərlər, yer üzündə sülhə, mədəni dəyərlərin qorunmasına, sivilizasiyalararası dialoqa verdiyi töhfələr beynəlxalq aləmdə Mehriban xanım Əliyevaya böyük nüfuz qazandırıb. UNESCO və ISESCO-nun xoşməramlı səfiri kimi o, bütün dünyada Qərb və Şərq dünyasının bu iki yüksək statusunu eyni vaxtda daşıyan ilk və yeganə şəxsiyyətdir.

Mehriban Əliyevanın həyatda mükafatları çoxdur. Ən ali mükafatı isə respublikamızda mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Prezident İlham Əliyevin sərəncamı ilə verilən "Heydər Əliyev" ordenidir. Bu, Azərbaycan dövlətinin Mehriban xanım Əliyevanın fəaliyyətinə və xalqımız qarşısındakı xidmətlərinə verdiyi yüksək qiymətin göstəricisidir.

Vətənə məhz bu cür layiqli xidmət missiyasının nəticəsində üç il əvvəl Mehriban Əliyeva Birinci vitse-prezident vəzifəsinə təyin olundu. Ölkə vətəndaşlarının böyük sevinc və rəğbətlə qarşıladıqları bu təyinat respublikamızda aparılan islahatların məntiqi davamı olmaqla ölkədə yeni bir tarixi reallığın başlanğıcını qoydu. Bu reallığın xarakterini və Azərbaycanın gələcəyi üçün yaratdığı möhtəşəm perspektivləri isə təbii ki, ölkənin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmuş şəxsiyyətin mənəvi keyfiyyətləri, Azərbaycan xalqına və dövlətinə olan sevgisi, indiyə qədər daşıdığı bütün vəzifələrdə cəmiyyətimizə və ümumən bəşəriyyətə qazandırdığı nailiyyətlər təyin edir. Bu, təsadüfi bir təyinat olmayıb, uzun illərdən bəri ölkəmizin, eləcə də dünyanın ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayan Mehriban Əliyevaya ümumxalq rəğbətindən, cəmiyyətin sosial sifarişindən, eyni zamanda belə həlledici mərhələdə islahatlar prosesinə böyük dəstək ola biləcək bacarıqlı təşkilatçı, yüksək səriştəli rəhbər kimi Mehriban Əliyevanın peşəkar imkanlarından dövlət idarəçiliyində də istifadə zərurətindən irəli gələn bir qərar idi.

Qeyd etdiyim kimi, Mehriban Əliyevanın fəaliyyətində sosial məsələlər, həssas vətəndaş qruplarına, sosial qayğıya daha çox ehtiyacı olanlara, uşaqlara kömək göstərilməsi prioritet təşkil edib. Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin olunduğu ilk günlərdən məlum oldu ki, xeyirxahlıq və daha çox sosial qayğıya ehtiyacı olan vətəndaşlara yüksək diqqət onun fəaliyyətində əsas istiqamətlərdən birini təşkil edəcək. Bu mənada Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti kimi öz vəzifəsinin icrasına məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasından başlaması onun əsl vətəndaşlıq missiyasından, xüsusən sosial məsələlərə olan həssas münasibətindən xəbər verdi.

Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı müşavirənin keçirilməsi və qarşıya qoyulan vəzifələr onu göstərdi ki, əhalinin xüsusi qayğıya ehtiyacı olan qruplarının, o cümlədən məcburi köçkünlərin sosial məsələlərinin yoluna qoyulması Birinci vitse-prezidentin xüsusi diqqətində olacaq. Artıq bu 3 il ərzində minlərlə məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunub. Aprel döyüşlərində hərbi rəşadət göstərmiş döyüşçülərin nümayəndələri ilə görüşü isə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti olaraq Mehriban Əliyevanın respublikamızda həssas təbəqədən olan insanların, əlilliyi olan şəxslərin sosial müdafiəsinə, reabilitasiya və cəmiyyətə inteqrasiya məsələlərinə xüsusi diqqətinin əyani göstəricisidir.

Mehriban Əliyeva Birinci vitse-prezident təyin olunduqdan sonra Milli Məclisdəki çıxışı xatirimizdədir. O deyirdi: "Mən əminəm ki, vəzifədən asılı olmayaraq insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır. ...Əminəm ki, hər bir qələbənin, hər bir böyük nailiyyətin arxasında eyni fikirli, eyni niyyətli, etibarlı, güclü, layiq komanda durur. Mən yeni vəzifəyə təyin olunduqdan sonra öhdəmə düşən məsuliyyəti çox yaxşı dərk edirəm və əlbəttə, həyəcan da keçirirəm. Lakin mən gələcəyə böyük nikbinliklə baxıram. Çünki mənim sizin kimi həmkarlarım, məni dəstəkləyən soydaşlarımız var və ölkəmizin İlham Əliyev kimi bacarıqlı, cəsarətli, zəkalı, eyni zamanda ən yüksək insani keyfiyyətlərə malik olan Prezidenti var. Biz birgə əyilməz bir gücük. Əminəm ki, Azərbaycanın gələcək inkişafı üçün əlimizdən gələni bundan sonra da tam gücümüzlə birlikdə, bir komanda kimi həyata keçirəcəyik".

*Ötən üç ilin reallıqları göstərir ki, Mehriban Əliyeva tarixin, zamanın, dövlətimizin onun üzərinə qoyduğu bu məsul vəzifəni də çox böyük ləyaqətlə, mühüm nailiyyətlərlə həyata keçirir. Onun fəaliyyəti Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətti uğurla tamamlayır. Azərbaycanın birinci xanımı fədakarlığı, mədəniyyətimizə, tariximizə, adət-ənənələrimizə bağlılığı ilə ümumxalq sevgisinə layiq olduğunu sübut edir. Bu şərəfli və məsuliyyətli işində Mehriban Əliyevaya uğurlar arzu edirik.*

**ELDAR QULİYEV,**
***iqtisad elmləri doktoru, professor***

# Vətəndaşa həssas və qayğıkeş münasibətin mükəmməl örnəyi



*Əvvəli 1-ci səh.*

Azərbaycan xalqının Ümummilli Lideri, böyük dövlət xadimi Heydər Əliyevin layiqli siyasi varisi cənab İlham Əliyev hələ 2003-cü ilin oktyabrında keçirilmiş prezident seçkilərinə "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" devizi ilə qatılmışdı. Bu deviz, əslində, həmin dövrə qədərki fəaliyyəti ilə də insanların nəzərində zirvələrə ucalmış cənab İlham Əliyevin xalq üçün çalışmaq, onun arzu və istəklərini əməli fəaliyyət müstəvisində, konkret platforma əsasında gerçəkləşdirmək, "Hər bir azərbaycanlının layiqli Prezidenti olmaq" istəyinin yığcam, lakin son dərəcə dərin, ümumiləşdirilmiş məzmununu özündə ehtiva edirdi.

Əsl siyasi lideri xarakterizə edən keyfiyyətlər sırasında onun irəli sürdüyü vədlərə sadiqliyi, xalqın inamını doğrultmaq üçün əzmlə, səylə çalışmaq bacarığı xüsusi yer alır. Hökumətin 2003-cü il 17 noyabr tarixdə keçirilmiş ilk iclasındakı çıxışında "Biz xalqın xidmətçisiyik. Hər bir məmurun vəzifəsi xalq üçün çalışmaq, ona göstərilmiş etimadı doğrultmaqdır", - deyən dövlət başçısı ötən 16 ildə məmurlara etimad meyarını məhz onların fəaliyyətinə nəzərən müəyyənləşdirmiş, eləcə də vətəndaşların görülmüş işlər, qarşıda duran məqsədlər, həyata keçiriləcək layihələr barədə məlumatlandırılmasını zəruri saymışdır. Əgər Ulu Öndər Heydər Əliyevin müasirləşmə siyasəti ötən əsrin 90-cı illərində xaos və dirçəlişdən inkişafa doğru mükəmməl strategiyanı təmin etmişdisə, onun layiqli davamçısı cənab İlham Əliyevin yürütdüyü modernləşmə kursu respublikamızın milli inkişaf modelinin formalaşmasını şərtləndirmişdir. Ötən 16 ildə dövlət başçısının iqtisadi siyasətinin əsasında "Güclü dövlət, sabitlik və sosial rifah" tezisi dayanmışdır.

Bu da təsadüfi deyildir - güclü iqtisadiyyat qurmadan güclü dövlətə nail olmaq, insanların yüksək sosial rifahını təmin etmək qeyri-mümkündür. Neft gəlirlərinin iqtisadiyyatın vacib sahələrinə, xüsusən də qeyri-neft sektoruna, istehsal sahibkarlığına yönəldilməsi, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin aradan qaldırılması, bir sözlə, əhalinin sosial müdafiə tədbirlərinin gücləndirilməsi Azərbaycanda həyata keçirilən siyasətin ana axarını təşkil edir.

Yeni dünya nizamının reallıqlarını obyektiv dəyərləndirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin son illərdə yürütdüyü məqsədyönlü siyasət bu mənada həm də dövlət idarəçiliyində sistem xarakterli keyfiyyət dəyişikliklərinin təmin edilməsinə yönəlmişdir. Ölkədə və regionda, ümumilikdə, qlobal planda cərəyan edən mürəkkəb siyasi, iqtisadi və humanitar proseslər müasir islahatçı baxışın və idarəetmə formalarının tətbiqini aktuallaşdırdığından, dövlət başçısı rəhbərlik etdiyi komandanın bu çağırışlara hazır olmasını vacib sayır. Cənab İlham Əliyevin təşəbbüsü və xalqımızın azad siyasi iradəsinin təntənəsi kimi tarixiləşmiş 2016-cı ilin 26 sentyabr referendumu ilə Azərbaycan Respublikasında vitse-prezident vəzifələrinin təsis edilməsi idarəetmə sisteminin müasirləşdirilməsi və çevik mexanizmlər əsasında qurulması, xalqla hakimiyyət arasındakı mənəvi tellərin real, əməli fəaliyyət müstəvisində möhkəmləndirilməsi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Bu gün respublikamızda dayanıqlı inkişafın başlıca şərti struktur islahatları aparmaqla çevik idarəetmə sistem formalaşdırmaq, sahibkarlığın inkişafına hər cür şərait yaratmaq, qeyri-neft sektorunu gücləndirməkdir. İxracyönümlü inkişaf modelinin formalaşdırılması yönümündə ardıcıl islahatlar həyata keçirən dövlət başçısı keyfiyyətcə yeni mərhələ kimi səciyyələndirilə biləcək son illərdə komandası qarşısında həm də yeniləşmə zəruriliyi ilə bağlı aydın hədəflər müəyyənləşdirmişdir. Bu da təsadüfi deyildir - dövlət məmurlarının etik-mənəvi davranışları, müasir baxışı, yeniliklərə hazırlığı, dünyadakı prosesləri adekvat qiymətləndirmək bacarığı, sosial sifariş amilini nəzərə alması təkcə dövlət idarəçiliyinin mahiyyətinə deyil, ümumilikdə cəmiyyətdəki mənəvi ab-havaya, ictimai münasibətlər sisteminin xarakterinə təsirini göstərir. Dövlət və xalq təəssübkeşliyi olmayan dövlət məmurunun şəxsi maraqlara köklənən fəaliyyəti bəzən idarəçilikdə sağlam harmoniyanı pozaraq sosial ədalət prinsipinin, humanist dəyərlərin və milli-mənəvi dəyərlərin aşınmasına, ictimai münasibətlərdə, eləcə də situasiyaların idarə olunmasında problemlərin yaranmasına gətirib çıxarır.

Dövlət başçısı cənab İlham Əliyev bununla bağlı haqlı olaraq demişdir: *"Məmur xalqın xidmətçisidir, vətəndaşa xidmət, kömək göstərməlidir, yekəxanalıq etməməlidir. Hansısa qanunsuz tələb irəli sürməməlidir. Özünü təvazökar aparmalıdır. Özü və ailə üzvləri nümunə olmalıdır. Rüşvətxorluqla, soyğunçuluqla məşğul olmamalıdır. Məmur, bax, belə olmalıdır, dediyim kimi. Mən hər bir dövlət məmurunu ya icra başçısı, ya başqa vəzifəyə təyin edəndə göstəriş verirəm ki, get insanlara qulluq et, xidmət göstər, dövlətə xidmət et, təmiz işlə. Amma əfsuslar olsun ki, bəziləri nəticə çıxarmırlar. Onların da cəzası verilir və veriləcək".*

Azərbaycan cəmiyyəti tarixin heç bir mərhələsində son illərdəki kimi sürətli dəyişikliklərə uğramamış, insan amili belə aktual, öncül məsələ kimi gündəmə çıxmamışdır. Bu məsuliyyətli mərhələdə dövlət məmurları qarşısında vətəndaşların mənafeyi naminə daha səy və bacarıqla işləmək, islahatların düzgün, vaxtında reallaşdırılmasını təmin etmək və xalqın xidmətçisi olmaq kimi ümdə vəzifələr müəyyənləşdirilmişdir. Son illər həyata keçirilən islahatlar paketinin də əsas məqsədini əhalinin sosial rifahının yaxşılaşdırılması, neftdən asılı olmayan dayanıqlı inkişaf strategiyasının formalaşdırılması ilə yanaşı, ümumilikdə idarəçilik fəlsəfəsinin müasirləşdirilməsi təşkil edir. Bu gün əminliklə deyə bilərik ki, Azərbaycanda dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi prosesi uğurlu nəticələrini verir.

İqtisadçı alim olaraq hesab edirəm ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin 21 fevral 2017-ci il tarixli Sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi də ölkədəki sistem xarakterli islahatların tələbindən irəli gələn və cəmiyyətin mənafeyini əks etdirən tarixi əhəmiyyətli qərar olmuşdur. Heç şübhəsiz, Birinci vitse-prezident vəzifəsinə çoxşaxəli fəaliyyəti ilə milyonların sevgisini qazanmış bir şəxsiyyətin təyin olunması Azərbaycanın dövlət idarəetmə sisteminə yeni keyfiyyət dəyişiklikləri gətirmişdir. 3 il əvvəl gerçəkləşən bu təyinat idarəetmə modelinin modernləşdirilməsi və islahatların sürətləndirilməsi baxımından əhəmiyyətli olmuş, Heydər Əliyev Fonduna yüksək səviyyədə rəhbərlik etmiş Mehriban xanım Əliyeva cəmiyyətdəki böyük nüfuzu ilə idarəçiliyə yeni nəfəs, müasirləşmə və gəncləşmə ruhu vermişdir.

Azərbaycanın Birinci vitse-prezidentinin fəaliyyəti postneft dövründə həyata keçirilən çoxşaxəli islahatların davamlılığını da yüksəltmişdir. Mehriban xanım Əliyevanın cəmiyyətin müxtəlif sahələrində nəzərəçarpacaq nailiyyətləri, təmiz imici olan, yüksək bilik və bacarıqlara, idarəetmə və menecer təfəkkürünə malik gənc kadrlar hesabına mükəmməl komanda formalaşdırması onun Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsində uğurlu fəaliyyətini şərtləndirən mühüm məqamlardır.

Müsahibələrinin birində Azərbaycanın Birinci vitse-prezidenti idarəetməyə yeni islahatçı baxışını özünəməxsus şəkildə ifadə edərək rəhbər şəxsdə vacib keyfiyyətləri xüsusi önə çəkmişdir: *"Mənim üçün insanlarla işləmək bacarığı, sənin baxışlarını prinsipcə bölüşən, sənin ardınca getməyə hazır olan həmfikirlər komandası yaratmaq bacarığı daha vacibdir. Çünki onlar anlayırlar ki, sənin işlərin xeyirxahlığa yönəlib. Çox vacibdir ki, bəyan və elan edilənlər həqiqətən baş verənlərlə üst-üstə düşsün. Çünki insanlar hər şeyi görür, hər şeyi anlayırlar".*

Cəmiyyətin aztəminatlı təbəqələri ilə apardığı fəal iş, onların problemlərinin həlli istiqamətində atdığı ardıcıl addımlar Mehriban xanım Əliyevanın idarəetmə fəaliyyətinin humanist və insanpərvər mahiyyətini bir daha üzə çıxarmışdır. Birinci vitse-prezident dövlətin sosial-humanitar, təhsil və mədəniyyət siyasətinin uğurla həyata keçirilməsi prosesində yaxından iştirak edərək yeniləşmə prosesinə sanballı töhfələr vermişdir. Ali dövlət vəzifəsi Mehriban xanım Əliyevanın ölkənin hər bir vətəndaşına daha layiqli xidmət göstərmək, xalqın maraq və mənafeyini beynəlxalq arenada lazımınca təmsil etmək imkanlarını daha da genişləndirmişdir. Onun müasir idarəetmə səriştəsi, yeniliklərə açıq olması, ölkə qarşısındakı strateji hədəfləri aydın təsəvvür etməsi ümumən hökumətin fəaliyyətinin səmərəliliyini yüksəltmişdir. Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə inkişafın əsasını müəyyən edən idarəetmənin modern əsaslarla aparılması, situasiyaların səmərəli idarə olunması qarşıya qoyulan vəzifələrin uğurlu icrasını təmin edir. Bu təyinatın özünü tamamilə doğrultması və cəmiyyətdə rəğbətlə qarşılanması həm də onunla şərtlənir ki, Mehriban xanım Əliyeva fəaliyyətində insan amilini daim önə çəkmiş, cəmiyyətin mövcud resurslarının bu yöndə səfərbər olunmasına çalışmışdır.

Bu bir reallıqdır ki, 2018-ci ilin 11 aprel seçkilərindən sonra sosialyönümlü islahatlarda keyfiyyətcə yeni mərhələnin başlanmasında, xüsusən də 2019-cu ilin əvvəlindən etibarən əhalinin aztəminatlı və imtiyazlı təbəqələrinin sosial müdafiəsinin gücdəndirilməsinə xidmət edən kompleks tədbirlərin həyata keçirilməsində dövlət başçısı cənab İlham Əliyevlə yanaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da xidmətləri böyükdür. Yürüdülən uğurlu iqtisadi siyasət - çevik və şəffaf vergi-gömrük islahatları nəticəsində son 2 ildə ölkəmizin maliyyə imkanlarının əhəmiyyətli dərəcədə artımı ilə paralel uğurlu sosial islahatlar paketinin reallaşdırılması da təmin edilmişdir.

Birinci vitse-prezident vəzifəsində ilk müşavirəni Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsi məsələsinə həsr etməsi bir daha təsdiqləmişdir ki, cəmiyyətin xüsusi qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli Azərbaycanın Birinci vitse-prezidentinin diqqət mərkəzindədir. Bu, əslində 2004-cü ildən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən sosial layihələrin uğurlu davamıdır. Heydər Əliyev Fondu da humanitar və sosialyönümlü fəaliyyətində hər zaman cəmiyyətin mənəvi, mədəni-intellektual yüksəlişini təmin etmək, habelə Azərbaycanın zəngin mədəni irsini - tarixi abidələrini, musiqisini, incəsənətini, ümumən isə ölkə həqiqətlərini dolğunluğu ilə dünya ictimaiyyətinə çatdırmaq məramını qarşıya qoymuşdur.

Azərbaycanın Birinci vitse-prezidenti bu və digər məqsədlərin həyata keçirilməsi, ölkənin hərtərəfli inkişafı, cəmiyyətin mənəvi-intellektual yüksəlişi baxımından təhsilin, səhiyyənin, sosial xidmət sektorunun problemlərinin həllini də vacib sayır. Aztəminatlı insanların, qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin problemlərinin həllində dövlət basçısı ilə yanaşı, Birinci vitse-prezidentin son 3 ildəki fəaliyyəti də müstəsnalıq təşkil edir. İlk günlərdən cəmiyyətin həssas təbəqələrinin problemlərinin həllinə diqqət ayırması - 2017-ci il martın 1-də Sabunçu və Xəzər rayonlarında fiziki imkanları məhdud uşaqlar üçün nəzərdə tutulmuş internat məktəblərində yaradılmış şəraitlə tanış olması bunu bir daha təsdiqləmişdir.

Ötən 16 ilə yaxın müddətdə Heydər Əliyev Fondunun fəaliyyətinin əsas istiqamətini məhz sosial islahatlar təşkil etmiş, bu sahədə uğurlu layihələr reallaşdırılmışdır. Fond çoxşaxəli fəaliyyəti ilə ötən dövrdə ölkəmizdə sosial siyasətin uğurla reallaşdırılmasına layiqli töhfələrini vermişdir. Məsələ bundadır ki, müasir dövrdə iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, hər bir dövlətdə sosial müdafiəyə, köməyə, xeyirxahlığa ehtiyacı olan köməksiz təqəbəyə rast gəlinir. Bazar iqtisadiyyatının sərt reallıqları ilə uzlaşmamasına rəğmən, əksər dövlətlər həssas sosial təbəqələrin ehtiyaclarına, problemlərinə biganə yanaşmır, onları imkan daxilində öz himayəsinə götürür. Azərbaycan dövlətinin bu istiqamətdəki fəaliyyəti isə xüsusilə diqqəti çəkir - respublikamızın dövlət büdcəsində sosialyönümlü xərclər, eləcə də insan inkişafına xidmət edən, iqtisadi səmərə məqsədi güdməyən investisiyalar xüsusi çəkiyə malikdir.

Prezident cənab İlham Əliyev ölkədə yoxsulluğun yaxın illərdə aradan qaldırılmasını, insanları qayğılandıran bütün sosial problemlərin həllini hökumət qarşısında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Minimum əməkhaqqı ilbəil artır, pensiyalar və müxtəlif sosial müavinətlər müntəzəm olaraq artırılır, sosial obyektlərin tikintisi genişlənir. Bununla belə, mövcud problemlərin həllini bilavasitə hökumətin üzərinə qoymaq, orta təbəqəni, qeyri-hökumət təşkilatlarını, vətəndaş cəmiyyəti institutlarını məsuliyyətdən tamamilə kənarlaşdırmaq düzgün yanaşma olmayıb, sovet dövrünün qeyri-adekvat, yanlış düşüncə tərzindən irəli gəlir. Bu mənada Heydər Əliyev Fondunun ötən 16 ildəki nəcib, xeyirxah fəaliyyəti digər qurumlar üçün də nümunə, örnək sayıla bilər.

Əminliklə deyə bilərik ki, Mehriban xanım Əliyeva Birinci vitse-prezident vəzifəsində də milyonlarla insanın ümid, güvənc yerinə çevrilmiş, yüksək dövlət səlahiyyətlisi simasında vətəndaşlara layiqli və həssas münasibətin mükəmməl örnəyini yaratmışdır. İnsanlara təmənnasız yaxşılığı, qayğısı, mərhəməti, ehtiyacı olanlara əl tutması, xeyriyyəçiliyi onun fəaliyyətinin real mənzərəsidir. Cəmiyyət həyatı ilə bağlı məsələlərə adekvat reaksiyası, vətəndaş müraciətlərinə operativ və həssas yanaşması, köməksiz, sosial müdafiəyə ciddi ehtiyac duyan insanlara xüsusi qayğı ilə yanaşması onun yüksək humanizminin və insanpərvərliyinin, vətəndaşlıq məsuliyyətinin əyani təcəssümüdür. Böyük humanitar layihələrin müəllifi kimi çıxış edən Azərbaycanın birinci xanımının istər respublikamızda, istərsə də ölkə xaricində ilbəil artan nüfuzu məhz onun yüksək mənəvi və işgüzar keyfiyyətləri, humanizmi ilə şərtlənir.

İnsan və vətəndaş amilinə daim yüksək dəyər verən Mehriban xahım Əliyevanın bu fikirləri xüsusilə təqdirəlayiqdir: *"Biz azacıq imkan olan yerdə kömək etməyə çalışırıq. Bilirsiniz, həm də ən vacibi nədir? Ən vacibi əlaqədir. İnsan məktublar göndərir. Bilmirəm, yəqin təbii ki, administrasiyada da bu məktublar nəzərdən keçirilir. Bu məktubların haraya və necə daxil olması ilə bağlı hansısa xüsusi mexanizm var. Bizdə bu mexanizm minimuma endirilib. Əgər insan məktub yazırsa, elə ertəsi günü, yaxud hansısa qısa müddətdən sonra onunla əlaqə saxlamağa və öyrənməyə çalışırıq. Çünki biz öyrənməliyik. Bəzən elə olur ki, məktubda yazılanlar həqiqətə uyğun gəlmir. Əgər həqiqətən köməyin lazım olduğunu görürüksə, çalışırıq kömək edək. Hesab edirəm ki, Heydər Əliyev Fondu məhz bunun sayəsində insanların sevgi və hörmətini qazanıb".*

Birinci vitse-prezident haqlı olaraq qeyd edir ki, xeyriyyəçilik cəmiyyətdə mənəvi-psixoloji ab-havanın yaxşılaşmasına şərait yaradır, insanlar arasında münasibətləri humanistləşdirir, onların daha xeyirxah, səmimi və həssas olmasına müsbət təsir göstərir. Çətin məqamda başqalarından dəstək almış insan imkanı daxilində başqalarına kömək göstərməyə daha çox meyil edir. Beləliklə, cəmiyyətdə xeyirxah işlərin dairəsi genişlənir, qarşılıqlı kömək və dəstək sistemi yaranır. Bütün bunlar isə son nəticədə insanların qarşılıqlı münasibətlərinə, onların ovqatına və sosial əhvali-ruhiyyəsinə müsbət təsir göstərir.

Ötən 3 ildə də ölkənin hərtərəfli inkişafı, cəmiyyətin mənəvi-intellektual yüksəlişi baxımından təhsil məsələlərinin həlli də diqqətdə saxlanılmışdır. Təhsil sistemindəki kadr islahatları, müəllimlərin əməyinin qiymətləndirilməsində müasir standartların tətbiqi ümumən ölkə təhsilinin keyfiyyətinin yüksəlməsini təmin etmişdir. Azərbaycanın zəruri ehtiyaclarını nəzərə alan Heydər Əliyev Fondunun yeni məktəblərin tikintisi, mövcud ümumtəhsil müəssisələrinin əsaslı təmir və bərpası istiqamətində ötən 16 ildə həyata keçirdiyi layihələr bu gün yeni miqyas və vüsətlə davam etdirilir, maarifləndirmə strategiyası inamla reallaşdırılır. Təkcə onu demək kifayətdir ki, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qısa müddətdə Mərdəkan qəsəbəsində "İnci" körpələr evi-uşaq bağçası, Maştağa qəsəbəsində 9 saylı sanatoriya tipli körpələr evi-uşaq bağçası, habelə Bakının Nərimanov rayonunda 80 saylı körpələr evi-uşaq bağçası və 11 saylı xüsusi təhsil məktəbi, Səbail rayonunda 157 nömrəli uşaq bağçası, Şüvəlan qəsəbəsində "Cırtdan" Respublika Uşaq-Gənclər İstirahət və Sağlamlıq Mərkəzi istifadəyə verilmişdir. Bu müəssisələrin açılış mərasimlərində şəxsən iştirak edən Birinci vitse-prezident məktəbəqədər və orta təhsilin cəmiyyət həyatındakı roluna yüksək önəm verdiyini əyani nümayiş etdirmiş, maarifçilik yoluna alternativin olmaması ilə bağlı ictimaiyyətə ciddi mesajlar ötürmüşdür.

Xüsusi vurğulamaq lazımdır ki, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində uşaqlar üçün şənliklərin təşkili də ənənə halını almışdır. Bakıdakı uşaq evlərinin sakinləri, internat məktəblərinin şagirdləri, xüsusi qayğıya ehtiyacı olan uşaq və yeniyetmələr, eləcə də şəhid ailələrindən olan uşaqlar üçün keçirilən ənənəvi şənliklərdə Birinci vitse-prezident Mehriban Əliyeva, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva yaxından iştirak edirlər.

Respublikamızı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident cənab İlham Əliyevin yaxın silahdaşı kimi, Mehriban xanım Əliyevanın xalqın maraqlarının müdafiəsinə yönəldilmiş hərtərəfli fəaliyyəti Azərbaycan qadınının cəmiyyət həyatında rolu barədə də aydın təsəvvür yaradır. Mehriban xanım Əliyevanın timsalında Azərbaycan qadınının cəmiyyətdəki yeri, nüfuzu, işgüzarlığı, dövlətə layiqli xidmət missiyası aydın görünür. İctimaiyyət ötən 3 ildə bir daha əmin olmuşdur ki, Mehriban xanım Əliyeva dövlətimizin onun üzərinə qoyduğu məsuliyyətli vəzifəni də ləyaqətlə və mühüm nailiyyətlərlə həyata keçirir.

Azərbaycanın Birinci vitse-prezidentinin bəşəri ideallara sadiqliyi, habelə qlobal problemlərin həllinə sanballı töhfələr vermək əzmi ölkəmizin beynəlxalq səviyyədə mənafelərini də təmin edir. Onun fəal təşəbbüsləri Azərbaycanın bəşəri miqyasda tanınmasına, ölkəmiz haqqında obyektiv ictimai rəyin formalaşmasına, həmçinin respublikamızın beynəlxalq miqyaslı tədbirlərin təşkilatçısına çevrilməsinə xidmət edir. Azərbaycanın birinci xanımı ingilis dilində səlist nitq söyləməklə, ölkə həqiqətlərini dünyaya çatdırır. Çıxışlarında bəşəriyyəti sülhə, sabitliyə, qarşılıqlı faydalı əməkdaşlığa, qlobal problemlərin birgə həllinə səsləyən qlobal çağırışların yer alması birinci xanımın timsalında Azərbaycan qadını haqqında əyani təsəvvür formalaşdırır. Qadınlarımıza xas nəcibliyi, zəngin daxili mədəniyyəti, ziyalılığı, humanizmi, kübarlığı təcəssüm etdirir.

Xüsusi vurğulamaq lazımdır ki, "Avrovizion-2012" musiqi yarışması, Birinci Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunlarına hazırlıq üzrə təşkilat komitələrinə uğurla rəhbərlik etmiş Mehriban xanım Əliyeva ölkəmizin idman və əlverişli turizm məkanı kimi tanınmasını da təmin etmişdir. O, son 3 ildə Birinci vitse-prezident statusunda müxtəlif ölkələrdə rəsmi səfərlərdə olaraq milli həqiqətlərimizi beynəlxalq ictimaiyyətə dolğun şəkildə çatdırır. Mehriban xanım Əliyeva ötən dövrdə çoxsaylı yüksək statuslu əcnəbi qonaqları qəbul etmiş, eləcə də Fransa, İtaliya və Rusiyada əhəmiyyətli görüşlər keçirmişdir.

İtaliyaya rəsmi səfəri çərçivəsində Roma Papası Fransisk ilə görüşmüş, Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyəsindən məmnunluq ifadə olunmuş, habelə əməkdaşlığın mədəni irsin qorunması sahəsində daha da genişləndiyi vurğulanmışdır. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti, fondun xristian abidələrinin qorunması, bərpası istiqamətində gördüyü işlər də yüksək qiymətləndirilmişdir.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsində fəal roluna görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanı ötən ilin avqust ayında "Dostluq" ordeni ilə təltif etməsi də əhəmiyyətli hadisə kimi diqqət çəkir. Bu, ümumən, Azərbaycanın siyasi rəhbərliyinin yürütdüyü siyasətin dünyanın əsas fövqəlgüc dövlətlərindən olan Rusiya tərəfindən yüksək dəyərləndirildiyinin və dəstəkləndiyinin, eyni zamanda mövcud əlaqələrin dinamik inkişafında Mehriban xanım Əliyevanın müstəsna xidmətlərinin rəğbətlə qarşılandığının göstəricisi olmuşdur.

Mehriban xanım Əliyeva dövlət idarəçiliyində üzərinə götürdüyü şərəfli və məsuliyyətli missiya ilə Azərbaycanın demokratik dəyərlərə bağlı multikultural və tolerant ölkə kimi tanınmasını da təmin edir. Xatırlatmaq lazımdır ki, bu istiqamətdə ilk mötəbər tədbirlərdən biri Heydər Əliyev Fondunun təşkilatçılığı ilə hələ 2008-ci ildə Bakıda təşkil olunmuş "Mədəniyyətlərarası dialoqda qadınların rolu" mövzusunda konfrans olmuşdur. Sonrakı mərhələdə UNESKO, ISESCO, BMT-nin Sivilizasiyalar Alyansı və Avropa Şurasının dəstəyi ilə Bakıda Ümumdünya mədəniyyətlərarası dialoq forumları keçirilmişdir. Bundan əlavə, Bakı şəhəri 2011-2018-ci illərdə I- IV Bakı Beynəlxalq humanitar forumlarını, habelə Dünya Dini Liderlərinin Sammitini, MDB Dinlərarası Şurasının, MDB Müsəlmanlarının Məşvərət Şurasının iclaslarını yüksək səviyyədə təşkil etmişdir.

Müxtəlif beynəlxalq tədbirlərdə aparılan müzakirələr zamanı Azərbaycan multikulturalizminin inkişafında ictimai təsisatların, xüsusən də Heydər Əliyev Fondunun xidmətləri xüsusi qeyd olunmuşdur. "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində fond katolik, pravoslav kilsələrinin və sinaqoqların təmirinə ciddi töhfələr vermiş, eyni zamanda Vatikan tarixində ilk dəfə Romada müqəddəs Marçelino və Pyotr katakombalarının bərpasına yardım göstərmişdir. Fond həmçinin Fransada Ümumdünya Mədəni İrs siyahısına daxil edilmiş Versal sarayını, Parisdə on dördüncü əsrə aid Notr-Dam, Strasburq Kafedral kilsələrinin, İkinci Dünya müharibəsində dağılmış Berlin şəhər Sarayının, həmçinin Vatikan arxivlərində saxlanılan Azərbaycan orta əsrlər əlyazmalarının bərpa olunmasına kömək etmişdir. Heydər Əliyev Fondu ilə Müqəddəs Arxeologiya üzrə Papa Komissiyası arasında imzalanmış Anlaşma Memorandumuna əsasən, Fond Romanın Kapitoli Muzeyində bərpa işlərinin həyata keçirilməsinə dəstək vermişdir.

Birinci vitse-prezident, UNESKO VƏ ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın nəcib əməllərinə görə son 15 ildə layiq görüldüyü çoxsaylı beynəlxalq mükafatlar, fəxri adlar, təltiflər ümumən Azərbaycan qadınına verilən yüksək qiymətdir. Nəcib missiyaya beynəlxalq rəğbətin ifadəsi olan bu təltif və mükafatların sırası isə kifayət qədər genişdir. 2004-cü ildə UNESKO-nun, 2006-cı ildə İSESCO-nun xoşməramlı səfiri adına, 2007-ci ildə "Qızıl ürək" və Dünya Səhiyyə Təşkilatının İhsan Doğramacı adına Ailə Sağlamlığı Fondunun mükafatlarına, "Əsrlərin xeyriyyəçiləri" Beynəlxalq Fondunun Yaqut Xaç ordeninə, 2009-cu ildə "XXI əsrin böyük qadını" laureatına, 2010-cu ildə isə Fransanın "Fəxri Legion" ordeninə, yenə də UNESCO-nun "Qızıl Motsart" medalına, 2011-ci ildə Krans Montana Forumunun Qızıl medalına layiq görülməsi isə onun beynəlxalq nüfuzunun bariz təcəssümüdür. Heydər Əliyev Fondunun prezidentinə humanitar fəaliyyət sahəsindəki xidmətlərinə görə MDB-nin "Birliyin ulduzları" mükafatı da təqdim edilmişdir. Mükafat hər il elm, təhsil, mədəniyyət və incəsənət sahələrində böyük uğur və töhfələrə, dünya nailiyyətləri səviyyəsinə uyğun olan və MDB ölkələrinin humanitar əməkdaşlığına şərait yaradan humanitar fəaliyyətə görə verilir.

Qeyd olunanlar bir daha təsqdiqləyir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva təşəbbüskar, yaradıcı fəaliyyəti, diplomatik və təsərrüfatçılıq qabiliyyəti ilə özünəməxsus idarəçilik məktəbinin əsasını qoyaraq Azərbaycanın sosial-iqtisadi inkişafında, dünya təsərrüfat sisteminə uğurlu inteqrasiyasında, habelə Prezident cənab İlham Əliyevin yürütdüyü siyasətin səmərəli reallaşmasında mühüm rol oynayır.

*Bütün bunlar Azərbaycanda ictimai münasibətlər sisteminin vətəndaş cəmiyyəti quruculuğu prinsipləri ilə formalaşmasına, ölkədə ictimai iqlimin sağlam, işgüzar müstəvidə inkişafına sanballı töhfələrini verir. Bu məsuliyyətli missiya Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi, onun layiqli siyasi davamçısı olan Azərbaycan Prezidenti cənab İlham Əliyevin böyük uğurla davam etdirdiyi strateji siyasət kursunun layiqincə həyata keçirilməsinə, yürüdülən siyasətin hər bir vətəndaşın həyatında hiss olunmasına dəstək verməyə yönəlmişdir.*

***Qüdrət KƏRİMOV,***
***"Xəzər" QSC-nin sədri,***
***iqtisad elmləri doktoru***






# Böyük himayədar, səmimi dost

## Məcburi köçkünlərin sosial problemlərinin həlli Birinci vitse-prezidentin xüsusi diqqət mərkəzindədir

*Əvvəli 1-ci səh.*

Bunun real təsdiqi Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyətə başlamasından sonra əsas diqqəti məhz qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə yönəltməsidir.



### Uğurlu nümunə

Birinci vitse-prezident kimi Mehriban xanım Əliyevanın 2017-ci il martın 9-da ilk müşavirəsini Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin qəzalı binalardan köçürülməsinə həsr etməsi deyilənlərin bariz nümunəsidir. Mehriban xanım Əliyevanın 2019-cu ilin avqustun 26-da, məhz doğum günündə bir qrup məcburi köçkünlə görüşməsi də onun bu insanlara diqqət və qayğısını təsdiqləyən növbəti reallıqdır.

Günün gerçəkliyi budur ki, Azərbaycanda xeyirxahlıq fəaliyyətinin inkişafı məhz Mehriban xanımın rəhbəri olduğu Heydər Əliyev Fondunun adı ilə bağlıdır. Belə ki, Heydər Əliyev Fondu fəaliyyətində qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi diqqət yetirir. Məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi qayğının təzahürüdür. Ölkənin müxtəlif yerlərində qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması üçün 106 qəsəbə və şəhərcik salınıb. 106-cı "Qobu Park-2" yaşayış kompleksidir. Bu kompleksin inşası Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilib. Yəni bu istiqamətdə atılan mühüm addımlardan danışarkən ilk növbədə Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən tədbirləri vurğulamaq lazımdır.

Artıq Bakının Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa edilib. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edilib.

Qeyd olunanlar bir daha bu reallığı ortaya qoyur ki, Azərbaycan dövləti hər zaman vətəndaşlarının qayğısına qalır, onların problemlərinin həlli dövlət siyasətinin mühüm istiqamətini təşkil edir. Bu məqama toxunan Mehriban xanım Əliyeva qeyd edir: *"...İndiki mərhələdə digər yerlərdə - yararsız binalarda, yarımçıq tikilmiş binalarda, yataqxanalarda, pansionatlarda, uşaq bağçalarında müvəqqəti məskunlaşmış soydaşlarımızın vəziyyəti yaxşılaşdırılmalıdır. İlk mərhələdə ən ağır vəziyyətdə yaşayan insanlar yeni mənzillərə köçürülməlidir. Bundan sonra ardıcıl olaraq digər qaçqın və köçkün ailələrinin yaşayış vəziyyəti yaxşılaşdırılmalıdır. Biz bunun üçün çalışırıq və çalışacağıq. Mən əminəm ki, Azərbaycan dövləti bu problemi öz gücü ilə həll edəcək. Bildiyiniz kimi, Azərbaycan bu gün güclü və qüdrətli müstəqil dövlətdir... Azərbaycan Prezidenti İlham Əliyev üçün Azərbaycanın və Azərbaycan xalqının maraqları hər bir şeydən üstündür və biz bu yoldan dönməyəcəyik".*

Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələri köçürülüb. Sumqayıtdakı 1005 məcburi köçkün ailəsi üçün inşa olunmuş yaşayış binaları da istifadəyə verilib. Ötən il oktyabrın 8-də isə "Qobu Park-2" yaşayış kompleksinin açılışı olub.

### Ağdama son 4 ildə 3 səfər

Ağdamdan olan məcburi köçkünlər də həmişə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısını öz üzərlərində hiss ediblər. Mehriban Əliyevanın Ağdama, cəbhəyanı ərazilərə səfərləri hər zaman qaçqın və məcburi köçkünlərin böyük qayıdışa inamını daha da gücləndirib. Rayonun işğal altında olmayan 44 yaşayış məntəqəsində müxtəlif dövlət proqramları çərçivəsində geniş tikinti-bərpa və abadlıq-quruculuq işləri aparılıb, Olimpiya İdman Kompleksi, Ağdam Rayon Mərkəzi Xəstəxanası və Uşaq Xəstəxanası, Doğum Evi, Bayraq Meydanı və Bayraq Muzeyi, Avtovağzal Kompleksi tikilib, Ağdam Dövlət Dram Teatrının binası əsaslı təmir olunub, xalçaçılıq müəssisəsi yaradılıb, kəndlərarası avtomobil yolları yenidən qurulub, 39 ümumtəhsil məktəbi istifadəyə verilib. 6600-dən çox məcburi köçkün ailəsi üçün salınmış 18 yeni qəsəbədə 18 ümumtəhsil və 3 musiqi məktəbi, 10 məktəbəqədər təhsil müəssisəsi inşa edilib, qaz, elektrik, içməli su xətləri çəkilib, digər mühüm infrastruktur layihələri həyata keçirilib.

Qeyd edək ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva son 4 ildə Ağdama 3 dəfə səfər ediblər. Bu səfərlərdə ağdamlılar dövlət başçısına möhtəşəm dəstəyini, birmənalı bağlılığını, Mehriban xanım Əliyevaya isə güclü etimadını yenə də nümayiş etdiriblər. Hər bir səfər ağdamlıların həyatında, xatirələrində silinməz izlər qoyub.

Dörd il öncə, 2016-cı ildə cəbhədə gərginliyin yarandığı bir zamanda həyatlarına təhlükə ola biləcəyini bilə-bilə Mehriban xanım Əliyeva ilə birlikdə Ağdama səfər edən Prezident İlham Əliyev ağır günlərdə əhalinin yanında olub, onlara təsəlli verərək bir daha öz dəstəklərini nümayiş etdirdilər. Bu səfər insanlarda inam, dəyanət hissini, əsgərlərimizdə isə döyüş əzmini qat-qat artırdı.



Xatırladaq ki, aprel döyüşləri zamanı Ermənistan silahlı birləşmələrinin atdığı mərmilər nəticəsində Ağdamda 743 ev dağıdılmışdı. Dövlət başçısı mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayaraq Prezidentin Ehtiyat Fondundan vəsait ayırdı. Cəmi 6-7 ay ərzində dağıdılmış evlər yenidən quruldu və 2016-cı il dekabrın 3-də Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yenidən Ağdam rayonuna səfər edərək Mahrızlı kəndində tikilən həmin evlərdə yaradılan şəraitlə tanış oldular. Rayon ictimaiyyəti ilə görüşdə İlham Əliyev bunu aparılan siyasətin təzahürü adlandırdı və cəmi 6-7 ay ərzində görülən işləri dövlətin gücünün göstəricisi kimi qiymətləndirdi. Dövlət başçısı bəyan etdi ki, Ağdamın uğurlu inkişafı hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yenidən qurulan bu evlərin timsalında güclənən Azərbaycan və onun mətin vətəndaşı görünür.

### Məcburi köçkünlərin dayağı

2018-ci il noyabr ayının 5-i isə Ağdamda yeni bir tarix yazıldı. Dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva cəbhə bölgəsinə səfər edərək növbəti dəfə ağdamlılara öz dəstəklərini nümayiş etdirdilər. Rayon əhalisi bir daha əmin oldu ki, İlham Əliyev və Mehriban Əliyeva onların birmənalı himayədarlarıdırlar.

Bu bir həqiqətdir ki, Ağdam hər zaman Qarabağ muğam mədəniyyətinin məkəzlərindən biri hesab olunub. Ərazisinin böyük hissəsi işğala məruz qalsa da, ötən illər ərzində muğam sənətini özünə və yaşamına dayanıqlı bir istinad nöqtəsi seçən Ağdamın görkəmli musiqiçiləri Qarabağ muğam məktəbi adlı tarixi ənənəni yaşatmaqda davam edirlər. Mehriban xanım Əliyevanın bu işdə əvəzsiz xidmətləri var. Fondun dəstəyi ilə Qarabağda üçüncü mərkəz 2018-ci ilin noyabrında Ağdamda açıldı. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Ağdam Muğam Mərkəzinin açılışında iştirak edərək bu işə öz dəyərli töhfələrini verdilər. Ağdam rayonunun ziyalılarının, incəsənət xadimlərinin iştirak etdiyi mərasimdə bildirildi ki, Muğam Mərkəzinin tikilməsi Mehriban xanım Əliyevanın bölgəyə olan böyük diqqət və qayğısının təzahürüdür. Muğam sənətimizi yaşadan, dünyaya tanıdan Heydər Əliyev Fondunun bu istiqamətdə gördüyü işlər əvəzsizdir.

Ağdama son səfərləri çərçivəsində dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva "Azərxalça"nın Ağdam filialının və "Qarabağ Atçılıq Təsərrüfatı" MMC-nin Qarabağ Atçılıq Kompleksinin açılışında da iştirak ediblər.

*Bütün bunlar məcburi köçkünlərə yüksək qayğının real təsdiqi olmaqla yanaşı, onların doğma torpaqlara qayıdacaqları günə olan əminliklərini də artırır. Ağdamdan olan məcburi köçkünlər onlara yaradılan yüksək şəraitə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildirir və onların ətrafında sıx birləşdiklərini bəyan edirlər.*

***Vasif HƏSƏNOV,***
***YAP Ağdam Rayon Təşkilatının Gənclər Birliyinin sədr müavini***





◆ Zəlzələ bölgəsindən reportaj

# "Prezident və Mehriban xanım bizi yenidən həyata qaytardılar"

## Zəlzələdən sonra Şamaxıda Heydər Əliyev Fondunun xətti ilə inşası və bərpası nəzərdə tutulan bütün evlərdə işlər başa çatdırılıb



*Əvvəli 1-ci səh.*

### Cəmi iki aya yeni ev tikdilər

Günəşin boylanmasına baxmayaraq, dağların qoynunda yerləşən Muğanlıda hava şaxtalı idi. Rayon mərkəzindən fərqli olaraq hələ bir neçə gün əvvəldən yağan qar əriməmişdi. Amma bu sazaqlı hava Maarif kişinin ailəsini qorxutmurdu. Çünki keçən il Heydər Əliyev Fondunun onlar üçün tikdiyi evin istisini heç nə soyuda bilməzdi.

Həmin günləri xatırlayan Maarif Səfərov deyir: "Zəlzələdən sonra ailəmiz tamamilə ümidsiz idi. İllərboyu min əziyyətlə ərsəyə gətirdiyimiz ev bir anın içində qəzalı vəziyyətə düşmüşdü. Evə girmək belə olduqca təhlükəli idi. Tavan, divarlar hər an uça bilərdi. Ona görə ailə üzvlərimizin hərəsi bir qohum evinə yerləşdi. Amma qohum-qardaş evində nə qədər yaşamaq olar? Gözləmədiyimiz halda Heydər Əliyev Fondundan gəldilər, evə baxdılar və dedilər ki, Mehriban xanımın tapşırığı ilə bizim üçün yeni ev tikəcəklər. Necə demişdilərsə elə də oldu. Cəmi iki aya evi söküb yerində təzə 3 otaqlı ev bina etdilər. Sanitar qovşaq da evin içindədir. Üstəlik mebel də verdilər. Bu ev Mehriban xanımın bizə hədiyyəsidir".

Keçən ilin sentyabr ayında Şamaxıya səfər edən Birinci vitse-prezident Mehriban Əliyevanın baş çəkdiyi ünvanlardan biri də bu ev idi. Ev sahibinin sözlərinə görə, Mehriban xanımın və qızı Leylanın gəlişi ailə üçün əsl bayram olub. Mehriban Əliyeva yeni evlə tanış olaraq ailəyə xeyir-dualarını verib. Səfərovlar ailəsi ən çətin anlarda onların yanında olmalarına və zəlzələnin törətdiyi fəsadların aradan qaldırılması üçün göstərdikləri köməyə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya dərin təşəkkürünü bildiriblər.

Şamaxının rayon mərkəzində Şirvanşah İbrahim küçəsində yaşayan Ağayusif Məmmədovun evi də Heydər Əliyev Fondu tərəfindən yenidən tikilib. "Zəlzələdən sonra evim böyük zərər çəkdi. Uçub, dağılmaq üzrəydi. Bərpası mümkün deyildi. Heydər Əliyev Fondunun nümayəndələri evə baxandan sonra qərara alındı ki, sökülsün. Qısa vaxtda yeni, kürsülü ev tikdilər. Sağ olsun Mehriban xanım, bizi çətin vəziyyətdən xilas etdi, necə deyərlər, isti ocağımızı özümüzə qaytardı. Allah hörmətli prezidentimizdən və Mehriban xanımdan razı olsun. Çünki onlar dar günlərdə şamaxılılara həyan oldular".

### Üç rayonda 541 ev

Qeyd edək ki, baş vermiş dağıdıcı zəlzələdən sonra Şamaxı, Ağsu və İsmayıllı rayonlarının sakinləri tərəfindən Fövqəladə Hallar Nazirliyinə və yerli icra hakimiyyəti orqanlarına ümumilikdə 10650 müraciət daxil olub. Bu barədə danışan FHN-in zəlzələ bölgəsi üzrə qərargahının rəisi Həsən Qasımzadə bildirdi ki, müraciətlərlə əlaqədar müvafiq komissiya tərəfindən 10609 evə baxış keçirilib və akt tərtib olunub.

Keçən il dekabrın 5-dək üç rayon üzrə 580 qəzalı evin yenidən tikintisinə dair qərar qəbul edilib. Artıq bunlardan 541-nin tikintisi başa çatdırılıb və sakinlərin istifadəsinə verilib. 39 evdə isə son tamamlama işləri aparılır və yaxın günlərdə tam başa çatdırılacaq.

Şamaxıda yeni evlə təmin olunanlardan biri də Saray nənədir. Məlum olduğu kimi, Prezident İlham Əliyev zəlzələnin səhərisi günü Şamaxıya səfəri zamanı yaşı 100-ə yaxınlaşan Saray nənə ilə görüşüb söhbətləşmişdi. Martın 7-də isə İlham Əliyev və Mehriban Əliyeva birlikdə Saray nənəyə baş çəkmişdilər. Şamaxıya səfərimiz çərçivəsində Saray nənə ilə söhbətləşib hal-əhval tutduq, yeni evindəki şəraiti ilə tanış olduq. Hərəkətində çətinlik çəksə də, yaddaşı iti olan Saray nənənin sözündən, söhbətindən sanki gənclik enerjisi hiss edilirdi: "Allah heç kimi evsiz-eşiksiz qoymasın. Ömrüm boyu işləmişəm, öz zəhmətimizlə dolanmışıq. Amma hardan biləydik ki, bir gün soyuqda evsiz qalacağıq. Allah Prezidentimizə ömür versin, İlham da, Mehriban da mənim balalarım kimidi. Zəlzələnin səhərisi bir də gördüm ki, İlham o qapıdan gəlir, elə bil mənə dünyanı verdilər. İstədim ayağa qalxım, əlini çiynimə qoydu ki, durma. Bir xeyli söhbət etdik, sonra evə baxdı. Ay bala, gör indi nə qəşəng ev tikdirib İlham oğlum. Allah onun ailəsini, balalarını xoşbəxt etsin".







Prezidentin baş verənlərə operativ reaksiyası nəticəsində Saray nənə Novruz bayramını yeni evində qeyd edir. Evdə olan bütün əşyaları da dövlət başçısı hədiyyə edib.

Şamaxıda evi yenidən tikilən sakinlərdən biri də şəhər sakini Vahid Şıxıyevdir. "Qəzalı vəziyyətə düşən evim 3 otaqlı idi. Amma Prezidentin sayəsində yerində dördotaqlı ev tikildi", - deyə o bildirdi.

Hazırda Şamaxıda yenidən tikilməkdə olan evlərin sayı 16-dır. Onlardan şəhərin A.M.Şərifzadə, 28 May və M.F.Axundov küçələrində tikilməkdə olan evlərlə maraqlandıq. Demək olar ki, bütün evlər əvvəlkilərdən daha geniş olmaqla inşa olunur. Evləri yenidən inşa olunan sakinlərdən Fəxrəddin Əhmədov, Paşa Əhmədov, Gülpəri Hüseynova, Məlahət Həmidova onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını ifadə etdilər. "Zəlzələ nəticəsində evimiz tamamilə qəzalı vəziyyətə düşdü. Sağ olsun Prezidentimiz və Mehriban xanım. Onların qayğısı ilə evimizin yerində yeniləri inşa olunur. Özü də əvvəlkindən geniş və yaraşıqlı. Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarına da minnətdarıq, çünki xüsusi fədakarlıqla çalışırlar. Tezliklə yeni evimizə köçəcəyik".

Yeni tikilən evlərlə yanaşı, ötən müddət ərzində Şamaxıda bərpasına ehtiyac olan 2063 evin 1798-də bərpa işlərinə başlanılıb. Bunlardan 1727-də işlər tam başa çatdırılıb və sakinlərinə təhvil verilib. 71 evdə isə son tamamlama işləri gedir. Şamaxıda bir daha əmin olduq ki, Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, zəlzələnin nəticələri sürətlə aradan qaldırılır. Bütün bunlar isə rayon ictimaiyyəti tərəfindən böyük razılıqla qarşılanır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Qərar № 28/317

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 17 fevral 2020-ci il tarixli 242 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 107 saylı Qazax seçki dairəsi üzrə qeydə alınmış namizəd Göyüşov Ramil Vahid oğlu 2020-ci il fevralın 17-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 13 fevral 2020-ci il tarixli 18/50 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğvini və seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunması barədə qərar verilməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Qeydə alınmış namizəd R.V.Göyüşov qanunla nəzərdə tutulmuş müddətdə 1, 3, 5, 6, 7, 8, 9, 13, 16, 17, 18, 25, 30, 33, 35 saylı məntəqələrdə baş vermiş qanun pozuntuları ilə bağlı 107 saylı Qazax seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, dairə seçki komissiyasının 18/50 saylı qərarı ilə onun müraciəti əsassız hesab edilərək təmin olunmamışdır.

Dairə seçki komissiyasının mübahisələndirilən qərarı və digər sənədlər araşdırma materiallarına əlavə edilmişdir.

107 saylı Qazax seçki dairəsinin dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, yuxarıda qeyd edilən seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddialar öz təsdiqini tapmadığından qeydə alınmış namizəd R.V.Göyüşovun müraciəti əsassız hesab olunaraq təmin edilməmişdir.

Mərkəzi Seçki Komissiyasına müraciətində o, səsvermə günü 107 saylı Qazax seçki dairəsinin 1, 2, 4, 6, 8, 9, 12, 13, 17, 18, 25, 26, 29 və 33 saylı seçki məntəqələrində məntəqə seçki komissiyalarının üzvləri tərəfindən müşahidənin aparılması üçün normal şəraitin yaradılmaması, məntəqə seçki komissiyalarının üzvləri tərəfindən müşahidə prosesinə maneçilik törədilməsi, səsvermə başlamazdan əvvəl seçki bülletenlərinin masanın üzərinə qoyulmaması, iki nəfərin bir kabinada səs verməsi, bir nəfərə iki bülleten verilməsi, seçki hüququ olmayan şəxslərin seçki məntəqəsinə daxil olması, seçki məntəqələri üzrə adları seçici siyahılarında olmayan şəxslərin səsvermədə iştirak etməsi və digər qanun pozuntularına yol verildiyini göstərərək bu pozuntuların araşdırılmasını, adları qeyd edilən məntəqələr üzrə səsvermənin nəticələrinin ləğvini və seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir. Müraciətə səsvermə günü müxtəlif seçki məntəqələrində baş verməsi iddia edilən video görüntülərin toplandığı 1 ədəd elektron məlumat daşıyıcısı və həmin seçki dairəsinə daxil olan seçki məntəqələrində tərtib olunması iddia edilən aktların və digər məlumat xarakterli materialların kserosurətləri əlavə edilmişdir.

Qeydə alınmış namizəd R.V.Göyüşova araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında iştirak etmək və digər hüquqları izah edilmişdir.

Araşdırmanın tamlığı, hərtərəfliliyi və obyektivliyi prinsipi əsas götürülərək səsvermə günü həmin seçki dairəsi ilə bağlı sosial şəbəkələrdə olan məlumatlar, seçki komissiyalarının seçkilərin yekununa dair protokol məlumatları və şikayətçilər tərəfindən araşdırmaya təqdim olunmuş sənədlər və videomateriallar, həmçinin dairə seçki komissiyasının mübahisələndirilən qərarı və digər sənədlər tədqiq edilmişdir. Təqdim olunmuş bir ədəd elektron məlumat daşıyıcısına baxış keçirilərkən müəyyən edilmişdir ki, bu daşıyıçıda 107 saylı Qazax seçki dairəsinin 1, 2, 3, 4. 9, 12, 13, 17, 18, 22, 25 , 29 və 34 saylı seçki məntəqələrindən görüntülər vardır.

Araşdırma zamanı 107 saylı Qazax seçki dairəsi üzrə səsvermə günü ilə əlaqədar yayımlanan və şikayətçi tərəfindən təqdim olunmuş videomateriallara baxış nəticəsində aydın olur ki, bu görüntülərdə həmin məntəqələrdə baş verməsi ehtimal olunan ayrı-ayrı prosedur pozuntuları əks olunmuşdur. Həmin videomateriallara keçirilmiş baxışdan və dairə seçki komissiyasından müxtəlif siyasi partiyaları təmsil edən müşahidəçilərdən, səlahiyyətli nümayəndə, vəkil edilmiş şəxs və adıçəkilən məntəqə seçki komissiyalarının üzvlərindən alınmış izahatlardan müəyyən edilmişdir ki, səsvermə günü 2 saylı seçki məntəqəsi istisna olmaqla, mübahisələndirilən digər seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, səslər qanunvericiliyin tələbinə uyğun olaraq hesablanmış, məntəqə seçki komissiyasının səsvermənin nəticələrinə dair yekun protokolu Seçki Məcəlləsinin tələblərinə uyğun tərtib olunaraq maraqlı seçki subyektlərinə verilmişdir və beləliklə dairə seçki komissiyası 2 saylı seçki məntəqəsi istasna olmaqla, düzgün nəticəyə gəlmişdir.

Araşdırma nəticəsində 2 saylı seçki məntəqəsində seçicilərin iradələrini sərbəst ifadə etmələrinə maneə yaradan qanun pozuntuları müəyyənləşdirilmişdir. Həmin qanun pozuntuları seçki qanunvericiliyinin tələblərinə görə 2 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaradır. Nəticələri etibarsız hesab edilməli olan seçki məntəqəsinin sayı seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən azını təşkil edir. Həmin seçki məntəqələrində seçici siyahılarında olan seçicilərin sayı seçki dairəsi üzrə qeydə alımış seçicilərin ümumi sayının 1/4-dən azını təşkil edir.

Belə ki, səsvermənin nəticələri etibarsız hesab edilməli olan seçki məntəqələrinin sayı 1, seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayı 37-dir.

Seçki Məcəlləsinin 170.2-ci maddəsində göstərilir ki, dairə seçki komissiyası və ya Mərkəzi Seçki Komissiyası birmandatlı seçki dairəsi üzrə aşağıdakı hallarda seçkiləri etibarsız sayır:

- 170.2.1. səsvermə keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı seçki dairəsi üzrə yol verilən qanun pozuntuları seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədikdə;

- 170.2.2. birmandatlı seçki dairəsi üzrə səsvermə zamanı səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil etdikdə və ya ləğv edildikdə, o şərtlə ki, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı seçki dairəsi üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etsin.

Göstərilənlərə əsasən müraciətin qismən təmin edilməsi, seçki dairəsinin 2 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi və dairə seçki komissiyasının qərarının həmin seçki məntəqəsinə aid hissədə ləğv edilməsi, üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 107 saylı Qazax seçki dairəsi üzrə qeydə alınmış namizəd Göyüşov Ramil Vahid oğlunun 17 fevral 2020-ci il tarixli 242 saylı müraciəti qismən təmin edilsin, 2 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.
2. Dairə seçki komissiyasının 13 fevral 2020-ci il tarixli 18/50 saylı qərarı 2 saylı seçki məntəqəsinə aid hissədə ləğv edilsin, qərar digər hissədə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*20.02.2020*

## Qərar № 28/318

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 17 fevral 2020-ci il tarixli 251 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 43 saylı Sumqayıt üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Aslanov Cavidan Əlislam oğlu 2020-ci il fevralın 17-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət etməklə həmin seçki dairəsi dairə seçki komissiyasının 52/173 saylı qərarını mübahisələndirərək qeydə alınmış digər namizəd Hacıyev Emin Məcid oğlunun Rusiya Federasiyası vətəndaşı və bu ölkə qarşısında öhdəliyinin olub-olmamasının araşdırılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Qeydə alınmış namizəd C.Ə.Aslanov müraciətində 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 43 saylı Sumqayıt üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Hacıyev Emin Məcid oğlunun Rusiya Federasiyasının vətəndaşı və bu ölkə qarşısında öhdəliyinin olmasını iddia etmişdir.

Dairə seçki komissiyasından C.Ə.Aslanovun müraciətinin araşdırılmasına dair mübahisələndirilən qərar və digər materiallar alınaraq araşdırılmışdır.

Dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, qeydə alınmış namizəd E.M.Hacıyevin Rusiya Federasiyasının vətəndaşı və bu ölkə qarşısında öhdəliyinin olub-olmamasının araşdırılması ilə əlaqədar dairə seçki komissiyası nəzdində yaradılmış ekspert qrupunun üzvü Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə müraciət etmiş, iddia edilən bu hal nazirlik tərəfindən təsdiq edilməmişdir.

Araşdırma ilə əlaqədar E.M.Hacıyevin namizədliyinin qeydə alınmasına dair dairə seçki komissiyasına təqdim etdiyi sənədlərə baxış keçirilmiş və onun öz imzası ilə təsdiq etdiyi öhdəlik ərizəsində ikili vətəndaşlığının və başqa dövlət qarşısında öhdəliyinin olmadığını göstərməsi müəyyən edilmişdir.

Aparılan araşdırma nəticəsində müəyyən edilmişdir ki, 43 saylı Sumqayıt üçüncü seçki dairəsinin dairə seçki komissiyası qeydə alınmış namizəd E.M.Hacıyevin ikili vətəndaşlığının, başqa dövlət qaşısında öhdəliyinin olmaması ilə bağlı düzgün nəticəyə gələrək qeydə alınmış namizəd C.Ə.Aslanovun müraciətinin təmin olunmamasına dair qərar vermişdir.

Göstərilənlərə əsasən namizəd C.Ə.Aslanovun müraciətində qeyd olunanlar təsdiqini tapmadığından müraciətin təmin edilməsi üçün hüquqi əsaslar yaranmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 43 saylı Sumqayıt üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Aslanov Cavidan Əlislam oğlunun 17 fevral 2020-ci il tarixli 251 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*20.02.2020*

## Qərar № 28/320

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 17 fevral 2020-ci il tarixli 256 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 72 saylı Yardımlı - Masallı seçki dairəsi üzrə qeydə alınmış namizəd Cəfərov Xəqani Vədud oğlu 2020-ci il fevralın 17-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciətlə həmin seçki dairəsi dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 18/54 saylı qərarını mübahisələndirərək, seçki dairəsinin əhatə etdiyi bəzi seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını və seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğvi barədə qərar verilməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Ərizəçi müraciətində səsvermə günü 72 saylı Yardımlı - Masallı seçki dairəsinin seçki məntəqələrində səsvermənin nəticələri haqqında protokolların tərtib edilməsi zamanı qanun pozuntularına yol verilməsini bildirmiş, adı seçici siyahısında olmayan şəxslərin səs verməsi, eyni şəxsin bir neçə dəfə səs verməsinə şərait yaradılması, səsvermənin nəticələri haqqında protokolların verilməməsi, bir şəxsin bir neçə seçki məntəqəsində səs verdiyini iddia edərək həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin ləğvini tələb etmişdir. Müraciətə fotoşəkillər, səs yazıları və videogörüntülər əlavə olunmuşdur.

Namizədin araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında iştirakı təmin edilmişdir.

Araşdırmanın nəticəsi olaraq sosial şəbəkələrdə yayılan görüntülər, təqdim edilən fotoşəkillər və video materiallar nəzərdən keçirilərkən səsvermə prosesində, səslərin hesablanmasında və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək hallar müşahidə edilməmişdir.

Şikayətin araşdırılması ilə əlaqədar dairə seçki komissiyasının əhatə etdiyi seçki məntəqələrində quraşdırılmış veb-kameralarda olan videoyazılardan istifadə edilmiş, orada olan görüntülərə baxış keçirilmiş, müraciətdə və təqdim olunmuş aktlarda iddia olunan pozuntular öz təsdiqini tapmamışdır.

Dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq baxış keçirilmişdir. Baxış nəticəsində seçki məntəqələrinin səsvermənin nəticələrinə dair protokollarında bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular müəyyən edilməmişdir.

X.V.Cəfərovun müraciətinin təmin edilməməsinə dair 72 saylı Yardımlı - Masallı seçki dairəsi dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 18/54 saylı qərarı qiymətləndirilərkən müəyyən edildi ki, müraciətə dairə seçki komissiyası tərəfindən qanunla nəzərdə tutulan müddətdə və qaydada baxılmış, düzgün hüquqi nəticəyə gəlinmiş və müvafiq qərar ərizəçiyə vaxtında təqdim olunmuşdur.

Beləliklə, 72 saylı Yardımlı - Masallı seçki dairəsinin dislokasiyasında olan bir sıra seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddialar öz təsdiqini tapmadığından, həmçinin səsvermənin keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı həmin seçki dairəsi üzrə seçicilərin iradəsini müəyyən etməyə imkan verməyən qanun pozuntuları olmadığından qeydə alınmış namizəd X.V.Cəfərovun 17 fevral 2020-ci il tarixli 256 saylı müraciəti əsassız olduğundan təmin edilməməli, həmin dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 18/54 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 72 saylı Yardımlı - Masallı seçki dairəsi üzrə qeydə alınmış namizəd Cəfərov Xəqani Vədud oğlunun 17 fevral 2020-ci il tarixli 256 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 18/54 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*20.02.2020*

## Qərar № 28/319

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 17 fevral 2020-ci il tarixli 247 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 57 saylı Kürdəmir seçki dairəsi üzrə qeydə alınmış namizəd Qəribov Rəşad Fərhad oğlu 2020-ci il fevralın 17-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 23/75 saylı qərarını mübahisələndirərək, seçki dairəsinin əhatə etdiyi bəzi seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını və seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğvi barədə qərar verilməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Ərizəçi müraciətində səsvermə günü 57 saylı Kürdəmir seçki dairəsinin seçki məntəqələrində səsvermənin nəticələri haqqında protokolların tərtib edilməsi zamanı qanun pozuntularına yol verilməsini bildirmiş, adı seçici siyahısında olmayan şəxslərin səs verməsi, eyni şəxsin bir neçə dəfə səs verməsinə şərait yaradılması, səsvermənin nəticələri haqqında protokolların verilməməsi, bir şəxsin bir neçə seçki məntəqəsində səs verdiyini iddia edərək həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin ləğvini tələb etmişdir. Müraciətə 18 protokol nüsxəsi, fotoşəkillər və videogörüntülər əlavə olunmuşdur.

Namizədin araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında iştirakı təmin edilmişdir.

Araşdırma ilə əlaqədar sosial şəbəkələrdə yayılan görüntülər, təqdim edilən fotoşəkillər və video materiallar nəzərdən keçirilərkən səsvermə prosesində, səslərin hesablanmasında və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək hallar yalnız 7, 18 və 20 saylı seçki mənqələrində müşahidə edilmişdir ki, bu da seçicilərin iradəsini müəyyən etməyə imkan verməyən pozuntu kimi qiymətləndirilməlidir.

Dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq baxış keçirilmişdir. Ərizəçi tərəfindən təqdim edilmiş protokol nüsxələrinin müqaisəli araşdırılması nəticəsində 27 və 33 saylı seçki məntəqələrinin səsvermənin nəticələrinə dair protokollarında bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular aşkarlanmışdır.

Aşkar edilən pozuntular seçki qanunvericiliyinin tələblərinə görə məntəqə seçki komissiyalarında səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün əsas yaratdığından 7, 18, 20, 27 və 33 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaranmışdır. Nəticələri etibarsız hesab ediləməli olan seçki məntəqələrinin sayı seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən azını təşkil edir.

Belə ki, səsvermənin nəticələri etibarsız hesab edilməli olan seçki məntəqələrinin sayı 5, seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayı 42-dir.

Seçki Məcəlləsinin 170.2-ci maddəsində göstərilir ki, dairə seçki komissiyası və ya Mərkəzi Seçki Komissiyası birmandatlı seçki dairəsi üzrə aşağıdakı hallarda seçkiləri etibarsız sayır:

- 170.2.1. səsvermə keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı seçki dairəsi üzrə yol verilən qanun pozuntuları seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədikdə;

- 170.2.2. birmandatlı seçki dairəsi üzrə səsvermə zamanı səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin seçki dairəsində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil etdikdə və ya ləğv edildikdə, o şərtlə ki, həmin seçki məntəqələrində qeydə alınmış seçicilərin sayı seçki dairəsi üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etsin.

Beləliklə, Qəribov Rəşad Fərhad oğlunun müraciəti qismən təmin edilməli, 7, 18, 20, 27 və 33 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab olunmalı, dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 23/75 saylı qərarı 7, 18, 20, 27 və 33 saylı seçki məntəqələri üzrə hissədə ləğv edilməli, qalan hissədə isə dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 57 saylı Kürdəmir seçki dairəsi üzrə qeydə alınmış namizəd Qəribov Rəşad Fərhad oğlunun 17 fevral 2020-ci il tarixli 247 saylı müraciəti qismən təmin edilsin, 7, 18, 20, 27 və 33 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.
2. Dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 23/75 saylı qərarı 7, 18, 20, 27 və 33 saylı seçki məntəqələri üzrə hissədə ləğv edilsin, digər hissələrdə isə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*20.02.2020*

## Qərar № 28/321

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 290 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 54 saylı Şabran - Siyəzən seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədova Sudabə Əlislam qızının səlahiyyətli nümayəndəsi Məmmədov Fərhad Abdul oğlu 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verildiyini iddia etmiş və bu pozuntuların araşdırılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsinin) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci yarımbəndinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1. 14.1-ci maddəsinə və müvafiq Təlimatın 7.10.2-ci yarımbəndinə əsasən şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4.1.2-ci və 7.10.2-ci yarımbəndlərinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 54 saylı Şabran - Siyəzən seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədova Sudabə Əlislam qızının səlahiyyətli nümayəndəsi Məmmədov Fərhad Abdul oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 290 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən şikayət etmiş şəxsə geri göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*20.02.2020*

## Qərar № 28/322

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 17 fevral 2020-ci il tarixli 254 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 8 saylı Binəqədi birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd İbrahimov Ağasif Şakir oğlu 2020-ci il fevralın 17-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü baş vermiş qanun pozuntularının araşdırılmasına dair dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 22/2 saylı qərarını mübahisələndirmiş, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Namizəd A.Ş.İbrahimov müraciətində iddia etmişdir ki, 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 8 saylı Binəqədi birinci seçki dairəsinin 2, 6, 8, 17, 19, 20, 21, 24, 29, 32, 33, 37 və 39 saylı seçki məntəqələrində müşahidəçilərə müşahidənin aparılmasına şərait yaradılmamış, 2 ədəd səsvermə bülleteninin yuxarı sol küncləri əvvəlcədən kəsilmiş, səsvermədə iştirak edən seçicilərin sayının az olmasına baxmayaraq, məntəqə seçki komissiyaları tərəfindən bu say süni şəkildə artırılmış, seçici siyahısında bir seçici digərinin əvəzinə imza atmış, səsvermənin nəticələri haqqında protokol seçki məntəqəsində tərtib edilməmiş və protokolun surətinin bir nüsxəsi ona verilməmiş və digər qanun pozuntularına yol verilmişdir. Ərizəçi tərəfindən müraciətə DVD disk əlavə olunmuşdur.

Yuxarıda qeyd olunanlarla əlaqədar namizəd A.Ş.İbrahimov 8 saylı Binəqədi birinci seçki dairəsi dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayət araşdırılmış, həmin dairə seçki komissiyasının yuxarıda gostərilən müvafiq qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

Araşdırma prosesində şikayətçi ilə əlaqə saxlanılmış, ona hər hansı sənəd və materiallar təqdim etmək, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, lakin o, Komissiyanın iclasında iştirak etməmişdir.

Dairə seçki komissiyasının mübahisələndirilən qərarı və digər sənədlər araşdırma materiallarına əlavə edilmişdir.

8 saylı Binəqədi birinci seçki dairəsinin dairə seçki komissiyası qeyd edilən qərarını onunla əsaslandırmışdır ki, araşdırma ilə seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları təsdiqini tapmadığından və səsvermənin keçirilməsi və ya səsvermənin nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları müəyyən olunmadığından qeydə alınmış namizəd A.Ş.İbrahimovun müraciəti əsassız olduğundan təmin edilməməlidir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü seçki dairəsinin 2, 6, 8, 17, 19, 20, 21, 29, 32, 33, 37 və 39 saylı seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolu Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Belə ki, seçki dairəsinin 24 saylı seçki məntəqəsi istisna olmaqla, digər seçki məntəqələrində səsvermə günü baş verməsi iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamış və bu hal ayrı-ayrı seçki məntəqələri üzrə səslərin sayılmasını müşahidə etmiş müxtəlif maraqları təmsil edən müşahidəçilər T.N.Məmmədov, V.D.Salahov, N.Qasımova, S.M.Hacıyev, S.Əliyeva, T.M.Salbalıyev, A.Məmmədov, S.İ.Aşibova, X.O.Əliquliyeva, C.S.Süleymanova, S.C.Əhmədova, M.S.Səttərzadə, A.Ə.Abasova, K.A.Muradova, Ş.G.Zeynalova, Ü.Q.Xaləddin, M.S.Hüseynov, Ş.H.Validov, N.Z.Hacıyev, İ.Q.Yusifova, F.İ.Novruzova, Ə.S.Həmzəyeva, Ş.H.İsrafilova, L.Q.Azadova, A.Ə.Allahverdiyeva, F.S.Lətifova, R.İ.Mehdiyeva, A.İ.Hüseynov, F.İ.Novruzova, G.İ.Səfərova, G.N.Həmidova, S.M.Ağayeva, S.M.Nəzərova, V.Ə.Məcidova, K.V.Məlikova, G.A.Qasımova, X.C.Cəlilov, S.A.Məmmədova, S.S.Firudinbəyova, Q.X.Yusubova, F.C.Vəliyeva, M.A.Ələsgərov, M.M.Məmmədov, A.S.Hüseynov, R.V.Paşayeva, R.B.Atakişiyev, D.Əmirhüseynova, R.S.Mustafayeva, G.Ə.Eyvazova, R.M.Sədrəddinova, T.Məmmədzadə, Ə.A.Həsənova, A.O.Abdullayeva, S.O.Eyyubova, S.Ə.Eldarova, S.K.Babayeva, Ş.C.Məmmədov, Q.X.Yusubova, Ə.Y.Zamanlı, İ.Ə.Əhmədova və Ü.V.Əhmədovanın, 8 saylı məntəqə seçki komissiyasının sədri V.Z.Xəlilova, katibləri Q.M.Mürsəlova, V.S.Fətullayeva, üzvləri S.R.Abbasova, P.T.Ağayeva və E.Q.Kərimovanın, 17 saylı məntəqə seçki komissiyasının sədri K.Ş.Həsənova, katibləri S.B.İbrahimova, A.H.Məmmədova, üzvləri Z.R.Abdullayeva, G.İ.Fərzəliyeva və L.N.Bayramovanın, 19 saylı məntəqə seçki komissiyasının sədri N.Əsədova, katibləri B.Orucov, E.Əliyeva, üzvləri S.Hacıyeva, M.Hüseynova və A.Şirəliyevanın, 20 saylı məntəqə seçki komissiyasının sədri Ş.Y.Şükürova, katibləri K.Y.Abbasova, G.A.Qurbanova, üzvləri E.U.Xudiyev və Ş.Ə.Abasovun, 21 saylı məntəqə seçki komissiyasının sədri M.H.İsmayılov, katibləri Ş.S.Bayramova, Q.A.Hüseynzadə, üzvləri V.Q.Verdixanov, G.Nəzərəliyeva və S.İsgəndərovanın, 32 saylı məntəqə seçki komissiyasının sədri Ş.Zeynalova, katibləri M.Həsənli, Ş.Əliyeva, üzvləri X.Nəcəfova, Y.Qasımova və A.Kamilovanın, 33 saylı məntəqə seçki komissiyasının sədri T.T.Musayev, katibləri M.X.Rüstəmxanlı, Z.D.Kazımova, üzvləri G.B.Təhməzova, S.H.Mahmudova və Ə.Z.Əliyevin, 37 saylı məntəqə seçki komissiyasının sədri T.B.Zülfiyev, katibləri S.Ə.Hətəmova, G.N.Həsənova, üzvləri S.İ.Vəliyev, S.Ç.Qafarova və E.Ə.Həbibovanın, T.A.Əhməd, Z.Y.Quliyev, A.Ə.Ələkbərova, V.R.Şəmiyeva, N.N.Əkbərova, N.F.Həsənova, A.M.Allahverdiyev, A.R.Bayramova, 39 saylı məntəqə seçki komissiyasının sədri S.Ə.Əhmədova, katibləri L.Y.Şükürova, N.V.Salayeva, üzvləri T.A.Əliyev, D.C.Mirzəyev, T.R.Abdullazadə, M.E.Bayramov, S.Z.Vəlizadə, M.M.Sarıxanlı, M.R.Rüstəmov və Y.Q.Mahmudovun, qeydə alınmış namizədlər C.B.Bayramov və R.X.İmanovun, vəkil edilmiş şəxslər S.H.Həsənov, A.R.Orucov, R.G.Məmmədova və S.M.Cəfərovanın verdikləri izahatlarla, həmçinin tərtib edilmiş aktlarla təsdiq olunur.

Həmçinin, verilmiş izahatlar, aktlar və əlavə edilmiş digər sənədlərdən görünür ki, səsvermə günü bir çox seçki məntəqələrində müvafiq müşahidəçilər tərəfindən seçki qanunvericiliyinin tələblərinə əməl olunmaqla müşahidə aparılmış, Seçki Məcəlləsinin 41-ci maddəsi ilə müəyyən edilmiş müşahidənin aparılması prinsiplərinə əməl olunmuşdur.

Sosial şəbəkələr vasitəsilə paylaşılan və şikayətçinin araşdırmaya təqdim etdyi videogörüntülər araşdırılarkən, həmçinin dairə seçki komissiyasından təqdim edilmiş seçici siyahısına baxış keçirilərkən müəyyən edilmişdir ki, 24 saylı seçki məntəqəsi üzrə seçki qanunvericiliyinin tələblərinin pozulması halı təsdiqini tapmış, beləliklə də 8 saylı Binəqədi birinci seçki dairəsinin həmin seçki məntəqəsi üzrə göstərilən hal öz təsdiqini tapdığından şikayətin qismən təmin olunması üçün hüquqi əsaslar yaranmışdır.

Göstərilənlərə əsasən müraciət qismən təmin edilməli, dairə seçki komissiyasının mübahisələndirilən qərarı ləğv olunmalı və seçki dairəsinin 24 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 8 saylı Binəqədi birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd İbrahimov Ağasif Şakir oğlunun müraciəti qismən təmin olunsun, həmin seçki dairəsinin 24 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız sayılsın.
2. Dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 22/2 saylı qərarı 24 saylı seçki məntəqəsi üzrə hissədə ləğv edilsin, digər hissədə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*20.02.2020*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

**Qərar № 28/323**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 17 fevral 2020-ci il tarixli 253 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 11 saylı Qaradağ seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Samir Adil oğlu 2020-ci il fevralın 17-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının hərəkətsizliyini mübahisələndirmiş, 11 saylı Qaradağ seçki dairəsini əhatə edən seçki məntəqələrində səsvermənin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

S.A.Məmmədov müraciətində iddia etmişdir ki, dairə seçki komissiyası onun müraciətinə baxmamış və ona bu barədə cavab verilməmişdir.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

Dairə seçki komissiyasının təqdim etdiyi materiallardan müəyyən edilmişdir ki, S.A.Məmmədovun eyni mübahisə predmetinə dair şikayətinə komissiya tərəfindən 13 fevral 2020-ci il tarixli 20/55 saylı qərarla baxılmış, 14 fevral 2020-ci il tarixdə poçt vasitəsi ilə qərarın surəti ona göndərilmişdir. Bununla da dairə seçki komissiyasının hərəkətsizliyi ilə bağlı mübahisə aradan qalxmış və şikayətə mahiyyəti üzrə baxılması üçün hüquqi əsaslar müəyyən edilmişdir.

S.A.Məmmədovun müraciətinin araşdırılması səsvermə günü seçki dairəsinin seçki məntəqələri üzrə sosial şəbəkələrdə yerləşdirilmiş görüntüləri, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair dairə seçki komissiyalarına təqdim etdikləri yekun protokolları və namizəd tərəfindən təqdim olunmuş digər seçki materiallarını əhatə etmişdir.

Yuxarıda qeyd olunanlarla əlaqədar namizəd S.A.Məmmədov 11 saylı Qaradağ seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayət araşdırılmış, həmin dairə seçki komissiyasının müvafiq qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

11 saylı Qaradağ seçki dairəsinin dairə seçki komissiyası qeyd edilən qərarını onunla əsaslandırmışdır ki, araşdırma nəticəsində seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları təsdiqini tapmadığından, səsvermənin keçirilməsi və ya nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları müəyyən olunmadığından qeydə alınmış namizəd S.A.Məmmədovun müraciəti əsassız hesab edilərək təmin olunmamalıdır.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü bir seçki məntəqəsi istisna olmaqla, seçki dairəsinin mübahisələndirilən digər seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Səsvermə günü seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntularının araşdırılması məqsədi ilə müşahidə aparmış müxtəlif seçki subyektlərindən alınmış izahatlarlardan müəyyən edilmişdir ki, bir seçki məntəqəsi istisna olmaqla, həmin pozuntuları təsdiq edən hər hansı bir fakt aşkarlanmamışdır.

Namizəd tərəfindən təqdim edilmiş elektron məlumat daşıyıcısında olan görüntülərin araşdırılması ilə 30 saylı seçki məntəqəsində seçki bülletenlərinin sayılması zamanı seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular aşkarlanmışdır. Bu hal həmin seçki məntəqəsi üzrə səsvermənin nəticəsinin etibarsız hesab edilməsi üçün hüquqi əsas yaradır.

Digər seçki məntəqələri üzrə namizəd tərəfindən təqdim edilmiş elektron məlumat daşıyıcısında olan görüntülərin araşdırılması ilə seçkilərin nəticəsinə təsir edən və seçicilərin iradəsini ifadə etməyə imkan verməyən pozuntular müəyyən edilməmişdir.

Göstərilənlərə əsasən müraciət qismən təmin edilməli, 30 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 11 saylı Qaradağ seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Samir Adil oğlunun müraciəti qismən təmin olunsun, həmin seçki dairəsinin 30 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.

2. Dairə seçki komissiyasının 13 fevral 2020-ci il tarixli 20/55 saylı qərarı 30 saylı seçki məntəqələri üzrə hissədə ləğv edilsin, digər hissələrdə dəyişdirilmədən saxlanılsın.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*20.02.2020*

**Qərar № 28/324**

## 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 17 fevral 2020-ci il tarixli 244 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 23 saylı Nəsimi - Səbail seçki dairəsi üzrə qeydə alınmış namizəd Vəliyev Toğrul Seyran oğlu 2020-ci il fevralın 17-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 11/37 saylı qərarını mübahisələndirmiş, dairə seçki komissiyasının adı çəkilən qərarının ləğvini, seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

T.S.Vəliyev müraciətində iddia etmişdir ki, dairə seçki komissiyası araşdırma apararkən onun təqdim etdiyi şikayət üzrə düzgün hüquqi nəticəyə gəlməmişdir.

Ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun araşdırma və Komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

T.S.Vəliyevin müraciətinin araşdırılması səsvermə günü seçki dairəsinin seçki məntəqələri üzrə sosial şəbəkələrdə yerləşdirilmiş görüntüləri, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair dairə seçki komissiyalarına təqdim etdikləri yekun protokolları və namizəd tərəfindən təqdim olunmuş digər seçki materiallarını əhatə etmişdir.

Yuxarıda qeyd olunanlarla əlaqədar namizəd T.S.Vəliyev 23 saylı Nəsimi - Səbail seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayət araşdırılmış, həmin dairə seçki komissiyasının müvafiq qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

23 saylı Nəsimi - Səbail seçki dairəsinin dairə seçki komissiyası qeyd edilən qərarını onunla əsaslandırmışdır ki, araşdırma nəticəsində seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları təsdiqini tapmadığından, səsvermənin keçirilməsi və ya nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından qeydə alınmış namizəd T.S.Vəliyevin müraciəti əsassız hesab olunaraq təmin edilməmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü dörd seçki məntəqəsi istisna olmaqla, seçki dairəsinin mübahisələndirilən digər seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Səsvermə günü seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntularının araşdırılması məqsədi ilə müşahidə aparmış müxtəlif seçki subyektlərindən alınmış izahatlarlardan müəyyən edilmişdir ki, dörd seçki məntəqəsi istisna olmaqla, həmin pozuntuları təsdiq edən hər hansı bir fakt aşkarlanmamışdır.

Namizəd tərəfindən təqdim edilmiş elektron məlumat daşıyıcısında olan görüntülərin araşdırılması ilə 14 saylı seçki məntəqəsində seçki bülletenlərinin sayılması zamanı seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular müəyyən edilmişdir. Bu hal həmin seçki məntəqəsi üzrə səsvermənin nəticəsinin etibarsız hesab edilməsi üçün hüquqi əsas yaradır.

Digər seçki məntəqələri üzrə namizəd tərəfindən təqdim edilmiş elektron məlumat daşıyıcısında olan görüntülərin araşdırılması ilə seçkilərin nəticəsinə təsir edən və seçicilərin iradəsini ifadə etməyə imkan verməyən pozuntular müəyyən edilməmişdir.

Müvafiq məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları üzrə araşdırmaya zərurət yarandığından, səsvermə günü seçki qanunvericiliyinin tələbinə uyğun olaraq məntəqə seçki komissiyaları tərəfindən tərtib edilmiş, müşahidəçilərə verilmiş və şikayətə əlavə olunmuş 11 ədəd səsvermənin nəticəsinə dair yekun protokolların nüsxələri ilə məntəqə seçki komissiyaları tərəfindən dairə seçki komissiyasına təhvil verilmiş protokolların müqayisəli araşdırılması aparılarkən 17, 23 və 25 saylı seçki məntəqələrinin məlumatlarında uyğunsuzluq müəyyən edilmişdir.

Qeyd olunanlara əsasən, həmin seçki məntəqələri üzrə də səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Göstərilənlərə əsasən müraciət qismən təmin edilməli, 14, 17, 23 və 25 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 23 saylı Nəsimi - Səbail seçki dairəsi üzrə qeydə alınmış namizəd Vəliyev Toğrul Seyran oğlunun müraciəti qismən təmin olunsun, həmin seçki dairəsinin 14, 17, 23 və 25 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.

2. Dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 11/37 saylı qərarı 14, 17, 23 və 25 saylı seçki məntəqələri üzrə hissədə ləğv edilsin, digər hissədə dəyişdirilmədən saxlanılsın.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*20.02.2020*

# "Onlar heç vaxt böyüməyəcəklər"

## İstanbulda Xocalı soyqırımı ilə bağlı tədbir keçirilib

Türkiyənin İstanbul şəhərində Xocalıda qətlə yetirilmiş 63 uşaqdan bəhs edən, 4 dildə nəşr olunan "Onlar heç vaxt böyüməyəcəklər" kitabının təqdimat mərasimi keçirilib. Kitab Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan İlahiyyat İnstitutu və "Azərbaycan" Nəşriyyatının dəstəyi ilə nəşr olunub.



Azərbaycan İlahiyyat İnstitutu (AİI), "29 Mayıs" Universiteti, Türk Ocaqları İstanbul Şöbəsi və "Erməni təcavüzünün tanıdılması" İctimai Birliyinin birgə təşkilatçılığı ilə təşkil olunan tədbirdə öncə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilib.

Tədbirdə giriş nitqi ilə çıxış edən "29 Mayıs" Universitetinin rektoru Mustafa Sinanoğlu əvvəlcə Qarakənddə vertolyotun vurulmasından danışıb. Sonra Xocalı soyqırımından bəhs edən M. Sinanoğlu soyqırımında yüzlərlə günahsız insanın ermənilər tərəfindən amansızlıqla qətlə yetirildiyini xatırladıb. Qeyd edib ki, Ermənistanın hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməli, beynəlxalq təşkilatlar, dünya dövlətləri Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə - Xocalı soyqırımına beynəlxalq siyasi-hüquqi qiymət verməlidirlər.

Türk Ocaqları İstanbul Şöbəsinin müdiri Cezmi Bayram Xocalı soyqırımını ermənilərin tarix boyu törətdikləri ən böyük vəhşilik kimi qiymətləndirib. Bildirib ki, həmin gecə Xocalıda yaşayan yerli əhali vəhşicəsinə qətlə yetirilib. Cezmi Bayram bu qanlı hadisənin dünya miqyasında tanıdılması istiqamətində tələbələrin və sosial medianın rolunun vacibliyini vurğulayıb.

AİI-nin Elm və innovasiyalar üzrə prorektoru Aqil Şirinov erməni vəhşiliklərini tarixi nöqteyi-nəzərdən təhlil edib. Bildirib ki, tarix boyu ermənilər türk-müsəlman əhalisinə qarşı düşmən münasibətində olublar. O qeyd edib ki, Xocalıda baş vermiş qətliam təsadüf deyil, məhz planlı və düşünülmüş şəkildə həyata keçirilib. "Soyqırımı" sözünün mənasını açıqlayan prorektor bildirib ki, bu prosesin hər hansı ölkənin hökuməti tərəfindən həyata keçirilməsi əsas şərt olaraq qəbul edilir. Soyqırımının beynəlxalq səviyyədə qəbul edilmiş tərifi onu deməyə əsas verir ki, Xocalı hadisələri Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı aktıdır. Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar və qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir, belə hadisələrin yolverilməz olduğunu bildirir.

"29 Mayıs" Universitetinin Himayəçilər Şurasının sədri Təyyar Altıkulaç bildirib ki, ötən əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Onun sözlərinə görə, bu faciə heç vaxt unudulmamalı, cinayət cəzasız qalmamalıdır.

"Erməni təcavüzünün tanıdılması" İctimai Birliyinin sədri, Qarabağ veteranı, jurnalist Səriyyə Cəfərova tədbirdə çıxış edərək faciənin ictimaiyyətə, sosial və siyasi aspektinin mahiyyətinin gənclərə çatdırılması üçün Xocalıda qətlə yetirilmiş 63 uşaqdan bəhs edən, 4 dildə nəşr olunan "Onlar heç vaxt böyüməyəcəklər" kitabının çap olunduğunu söyləyib: "Xocalını, xocalılı günlərimi heç vaxt unutmuram. İlk dəfə əlimə qələm alıb qəzetçilik fəaliyyəti ilə məşğul olandan bugünədək Xocalıdan, onun başına gətirilən müsibətlərdən, böyüklü-kiçikli şəhid olmuş günahsız insanlardan, igid oğul və qızlardan yazıram. Gücüm çatdıqca, əlim yetdikcə bu qətliamı dünyaya tanıtmaq üçün çalışıram".

Tədbirdə "Xocalı zülmət bir gecə" sənədli filminin də nümayişi olub. Filmdə Xocalı soyqırımının canlı şahidləri həmin faciəli gündən danışırlar.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Bakı Ali Neft Məktəbində "Qadınlar və mühəndislik" mövzusu müzakirə olunub

Bakı Ali Neft Məktəbinin mətbuat xidmətindən verilən məlumata görə, BANM-da "Wing" - Qadınlar Mühəndislikdə Hərəkatı və BANM-in birgə təşkilatçılığı ilə "İnteqrasiya Olunmuş Mentorluq" proqramının təqdimat mərasimi keçirilib. Mərasimdə Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və "Wing"-in rəhbəri Vüsalə Kazımova çıxış ediblər.







Tədbirdə həmçinin "Qadınlar və mühəndislik" mövzusunda mütəxəssislərlə panel müzakirələri aparılıb.

Tədbiri giriş sözü ilə açan Vüsalə Kazımova STEM və kompüter elmləri peşələri üzrə qızların az bir qisminin karyera qurmaq arzusunda olduqlarını bildirib. O, "Wing" - Qadınlar Mühəndislikdə Hərəkatının ilk layihələrindən olan "İnteqrasiya Olunmuş Mentorluq" proqramı çərçivəsində məktəbli və tələbə qızların mühəndislik sahələrində fəaliyyət göstərən nüfuzlu şirkətlərin mühəndisləri ilə zəncirvari "öyrən-öyrət" prinsipi əsasında yeni formatda əməkdaşlıq əlaqələrinin qurulacağını qeyd edib.

V.Kazımova qadın kadr potensialının hazırlanması işində ölkəmizdə həyata keçirilən mühüm səylərə öz töhfələrini verəcəklərini vurğulayıb.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov tədbirin faydalı təcrübə mübadiləsi və qadınların mühəndislik peşələrinə həvəsləndirilməsi baxımından əhəmiyyətindən söz açıb. O, qızların bu sahəyə ildən-ilə marağının artdığını, BANM-də ən yüksək bal toplayan və Prezident təqaüdünə layiq görülən tələbələr arasında qızların xüsusi çəkiyə malik olduğunu qeyd edib.

"STEM Education Azerbaijan"-nın təsisçisi Ceyhun Cabbarov, Təhsil İnstitutunun əməkdaşı, "STEAM Azərbaycan"-ın layihə rəhbəri İqrar Nəzərov, BP-nin Qrup rəhbəri Nigar Cəlilova, "Engineering For Kids Azerbaijan"-nın texniki direktoru Mario Caicedo, BMT-nin İnkişaf Proqramının araşdırmalar üzrə müdiri Leyla Seyidzadə, innovasiya texnologiyaları və prosesləri üzrə ekspert Şəbnəm Məmmədova panel sessiyalarında çıxış ediblər. Panel müzakirələrdə qızlar və oğlanların fərqli fənn sahələrinə marağının təşviq edilməsi və seçimlərin formalaşmasında sosial amillərin böyük rol oynadığı bildirilib. Təhsil siyasətinin qızların özünəinamını gücləndirməsi və mühəndis olmaq üçün zəruri bacarıqlarını inkişaf etdirməsinə yönəlməsinin vacibliyinə toxunulub.

Tədbirə qatılan məktəb direktorları, müəllimlər və müxtəlif ali təhsil müəssisələrini təmsil edən tələbələr müzakirələrdə fəal iştirak ediblər.

### 21 fevral Beynəlxalq ana dili günüdür

# Milli varlığımızın ifadəsi

Dil insanın mənəvi aləminin əks-sədasıdır. Ulu Tanrının insana bəxş etdiyi ən ecazkar və qüdrətli nemətdir. Dil hər bir millətin, xalqın varlığı deməkdir. Dünyada yüzlərlə dil mövcuddur. Bu dillərin sırasında ana dilimiz olan Azərbaycan dili bizim üçün çox doğma və möhtəşəmdir. Dilçi ekspertlərin fikrincə, qürurverici məqam ondadır ki, Azərbaycan dili zənginliyinə görə digər dillərdən fərqlənir. Ümummilli Lider Heydər Əliyev Azərbaycan dilini yüksək qiymətləndirərək demişdir: "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini, Azərbaycan dilini və dövlət dilini mükəmməl bilməlidir". Bu o zaman idi ki, əcnəbi dillərə meyilli olan insanlar ana dilində danışmaq belə istəmirdilər. Hətta Azərbaycanın rəsmi dairələrində, dövlət idarələrində özgə dildə danışmağa üstünlük verilirdi. Quruluşun ikili münasibətləri nəticəsində bir sıra məmurlar arasında doğma dilimizə qarşı ögey münasibət yaranmışdı. Zamanından asılı olmayaraq bütün ziddiyyətli dövrlərdə Azərbaycan ziyalıları, ilk növbədə Ümummilli Lider Heydər Əliyev, eləcə də yazıçı və şairlərimiz ana dilimizin keşikçisi olmaq missiyasını ləyaqətlə yerinə yetirmişlər. Ulu Öndərin çıxışlarında, ictimaiyyət nümayəndələri ilə görüşlərində ana dilimizin gözəlliyindən, zənginliyindən məharətlə istifadə edərək səlis və rəvan danışması hamıya yaxşı məlumdur. Tərifində də, tənqidində də elə ifadələr, elə sözlər işlədərdi ki, bəzən ən təcrübəli dilşünas-alim də Heydər Əliyevin yaddaşına, sözdən istifadə məharətinə, Azərbaycan dilinə ədəbi yanaşma qabiliyyətinə heyrətlənməyə bilmirdi.

Zaman-zaman inkişaf edib zənginləşən Azərbaycan dilinin statusunun özünə qaytarılması Azərbaycan dilçiliyi tarixində birmənalı olaraq Ümummilli Lider Heydər Əliyevə məxsusdur. Böyük dövlətçilik təcrübəsinə malik Heydər Əliyev hələ Sovet İttifaqı dövründə, mərkəzin ciddi müqavimətinə baxmayaraq, respublikamızda Azərbaycan dilinin dövlət dili statusunun 1978-ci il Konstitusiyasında əks olunmasına nail ola bilmişdi. Azərbaycan dilinin müstəqil Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsində təsbit edilmiş dövlət dili statusu tam əməli xarakter daşıyır və ana dilimizin ən yüksək ictimai dəyərini təmin edir.

Konstitusiyanın qəbulundan keçən illər ərzində dil siyasətinin ayrı-ayrı konkret cəhətlərinə dönə-dönə qayıdılması, ana dilimizin statusunun təminatı və tətbiqinin təkmilləşdirilməsi, bu sahədə müxtəlif qanunların qəbulu, fərman və sərəncamların verilməsi dövlətimizin ana dilimizə nə qədər ciddi yanaşdığını sübut edir. Belə hüquqi sənədlərdən biri də Ulu Öndərin 2001-ci il 9 avqust tarixli "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanıdır. Bu tarixi sənəd beynəlxalq aləmdə Azərbaycan dilinin mövcudluğuna yeni nəfəs və yüksəliş verdi. Bundan sonra nəinki respublikamızda, hətta xarici ölkələrdə yaşayan, işləyən, habelə müxtəlif ali məktəblərdə təhsil alan gənclər tərəfindən hər il 1 avqust - Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi böyük təntənə ilə qeyd edilir. Onu da vurğulamaq yerinə düşər ki, Ümummilli Liderin rəhbərliyi ilə hazırlanmış və 2002-ci il sentyabrın 30-da qüvvəyə minmiş "Dövlət dili haqqında" qanun Azərbaycan dilinin düzgün şəkildə tətbiqi və inkişafı istiqamətində tədbir görülməsində ən əhəmiyyətli sənədlərdən biridir.

Ulu Öndərə məxsus bir fikir bu gün də bizim hər birimiz üçün istiqamətverici məna daşıyır: "...Musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz, Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar da olmaz, musiqi də olmaz".

Ölkəmiz öz tarixi müstəqilliyinin bərpasına nail olduqdan sonra Azərbaycan dili xalqımızın ictimai-siyası həyatında dövlətin rəsmi dili kimi müstəsna əhəmiyyət kəsb etməyə başlamışdır. Azərbaycan dilinin dövlət dili kimi əbədiliyinə hüquqi zəmin yaradılmış, dilimizin fəaliyyət coğrafiyası daha da genişlənmiş, onun müxtəlif üslubları elmi araşdırmalarla dünya ictimaiyyətinə çatdırılmış, bütünlükdə dil mədəniyyətimiz qarşısında yeni üfüqlər açılmışdır.

Dilşünas alimlərimiz bildirirlər ki, Ulu Öndər Heydər Əliyev ömrü boyu Azərbaycan dilinə məhz millətin taleyi kimi yanaşmış, onu sevməklə bərabər keşiyində də mərdliklə dayanmış, nüfuzunu qaldırmış, varlığı və tərəqqisi üçün illərlə mübarizə aparmış və haqqa söykənən istəyinə nail olmuşdur.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan dilinin inkişafı missiyasını uğurla davam etdirən Prezident İlham Əliyev müasir dövrdə dilimizə və dilçiliyimizə böyük diqqətlə yanaşır. 2012-ci il 23 may tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələbinə uyğun istifadəsi və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" sərəncamı Azərbaycan dilinə olan böyük diqqətin bariz nümunəsidir. 2013-2020-ci illəri əhatə edən bu proqram çərçivəsində bir sıra zəruri tədbirlər həyata keçirilmişdir. Ölkə rəhbərinin 13 noyabr 2017-ci il tarixli sərəncamı isə dövlət dilimizin inkişaf perspektivlərinin müəyyənləşdirilməsinə xidmət edir. Sənəddə deyilir: "Qədim tarixi keçmişin izlərini özündə yaşadan və milyonlarla azərbaycanlının ünsiyyət vasitəsi olan Azərbaycan dili xalqımızın misilsiz mənəvi sərvəti, milli varlığımızın və dövlət müstəqilliyimizin başlıca rəmzlərindəndir. Ən dərin fikirləri və ən incə çalarlarınadək ifadə qüdrətinə malik dilimiz öz kamilliyi və zənginliyinə görə dünya dilləri içərisində layiqli yeri bu gün də qoruyub saxlayır".

Dövlət dilinin həyatın hər bir sahəsində qeyd-şərtsiz işləkliyinin genişləndirilməsini və sağlığının qorunmasını nəzərdə tutan bu sənədlər ölkəmizdə dövlət dilinin tətbiqinin normativ-hüquqi əsaslarını və icra mexanizmini tam müəyyən etmişdir. Bütün bunlar Azərbaycan dilinə məhz dövlətçiliyin əsas atributlarından biri kimi yanaşmanın bariz nümunəsi, dövlətin yüksək diqqət və qayğısının təzahürüdür.

Qloballaşma proseslərinin geniş vüsət aldığı müasir dövrdə texnoloji yeniliklərin insanlar tərəfindən sürətlə mənimsənilməsi, habelə maneəsiz informasiya mübadiləsi imkanlarının artması ana dilimizin potensial imkanlarından lazımınca istifadəsində müəyyən çətinliklər yaratmaqdadır. Mövcud şərait milli ideya - azərbaycançılıq məfkurəsi işığında milli varlığımızın ifadəsi olan Azərbaycan dilinin saflığının qorunması, istər danışıq, istərsə də ədəbi-bədii yazılarda dildən düzgün istifadə daim diqqət mərkəzində saxlanılmalıdır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Azərbaycan meşə yanğınlarının fəsadlarının aradan qaldırılması məqsədilə Avstraliyaya humanitar yardım edib

Avstraliya İttifaqında 2019-cu ilin sonlarından tüğyan edən irimiqyaslı meşə yanğınlarının ağır fəsadlarının aradan qaldırılmasına köməklik göstərmək məqsədilə Azərbaycan Respublikasının Prezidentinin tapşırığı ilə Nazirlər Kabinetinin müvafiq Sərəncamına əsasən, 50 min ABŞ dolları məbləğində humanitar yardım ayrılıb.

Bununla əlaqədar olaraq, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AİDA) direktoru Seymur Fətəliyev maliyyə töhfəsinə dair sertifikatı Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruzəli Aslanova təqdim edib. Sözügedən vəsait Azərbaycan Qızıl Aypara Cəmiyyəti vasitəsilə Avstraliya Qırmızı Xaç Cəmiyyətinə ianə edilib.

Qeyd edək ki, xarici kütləvi informasiya vasitələri tərəfindən Avstraliyanın əsasən cənub-şərq sahillərində baş vermiş yanğınların nəticəsində 25 nəfərin həyatını itirdiyi, 2000-ə yaxın evin və 8 milyon hektardan artıq ərazinin yandığı, yüz milyonlarla heyvanın tələf olduğu bildirilir.




# İndoneziyada Xocalı soyqırımına həsr olunmuş poçt markaları buraxılıb

Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar silsilə tədbirlərin tərkib hissəsi olaraq Azərbaycanın İndoneziyadakı səfirliyinin təşəbbüsü ilə "İndoneziya Poçt" dövlət şirkəti tərəfindən poçt markaları nəşr edilib.

AZƏRTAC xəbər verir ki, nəşr edilən poçt markasının üzərində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüskarı olduğu "Xocalıya ədalət!" kampaniyasının loqosu olan badam çiçəyi təsvir olunub və kampaniyanın veb-ünvanı qeyd edilib.

Kampaniyanın veb-ünvanının markada qeyd olunması Xocalı soyqırımı və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı İndoneziya əhalisi arasında maarifləndirmənin artırılması məqsədini daşıyır.

"İndoneziya Poçt" dövlət şirkəti tərəfindən verilən məlumata əsasən, fevralın ortalarında mərkəzi və regional poçt şöbələrində dövriyyəyə buraxılan markaya indoneziyalı filatelistlər tərəfindən böyük maraq müşahidə olunur.

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Göygöl rayon şöbəsinin yeni binası istifadəyə verilib







Fevralın 20-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Göygöl rayon şöbəsinin inzibati binasının açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən SHXÇDX-nin rəisi, general-leytenant Arzu Rəhimov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində qazanılmış nailiyyətlərdən söz açıb. Hərbi sahədə həyata keçirilən islahatların tərkib hissəsi kimi yaradılmış Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin qarşısına qoyulmuş vəzifə və tapşırıqların ötən səkkiz il ərzində yüksək səviyyədə yerinə yetirildiyini ifadə edib.

Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Arif Seyidov bildirib ki, Prezident İlham Əliyevin ali diqqət və qayğısı sayəsində dövlət orqanlarının maddi-texniki bazasının, əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, xidmət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür. Xidmətin rayon şöbəsinin yeni inzibati binasının istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır.

Sonra tədbir iştirakçıları yeni binanın xüsusi avadanlıq və kompüter sistemi ilə təchiz edilmiş xidməti otaqlarında yaradılmış şəraitlə tanış olublar.

Bildirilib ki, rayon hərbi həkim komissiyası üçün kabinetlər də daxil olmaqla 39 iş otağından, xidməti müşavirə otağından və iclas zalından ibarət üçmərtəbəli binanın ümumi sahəsi 1750 kvadratmetrdir. Binanın bütün otaqları zəruri avadanlıq və inventarla təchiz edilib, yardımçı otaqlar istifadəyə verilib. Binada havalandırma, mərkəzi istilik sistemi, qazanxana, rabitə-kommunikasiya və elektrik xətləri quraşdırılıb. Ərazi abadlaşdırılıb, yaşıllaşdırma və xarici işıqlandırma işləri yerinə yetirilib. İstifadəyə verilən yeni inzibati bina memarlıq üslubu ilə rayonun gözəlliyinə xüsusi rəng qatır.

# Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yeni binada fəaliyyətə başlaması ilə bağlı tədbir keçirilib



Fevralın 20-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) yeni binada fəaliyyətə başlaması ilə bağlı tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, BBMM-in Himayəçilər Şurasının sədri, akademik Kamal Abdullayev, rəsmi dövlət qurumlarının rəhbərləri və nümayəndələri, həmçinin dini və milli icmaların rəhbərləri iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları binada yaradılan şəraitlə tanış olublar.

Daha sonra X Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçılarının BBMM-in Himayəçilər Şurasının üzvləri və mərkəzin kollektivi ilə görüşü keçirilib.

Görüşdə çıxış edən Kamal Abdullayev qeyd edib ki, Azərbaycanda multikultural mühitin qorunması və inkişafı istiqamətində ardıcıl və məqsədyönlü addımlar atılır. Ölkəmizdə multikulturalizm dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. O deyib: "Azərbaycan multikulturalizmi keşməkeşli uzun illərdən keçib gəlsə də, Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti illərində multikulturalizmin siyasi əsası qoyulub. Multikultural dəyərlər, Azərbaycanda yaşayan xalqların dillərinin, ədəbiyyatlarının inkişaf etdirilməsi, öz ana dillərində təhsilalma hüquqları rəsmi sənədlərdə öz əksini tapıb. Əsası Ulu Öndər tərəfindən qoyulan multikultural siyasət bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan multikulturalizmi Avropanın universitetlərində tədris olunur. Həmin universitetlərdə Azərbaycan ədəbiyyatı, mədəniyyəti, Azərbaycan dəyərləri, yəni Azərbaycan həqiqətləri tədris olunur". Qeyd olunub ki, Heydər Əliyev Fondu tərəfindən müxtəlif ölkələrdə, o cümlədən İtaliyada multikulturalizm sahəsində önəmli tədbirlər görülüb.

Azərbaycanlı və xarici tələbələr arasında sıx əlaqələrin və səmimi dostluq münasibətlərinin qurulması istiqamətində mühüm addımların atıldığını deyən Kamal Abdullayev bildirib ki, ildə iki dəfə təşkil olunan qış və yay məktəblərinin məqsədi Azərbaycan multikulturalizmini xarici universitetlərdə öyrənən tələbələrin nəzəri şəkildə öyrəndiklərini multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə öz gözləri ilə görüb şahid olmasına şərait yaratmaqdır.

Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdir müavini Məhərrəm Əhmədov qeyd edib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi din siyasətinin prioritet istiqamətlərindən biri məhz tolerantlıqla bağlıdır. Xalqımızın minilliklər ərzində formalaşmış tolerantlıq ənənələrini qoruyub saxlamaq, inkişaf etdirmək, yerli və beynəlxalq səviyyədə təşviq və təbliğ etmək dövlətin din siyasətinin əsas hədəfləri sırasındadır. Qış məktəbinin də artıq ənənə halını alması bu siyasətin tərkib hissəsidir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, multikulturalizm Azərbaycanın dövlət siyasəti, xalqımızın həyat tərzidir. Azərbaycan dövləti özünün multikultural siyasətini, tolerant mövqeyini daim qoruyur və inkişaf etdirir. Onun sözlərinə görə, Azərbaycanda multikultural həyat tərzinin qədim tarixi və böyük ənənələri var. Ən qədim zamanlardan ölkəmizdə müxtəlif xalqların nümayəndələri arasında dərin dostluq və qarşılıqlı əməkdaşlıq mühiti formalaşıb.

Sonra BBMM-in müşaviri Aytən Qəhrəmanova X Beynəlxalq Multikulturalizm Qış Məktəbinin fəaliyyəti ilə bağlı təbrik məktublarını tədbir iştirakçılarının diqqətinə çatdırıb.

BBMM-in icraçı direktoru Rəvan Həsənov qış və yay məktəblərinin təşkili layihəsinin dünyada sülhün möhkəmlənməsinə töhfə verdiyini bildirib. R.Həsənov əlavə edib ki, burada iştirak edən hər bir gənc ölkəsində Azərbaycanla bağlı təəssüratlarını bölüşəcək. Bunun nəticəsində Azərbaycana gəzmək və təhsil almaq üçün gələn gənclərin sayı daha da artacaq.

Daha sonra Himayəçilər Şurasının digər üzvləri çıxış edərək Qış məktəbinin önəmindən bəhs ediblər.

Sonda Ziya Şıxlınskinin "Azərbaycan motivləri" sənədli filmi nümayiş etdirilib.

# Azərbaycan Respublikası Təhsil Nazirliyi tabeliyində olan təhsil müəssisələrində mövcud qanunvericiliyə uyğun dövlət təminatındakı təhsilalanların 2020-ci ilin may-dekabr ayları ərzində yeməklə təchizatı ilə bağlı xidmətlərin satın alınması məqsədilə

## *açıq tender elan edir*

Azərbaycan Respublikası Təhsil Nazirliyi tabeliyində olan təhsil müəssisələrində mövcud qanunvericiliyə uyğun dövlət təminatındakı təhsilalanların 2020-ci ilin may-dekabr ayları ərzində yeməklə təchizatı ilə bağlı xidmətlərin satın alınması məqsədi ilə açıq tenderdə iştirak etməyə dəvət edir.

Təhsilalanların yeməklə təchizatı ilə bağlı xidmətlər adları və ünvanları aşağıda göstərilən 51 təhsil müəssisəsini əhatə edəcəkdir:

| Sıra N-si | Təhsil müəssisəsinin adı | Yerləşdiyi ünvan | Uşaqların yaş qrupları |
|---|---|---|---|
| 1 | Fizika-Riyaziyyat və İnformatika Təmayüllü Lisey | Bakı şəhəri, S.Dadaşov küç, 555-ci məhəllə | 7- 17 |
| 2 | S.C.Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyası | Bakı şəhəri, F.Yusifov, 39 | 7- 17 |
| 3 | Kimya-Biologiya Təmayüllü Respublika Liseyi | Bakı şəhəri, Ş.Mirzəyev küç, 53 | 7- 17 |
| 4 | Azərbaycan Milli Konservatoriyasının nəzdində İncəsənət Gimnaziyası | Bakı şəhəri, H.Cavid pros., 506-cı məhəllə | 7- 17 |
| 5 | S.Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziya | Bakı şəhəri, Qaraçuxur qəsəbəsi, C.Qurbanov, 1 | 7- 17 |
| 6 | A.S.Makarenko adına Humanitar Fənlər Təmayüllü Respublika İnternat Tipli Gimnaziya | Bakı şəhəri, "Şimal" DRES qəs., L.Starçuk küçəsi, ev 1 | 7- 17 |
| 7 | 10 nömrəli Sanatoriya Tipli İnternat Məktəbi | Bakı şəhəri, Sabunçurayonu, Pirşağaqəsəbəsi, Hüseynbala Əliyev küç., 18A | 7- 17 |
| 8 | 8 nömrəli Sanatoriya Tipli İnternat Məktəbi | Bakı şəhəri, Buzovna qəsəbəsi, R.Axundov küçəsi, 1 | 7- 17 |
| 9 | Valideyn Himayəsindən Məhrum Olmuş Uşaqlar üçün 1 nömrəli Tam Orta İnternat Məktəbi | Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsi, Nizami küçəsi, 25 | 7- 17 |
| 10 | Valideyn Himayəsindən Məhrum Olmuş Uşaqlar üçün 2 nömrəli Ümumi Orta İnternat Məktəbi | Bakı şəhəri, Xəzərrayonu, Mərdəkan qəsəbəsi, Şərq küçəsi, 29 | 7- 17 |
| 11 | Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 2 nömrəli Xüsusi İnternat Məktəbi | Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, H.Məmmədov küçəsi, 56 | 7- 17 |
| 12 | Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 3 nömrəli Respublika Xüsusi İnternat Məktəbi | Bakı şəhəri, Nizami rayonu, M.Şərifli küçəsi, 3 | 7- 17 |
| 13 | Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 4 nömrəli Respublika Xüsusi İnternat Məktəbi | Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, H.Məmmədov küçəsi, 35 | 4 - 6, 7- 17 |
| 14 | Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 5 nömrəli Respublika Xüsusi İnternat Məktəbi | Bakı şəhəri Nərimanov rayonu, Fətəli Xan Xoyski prospekti, 77 | 7- 17 |
| 15 | E.Mirzəyev adına Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 6 nömrəli Respublika Xüsusi İnternat Məktəbi | Bakışəhəri, Xəzərrayonu, Türkan qəsəbəsi, Dənizkənarı küçəsi, 1 | 7- 17 |
| 16 | E.Quliyev adına Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 9 nömrəli Xüsusi İnternat Məktəbi | Bakışəhəri, Qaradağ rayonu, Sahil qəs., E.Quliyev küç., 24 | 7-17 |
| 17 | 11 nömrəli İnteqrasiya təlimli internat məktəbi | Bakı şəhəri, Sabunçu rayonu, Bilgəh qəsəbəsi, Ü.Hacıbəyov küçəsi,12 | 4 - 6, 7- 17 |
| 18 | Nizami rayonu 3 nömrəli Xüsusi Ümumtəhsil Məktəbi | Bakı şəhəri, Nizami rayonu, Şərifli küç. 3 | 7-17 |
| 19 | Nəsimi rayonu 11 nömrəli Xüsusi Təhsil Məktəbi | Bakı şəhəri, Nəsimi rayonu, Salatın Əsgərova, 138 | 7-17 |
| 20 | Nəsimi rayonu 268 nömrəli Xüsusi Təhsil Məktəbi | Bakı şəhəri, Nəsimi rayonu, Süleyman Rüstəm, 38 | 7-17 |
| 21 | Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 12 nömrəli Xüsusi İnternat Məktəbi | Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, A.İldırım küçəsi, 43A | 7-17 |
| 22 | Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün Reabilitasiya Mərkəzi | Bakı şəhəri, Sabunçu rayonu, Bilgəh qəsəbəsi, 20-ci Qurultay küçəsi 3 | 4 - 6, 7- 17 |
| 23 | Sumqayıt şəhər İnternat Tipli Gimnaziya | Sumqayıt şəhəri, Mehdi Hüseynzadə küçəsi, 6 | 7-17 |
| 24 | Sumqayıt şəhəri general M.Əsədov adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Sumqayıtşəhəri, 9-cu mikrorayon, ev 11v | 7-17 |
| 25 | Sumqayıt şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Sumqayıt şəhəri, 5-ci mikrorayon, C.Məmmədquluzadə küç. | 7-17 |
| 26 | Gəncə şəhər İnternat Tipli Xarici Dillər Təmayüllü Gimnaziya | Gəncə şəhəri, Bağbanlar küçəsi,18 | 7-17 |
| 27 | Gəncə şəhər Paşa Hüseynov adına Futbol Təmayüllü İnternat Tipli Gimnaziya | Gəncə şəhəri, Heydər Əliyev prospekti, 694 | 7-17 |
| 28 | Gəncə şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Gəncə şəhəri, Nizami küçəsi, 511 | 7-17 |
| 29 | Goranboy şəhər R.Ağakişiyev adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Goranboy şəhəri, M.Məhərrəmov küçəsi, 23 | 7-17 |
| 30 | Şəki şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Şəki şəhəri, M.F.Axundov prospekti, 164 | 7-17 |
| 31 | Mingəçevir şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Mingəçevir şəhəri, Ü.Hacıbəyov küçəsi, 1 | 7-17 |
| 32 | Balakən rayonu İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Balakən şəhəri, Heydər Əliyev prospekti, 71 | 7-17 |
| 33 | Salyan şəhər A.Səfərov adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Salyan şəhəri, H.Z.Tağıyev küçəsi, 62 | 7-17 |
| 34 | Siyəzən şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Siyəzən şəhəri, Tofiq İsmayılov küçəsi, 2 | 7-17 |
| 35 | Neftçala şəhər M.Səfərov adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Neftçala şəhəri, Ü.Hacıbəyov küçəsi | 7-17 |
| 36 | Lerik şəhər V.İbrahimov adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Lerikrayonu, A.Əsədullayev küçəsi, 9 | 7-17 |
| 37 | Zaqatala şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Zaqatala şəhəri, Saleh Qocayev küçəsi, 1a | 7-17 |
| 38 | Bərdə şəhər R.N.Musayev adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Bərdə şəhəri, M.Müşfiq küçəsi, 3 | 7-17 |
| 39 | Göyçay şəhər S.Vurğun adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Göyçay şəhəri, R.Rza küçəsi, 130 | 7-17 |
| 40 | Tovuz rayonu Qovlar şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Tovuz rayonu, Qovlar şəhəri, Vağzal küçəsi, 71 | 7-17 |
| 41 | Lənkəran şəhər Xarici Dillər Təmayüllü Gimnaziya | Lənkəran şəhəri, Z.Əliyeva küçəsi, 94 | 7-17 |
| 42 | Lənkəran şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Lənkəranşəhəri, Füzuli küçəsi, 125 | 7-17 |
| 43 | Şamaxı Texniki, Humanitar və Təbiət Fənləri Təmayüllü İnternat Tipli Lisey | Şamaxı şəhəri, M.Ə.Rəsulzadə küç., 25 | 7-17 |
| 44 | Ağdaş Şəhər M.Şeyxzadə adına İnternat Tipli Texniki, Humanitar və Təbiət fənləri Təmayüllü Gimnaziya | Ağdaş şəhəri, H.Əliyev prospekti, 98 | 7-17 |
| 45 | Füzuli rayon M.Xəzani adına Musiqi Təmayüllü İnternat Tipli Gimnaziya | Füzulurayonu, Əhmədbəyli kəndi | 7-17 |
| 46 | K.Ağayev adına Biləsuvar şəhər Texniki Fənlər Təmayüllü İnternat Tipli Məktəb Lisey | Biləsuvar şəhəri, M.İbrahimov küçəsi, 1 | 7-17 |
| 47 | Quba şəhər Valideyn Himayəsindən Məhrum Olmuş Uşaqlar üçün Tam Orta İnternat Məktəbi | Qubarayonu, Zərdabi | 7-17 |
| 48 | Rüfət Kəlbiyev adına Xınalıq Kənd İnternat Tam Orta Məktəbi | Qubarayonu, Xınalıqkəndi | 7-17 |
| 49 | Mingəçevir şəhəri "Uşaq və Ailəyə Dəstək" Mərkəzi | Mingəçevir şəhəri, N.Nərimanov prospekti, 119 | 4 - 6, 7- 17 |
| 50 | Quba Peşə Liseyi | Quba şəhəri, C.Hacinski küçəsi, 1 | 7-17 |
| 51 | Quba Xüsusi Peşə Məktəbi | Quba şəhəri, Y.Qasımov küçəsi, 1 | 7-17 |

Yuxarıda adları çəkilən təhsil müəssisələrində mövcud qanunvericiliyə uyğun dövlət təminatındakı təhsilalanların yeməklə təchizatı müvafiq yaş qruplarının hər biri üzrə hazırlanmış 14 sayda gündəlik menyulara uyğun sıra ardıcıllığı gözlənilməklə həyata keçirilməlidir.

Tender təkliflərinin qiymətləndirilməsi iddiaçıların təhsil müəssisələrində təhsilalanların yeməklə təchizatı üzrə xidmətlərin keyfiyyətli və standartlara uyğun olaraq yerinə yetirilməsinə təminat kimi, aidiyyəti sənədləri (sertifikat və sair) təqdim etdiyinə, bu sahədə təcrübəsinə və ixtisaslaşmış kadrlarının olmasına, maddi-texniki bazasının vəziyyətinə, maliyyə imkanlarına, etibarlılığına, tenderə təqdim olunmuş sənədlərinin tamlığına, həmçinin tender təklifinin qiymətinə görə bal sistemi ilə həyata keçiriləcəkdir.

Tenderdə iştirak etmək istəyənlər Azərbaycan Respublikası Təhsil Nazirliyinə

VÖEN: 1500046011

DXA

VÖEN: 1401555071

Kod 210005

Müxbir hesabı: AZ41NABZ01360100000000003944

S.W.I.F.T. CTREAZ22

Hesab №: AZ30CTRE00000000000002168501

Fond 7

Büdcə gəlirlərinin təsnifatı 142330 sair daxil olmalar

1000 (bir min) manat məbləğdə iştirak haqqını ödədikdən sonra tenderin əsas şərtlər toplusunu Tender Komissiyasının əlaqələndiricisi İradə Mirzəhmədovadan ala bilərlər (Bakı, Xətai prospekti 49, 324-cü otaq, telefon: (012) 599-11-55, daxili 5249, elektron ünvan: irada.mirzahmadova@edu.gov.az).

Əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İştirakçılar tender təklifləri istisna olmaqla ixtisas uyğunluğu barədə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə və ya məktub). Müraciətdə iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri barədə məlumatlar öz əksini tapmalıdır;
- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
- hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin və nizamnaməsinin notarial qaydada 2020-ci ildə təsdiq olunmuş surəti;
- tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış.
- iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
- son bir ildə maliyyə vəziyyətini əks etdirən bəyannamənin surəti;
- son iki ildə təhsil müəssisələrində mövcud qanunvericiliyə uyğun dövlət təminatında olan təhsilalanların yeməklə təchizatı sahəsində fəaliyyəti barədə (yeməklə təchiz olunmuş təşkilatların siyahısı göstərilməklə) ətraflı məlumat;
- maddi-texniki bazası və kadr potensialı haqqında ətraflı məlumat (məlumatda təhsilalanların yeməklə təchizatı ilə bağlı xidmətlərin görülməsi üçün potensial imkanları (şəbəkə) öz əksini tapmalıdır);
- xidmətlərin göstərilməsi zamanı ictimai iaşə sistemində qida təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə Beynəlxalq Standartlaşdırma Təşkilatı tərəfindən qəbul olunmuş ISO 22000:2005 (HACCP sistemi) beynəlxalq statuslu standartlara (prinsiplərə) riayət edilməsi, bununla əlaqədar müvafiq sertifikatın mövcudluğu haqqında geniş məlumat (sertifikat olduğu halda təqdim edilməklə);
- SƏTƏM (Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Ətraf Mühit) siyasətinə riayət olunması barədə məlumat;
- beynəlxalq standartlaşdırma təşkilatları tərəfindən qəbul olunmuş qida məhsullarının təhlükəsizliyinin idarəetmə sistemlərinə dair proqramlar üzrə təlim keçən işçilər barədə məlumat (arayış);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı barədə məlumat;
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyətinin dayandırılmaması haqqında məlumat;
- müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə;
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat;
- subpodratçı qismində başqa müəssisələrdən istifadə olunub-olunmayacağı barədə məlumat. Əgər istifadə olunacaqsa həmin müəssisə ilə tender iştirakçısı arasında bağlanılmış niyyət protokolunun və ya digər hüquqi sənədin surəti. Submüqavilənin bağlanılması və onlarda hər hansı bir dəyişikliyin edilməsi satınalan təşkilatın yazılı razılığı ilə olmalıdır.

Göstərilən sənədlər (tender təklifləri istisna olmaqla) tələb olunan qaydada hazırlanıb, 2020-ci il martın 30-dək tender komissiyasına təqdim olunarsa, həmin iştirakçılar iddiaçı kimi qeydə alınacaqlar.

İddiaçılar tender təkliflərini (təklifin təqdimat vərəqəsi, qiymət təklifi və təklifin bank təminatı) tenderin əsas şərtlər toplusunun tələblərinə uyğun olaraq hazırlayaraq ikiqat bağlı zərfdə 14 aprel 2020-ci il saat 17:00-a kimi Tender komissiyasına təqdim etməlidirlər. Təklif zərflərinin bağlanan hissəsi iddiaçı tərəfindən imzalanıb möhürlənməli, satınalan təşkilatın, iddiaçının adı və ünvanı qeyd olunmalıdır. Təkliflər zərflər açıldığı gündən sonra 60 bank günü qüvvədə olmalıdır.

İddiaçılar tender təklifləri ilə birlikdə təklifin 1 faizi həcmində, tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olan (90 bank günü) bank təminatını təqdim etməlidirlər. Satınalan təşkilatın müəyyən etdiyi vaxtdan sonra təqdim olunan tender təklifləri açılmadan malgöndərənə (podratçıya) qaytarılır və onun tenderdə iştirakına yol verilmir.

Açıq tender proseduru 15 aprel 2020-ci il saat 12:00-da iddiaçıların və ya onların səlahiyyətli nümayəndələrinin iştirakı ilə Təhsil Nazirliyinin iclas zalında (Bakı şəhəri, Xətai prospekti, 49) keçiriləcəkdir.

Üçdən az təklif daxil olan tender baş tutmamış elan edilir, həmin tenderin davamından imtina edilir.

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçirilir. Tenderin prosedur qaydaları, təkliflərin təqdim edilməsi və təkliflərin qiymətləndirilməsi və müqayisəsi Əsas şərtlər toplusunda öz əksini tapır. İddiaçı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu, Əsas şərtlər toplusunun məzmunu, o cümlədən iştirakçılar üçün təlimatlar, tender sənədlərinin formaları, müqavilə şərtləri, texniki şərtlər və s. ilə tanış olmalıdır. İddiaçının bu sənədlər və tender təklifi haqqında tam təsəvvürü, məlumatı olmaması və Əsas şərtlər toplusunun tələblərinə uyğun gəlməyən təklif verməsi onun tender təklifinin kənarlaşdırılması ilə nəticələnə bilər. Tender təkliflərini qiymətləndirərkən və müqayisə edərkən tenderin Əsas şərtlər toplusunda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli mallar (işlər və xidmətlər) üzrə tender təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni malların (işlər və xidmətlərin) təklif edilən qiymətinin 20 faizi həcmində güzəştli düzəliş tətbiq edilir.

***Tender komissiyası***

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbərliyi Gəncə və Goranboyda vətəndaşları qəbul edib

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi, general-leytenant Arzu Rəhimov fevralın 20-də Gəncədə Göygöl, Daşkəsən, Samux, Kəlbəcər rayonlarından və Gəncə şəhərindən olan vətəndaşların qəbulunu həyata keçirib.

Qəbul zamanı hər bir vətəndaşın müraciət və təklifi diqqətlə dinlənilib.

Elə həmin gün xidmət rəisinin müavini, general-mayor Mayıl Şahverdiyev Goranboyda Mingəçevir, Naftalan, Xocalı və Goranboy şəhər və rayonlarından olan vətəndaşları qəbul edib.

Xidmət rəhbərliyinin keçirdiyi qəbullarda 41 vətəndaşın müraciəti dinlənilib. Vətəndaşların müraciətləri əsasən həqiqi hərbi xidmətə və ya işə qəbul, övladlarının xidmət yerinin müəyyənləşdirilməsi və təkrar tibbi müayinəyə cəlb edilməsi, həqiqi hərbi xidmətə çağırışdan möhlət verilməsi, şəhid statusunun, veteran adı və vəsiqəsinin verilməsi, eləcə də digər məsələlər ilə bağlı olub.

Bəzi vətəndaşlar tərəfindən qaldırılan və xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınıb.

**AZƏRTAC**

## Sumqayıt Şəhər İcra Hakimiyyəti 2020-ci ildə 221500 - “Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınması” bütün nov yataq ləvazimatlarının və 311150 - “Maşın və avadanlıqlar” maddəsi üzrə satınalınan bütün nov elektroavadanlıqların satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçiriləcəkdir.

LOT 1 - 221500 - “Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınması” bütün nov yataq ləvazimatlarının alınması

LOT 2 - 311150 - “Maşın və avadanlıqlar” maddəsi üzrə satınalınan bütün nov elektroavadanlıqların alınması

Tender iştirakçılarına təklif olunur ki, www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsi ilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar hər bir LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsiiə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT-1 200 manat**
**LOT-2 120 manat**

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab №: AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu 7y İqtisadi təsnifat 142340**
**VÖEN: 2900054881**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **13 mart 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **30 mart 2020-ci il saat 16:00-a** qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri **31 mart 2020-ci il saat 16:00-da** Portalda açılacaqdır.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## “Bakı Metropoliteni” QSC işıqlandırma sistemi üçün avadanlıq və malların satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1. İşıqlandırma sistemi üçün avadanlıq və malların satın alınması**

**İştirak haqqı - 250 manat**

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN) :**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **13 mart 2020-ci il saat 14:30-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **30 mart 2020-ci il saat 14:30-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **31 mart 2020-ci il saat 14:30-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi Bakı şəhərində Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi üçün təlim və məsləhət xidmətinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumat əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 1300 AZN**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

**Təşkilatın adı: Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi**
**VÖEN: 1603326271**
**Bank rekvizitləri: “Kapital Bank” ASC-nin Mərkəzi filialı**
**H/h: AZ33AIIB38060019440419716102**
**VÖEN: 9900003611**
**Kod: 200026**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**
**Büdcə səviyyəsinin kodu: 7**
**Büdcə təsnifatının kodu: 142340**

**Tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü güvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18.03.2020-ci il saat 18:00-dək** və tender təklifi ilə bank təminatı sənədlərini **02.04.2020-ci il saat 16:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **03.04.2020-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

İddiaçılar E-şərtlər toplusunu **21.02.2020-ci il saat 16:00-dan** (elan tarixi günü) sonra əldə edə bilərlər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## BİLDİRİŞ

“Bakı Metropoliteni” QSC tərəfindən 30.01.2020-ci il tarixdə keçirilmiş “Bakı Metropoliteni” QSC-nin Təlim Tədris Mərkəzində robototexnika məşğələlərinin təşkili üçün avadanlıqlar və proqram təminatının kotirovka sorğusu üsulu ilə satın alınmasına dair müsabiqədə “İnzone” MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 18.02.2020-ci il tarixdə ƏDV-siz 28930,00 manat (iyirmi səkkiz min doqquz yüz otuz manat 00 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün Bakı şəhəri və ətrafından və Gəncə şəhərindən bir, iki və üç otaqlı olmaqla ümumilikdə 300 mənzilin satın alınması.

Təklif olunan mənzillər təmirli olmalı, kommunikasiya xətləri mövcud olmalı və kommunal borcları olmamalı və mənzillərin Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən verilmiş çıxarışları olmalıdır. Səmərəli olduğu təqdirdə, heç bir tender təklifi tender predmetinin tam həcmdə icrasını təmin etmədikdə, tender predmeti iki və daha çox iddiaçı arasında bölünür.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (Əlaqələndirici şəxs: Tender komissiyası (012) 596-44-09) ünvanından ala bilərlər.

**İştirak haqqı: 100,00 manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/h: AZ80CTRE00000000000002138501**

**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **6 aprel 2020-ci il saat 18:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **15 aprel 2020-ci il saat 17.00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **16 aprel 2020-ci il saat 15.30-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Bərdə İdarəetmə və Texnologiya Kollecinin direktoru və müavini rüşvət almaqda şübhəli bilindikləri üçün tutulublar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən uğurlu islahatlardan biri kimi təhsil sektorunun inkişafına yönələn dövlət proqramları və layihələrin icrası nəticəsində təhsil xidmətlərinin müasir tələblər səviyyəsində qurulması istiqamətində mühüm addımlar atılır. Bununla yanaşı, dövlətin bu sahədə həyata keçirdiyi mütərəqqi siyasətə kölgə sala biləcək qanunsuz hərəkətlərə qarşı ən ciddi mübarizə tədbirləri davam etdirilməkdədir.

Təhsil Nazirliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, Bərdə İdarəetmə və Texnologiya Kollecinin direktorunun qanunsuz hərəkətləri barədə daxil olmuş məlumatlar əsasında Təhsil Nazirliyinin əməkdaşlarının iştirakı ilə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilib.

Bu tədbirlərlə Bərdə İdarəetmə və Texnologiya Kollecinin direktoru Xaləddin Ələkbərovun kollecin direktor müavini İlqar Dursunovun vasitəsilə tələbələrin qış imtahan sessiyasından müvəffəqiyyətlə keçməsi, dərslərdə iştirak etməyənlərin davamiyyətinin nizama salınması, tələbələrin aylıq pul müqabilində dərslərdən buraxılması, digər təhsil müəssisələrindən köçürülməsi və sair hallarla bağlı kütləvi şəkildə rüşvət almasına əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 311.3.1-ci və 311.3.2-ci (Rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və təkrar törədildikdə) maddələri ilə cinayət işi başlanıb.

Cinayət işi üzrə hərtərəfli, tam və obyektiv istintaq aparılmasını təmin etmək məqsədilə Bərdə İdarəetmə və Texnologiya Kollecinin direktoru Xaləddin Ələkbərovun və direktor müavini İlqar Dursunovun xidməti otaqlarında məhkəmə qərarı ilə axtarış aparılıb, kollecin tələbələrinə məxsus tələbə biletləri və diplomlar, tələbələrdən alınmış müxtəlif məbləğlərdə pul vəsaitlərinə dair qeydlər və iş üzrə digər əhəmiyyətli sənəd və əşyalar aşkar edilərək götürülüb.

İstintaq zamanı toplanmış ilkin sübutlarla Xaləddin Ələkbərovun və İlqar Dursunovun həmin qanunsuz hərəkətləri törətməsinə əsaslı şübhələr müəyyən edildiyindən onlar şübhəli şəxs qismində tutulublar.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin və həmin şəxslərin qanuni mənafelərini pozmuş olduqları kollec tələbələrinin dairəsinin tam müəyyənləşdirilməsi, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Təhsil Nazirliyi bu qəbildən olan qanunazidd hallarla üzləşən vətəndaşlardan Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin 161 saylı və Təhsil Nazirliyinin 146 saylı “qaynar xətt” əlaqə mərkəzlərinə məlumat vermələrini xahiş edir.

## DTX Neftçala rayonunda vəzifəli şəxslərlə bağlı keçirilən əməliyyat barədə məlumat yayıb

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Neftçala rayonunda vəzifəli şəxslərlə bağlı keçirilən əməliyyat barədə məlumat yayıb.

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Neftçala Rayon İcra Hakimiyyətinin vəzifəli şəxslərinin səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edib vətəndaşların hüquqlarına, cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran çoxsaylı cinayət əməllərinə yol vermələri ilə bağlı başlanılmış cinayət işi üzrə kompleks əməliyyat-istintaq tədbirləri həyata keçirilir.

Araşdırmalar əsasında şübhəli şəxs qismində tutularaq cinayət məsuliyyətinə cəlb edilən şəxslər və onlar tərəfindən törədilmiş cinayət əməlləri barədə ictimaiyyətə geniş məlumat veriləcək.

***“Qaupore” MMC-yə məxsus Nizamnamə, Asan imza, Sertifikat, möhür, VÖEN (1904163641) Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.***

***“Aydost” MMC-yə məxsus Nizamnamə, Asan imza, Sertifikat, möhür, VÖEN (1904163081) Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.***

***“Kolima” MMC-yə məxsus Nizamnamə, Asan imza, Sertifikat, möhür, VÖEN (1904163491) Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.***

***“Tunqus” MMC-yə məxsus Nizamnamə, Asan imza, Sertifikat, möhür, VÖEN (1904163511) Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.***

***“Daloda” MMC-yə məxsus Nizamnamə, Asan imza, Sertifikat, möhür, VÖEN (1904163361) Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov komissiyanın üzvləri və katibliyin rəhbərliyi 64 saylı Sabirabad ikinci seçki dairəsi dairə seçki komissiyasının sədri

**ŞÜKÜR İMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Milli Məclis Aparatı Beynəlxalq münasibətlər şöbəsinin müdiri və əməkdaşları iş yoldaşları Aynur Nurəhmədovaya atası

**MÜLATİF ADUROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin “1№-li Yol İstismarı” MMC-nin direktoru Hidayət Rzayevə anası

**SƏKİNƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Azərişıq” ASC-nin sədri Vüqar Əhmədov və səhmdar cəmiyyətin kollektivi Enerji Satış Departamentinin direktoru Elçin Dadaşova anası

**ELMİRA YAQUB QIZI DADAŞOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Balakən Rayon Məhkəməsinin sədri Hümbət Səlimov və məhkəmənin kollektivi Şəki Apelyasiya Məhkəməsinin hakimi Rövşən Rəfiyevə anası

**RAYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şirvan Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi məhkəmə aparatının rəhbəri Ramil İsayevə atası

**YAQUB İSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şirvan Apelyasiya Məhkəməsinin kollektivi Şirvan Apelyasiya Məhkəməsinin hakimi Zeynal Zeynalova qardaşı

**ƏLİBALA ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6940
Sifariş 584
Qiyməti 40 qəpik